


**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti — 31 oktyabr 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR



**BDU və Türkiyənin Qara Dəniz Texniki Universiteti arasında anlaşma memorandumu imzalanıb** →Səh.2

**"QS 2026" qlobal reytinqinə daxil olan universitetlərimiz təltif olunub** →Səh.2

**THE BDU rektorunun beynəlxalq əməkdaşlıqlar barədə müsahibəsini dərc edib** →Səh.2

**BDU Birləşmiş Ərəb Əmirliklərinin Ajman Universiteti ilə anlaşma memorandumu imzalayıb** →Səh.7

**Prezident təqaüdünə layiq görülmüş BDU tələbələri ilə görüş** →Səh.7

**BDU ilə Koreyanın Sejonq Universiteti arasında əməkdaşlıq genişləndirilir** →Səh.11

**BDU-da Müstəqilliyin Bərpası Günü qeyd edilib** →Səh.12





**2027–2030-cu illərdə elm və ali təhsilin strateji hədəfləri müzakirə olunub** →Səh.2





**BDU və Türkiyənin Kilis 7 Aralık Universiteti arasında anlaşma memorandumu imzalanıb** →Səh.3





**BDU-da AMEA-nın 80 illik yubileyi qeyd olunub** →Səh.4





**BDU və ABŞ-nin Mədəniyyət və Təhsil üzrə Nizamnaməli İnsititutu arasında anlaşma memorandumu imzalanıb** →Səh.6





**BDU-da ATU-nun 95 illik yubileyi qeyd olunub** →Səh.6




## 18 Oktyabr – Müstəqilliyin Bərpası Günüdür

***18 oktyabrın doğma Azərbaycanımızın dövlət müstəqilliyini bərpa etməsindən 34 il keçir.***

1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazandı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etdi.

Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşib, ağır sınaqlardan keçib. Daxili çəkişmələr, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirib, onun gələcək taleyini sual altına qoyub. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalıb, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşüb. Baş verənlər bir daha göstərib ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.

Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı.

Uzun illər ərzində Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutduğu strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün gördüyü fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması – Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsi ilə tarixi Zəfərə imza atdı, düşmən tapdağı altında olan torpaqlarımızda üçrəngli bayrağımızı ucaltdı.

Azərbaycan dövlətinin qüdrəti, qəhrəman xalqımızın sarsılmaz birliyi, qazilərimizin qanı, şəhidlərimizin canı bahasına əldə edilən tarixi Qələbəmiz sonrakı zəfərlərə yol açdı. Dörd il bundan əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuz 30 illik işğala son qoymuşdusa, 2023-cü il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etdi. 2023-cü il sentyabrın 19-da isə cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Şanlı qələbəmizin möhtəşəm və məntiqi sonluğu oktyabrın 15-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Ağdərə, Xocalı, Əsgəran və ən əsası isə Xankəndidə üçrəngli bayrağımızı qaldırması oldu. Bununla da Müzəffər Ali Baş Komandan və onun əmrinə daim hazır olan Azərbaycanın qəhrəman oğulları tariximizin ən önəmli səhifələrinə yekun nidanı qoydular.

Bəli, artıq Azərbaycan xalqı beş ildir ki, müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayır.

Azadlıq, müstəqil dövlət halında yaşamaq xalqımız üçün ən böyük xoşbəxtlikdir, misilsiz nemətdir. Dövləti olmayan xalq məhvə məhkumdur. Şəhidlərimizin qanları bahasına qazandığımız və möhkəmləndirdiyimiz müstəqilliyimiz əbədi olsun! Üçrəngli bayrağımız bugünkü kimi həmişə Vətənimizin hər qarışında dalğalansın!

Bayramınız mübarək!


**Bakıda Süni intellekt və verilənlər elmi üzrə II Avrasiya Forumu keçirilib** →Səh.9

# "QS 2026" qlobal reytinqinə daxil olan universitetlərimiz təltif olunub

***Oktyabrın 3-də "QS 2026" qlobal reytinqində yer alan Azərbaycan universitetlərinin təltif olunması mərasimi keçirilib.***



Tədbirdə elm və təhsil nazirinin müavini Həsən Həsənli, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, aparıcı universitetlərimizin rəhbər heyəti və QS agentliyinin regional direktoru Sergey Xristolyubov iştirak edib.

Qeyd edək ki, cari ilin iyun ayında elan olunmuş "QS 2026" qlobal reytinqinə Azərbaycandan ilk dəfə 9 universitet daxil olub. Bu göstərici ötən ilə nisbətən 3 dəfə artıb. Eyni zamanda, Azərbaycandan sözügedən reytinqə daxil olan universitetlərin sayı digər Cənubi Qafqaz ölkələrindən bu reytinqə daxil olan cəmi universitet sayından 3 dəfə çoxdur.

# 2027–2030-cu illərdə elm və ali təhsilin strateji hədəfləri müzakirə olunub

***Oktyabrın 6-da Bakı Dövlət Universitetində "Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf strategiyası" layihəsinin elm və ali təhsil istiqamətlərinə həsr olunmuş iclas keçirilib.***



Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, elm və təhsil nazirinin müavinləri, nazirliyin müvafiq struktur bölmələrinin rəhbərləri və ali təhsil müəssisələrinin rektorları iştirak ediblər.

İclasda "Elm və ali təhsil ekosisteminin gücləndirilməsi" mövzusunda təqdimat edilib. Təqdimatda 2022–2025-ci illərdə elm və ali təhsil sahəsində əldə olunan nəticələr və 2030-cu ilə qədər nəzərdə tutulan fəaliyyət istiqamətləri barədə məlumat verilib.

Müzakirələr zamanı ali təhsilin əhatəliliyinin və əlçatanlığının artırılması, məzmun və keyfiyyət göstəricilərinin müasirləşdirilməsi, beynəlxalq rəqabətlilik və mobilliyin gücləndirilməsi, dövlət-özəl tərəfdaşlığı çərçivəsində elmin və ali təhsilin inkişaf etdirilməsi, elmi potensialın gücləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi kimi prioritetlər diqqətə çatdırılıb.

Bununla yanaşı, ali təhsil müəssisələrinin strateji inkişaf planlarının ölkənin sosial-iqtisadi hədəflərinə uyğunlaşdırılması, universitetlərin beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və nəticə əsaslı elmi tədqiqatların stimullaşdırılması ilə bağlı təkliflər irəli sürülüb.

İştirakçılar qarşıdakı dövr üçün prioritetlərin müəyyənləşdirilməsi, müasir tələblərə cavab verən ali təhsil ekosisteminin formalaşdırılması və elmin cəmiyyətin inkişafındakı rolunun daha da gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparıblar.

# THE BDU rektorunun beynəlxalq əməkdaşlıqlar barədə müsahibəsini dərc edib

*Məqalədə BDU-nun rektoru Universitetin missiyasının əsasını beynəlmiləlləşmənin təşkil etdiyini qeyd edərək bildirib ki, "BDU-nun inteqrə olunmuş təhsil yanaşması onun akademik proqramlarının ən yüksək beynəlxalq standartlara cavab verməsini və qlobal rəqabət qabiliyyətini qorumasını təmin edir".*

***Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin Universitetin beynəlxalq əməkdaşlıqları və qlobal mövqeyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi uğurlu təşəbbüsləri barədə müsahibəsini dərc edib.***

Müsahibə "Beynəlxalq tərəfdaşlıqlar Bakı Dövlət Universitetinin qlobal izini möhkəmləndirir" ("Global partnerships cement Baku State University's international footprint") adlı məqalə şəklində dərc olunub. Məqalədə BDU-nun beynəlxalq ələqələrinin genişlənməsi, elmi potensialın güclənməsi və strateji tərəfdaşlıqların Universitetin qlobal rəqabət qabiliyyətini artırdığı vurğulanır.

Məqalədə BDU-nun rektoru Universitetin missiyasının əsasını beynəlmiləlləşmənin təşkil etdiyini qeyd edərək bildirib ki, "BDU-nun inteqrə olunmuş təhsil yanaşması onun akademik proqramlarının ən yüksək beynəlxalq standartlara cavab verməsini və qlobal rəqabət qabiliyyətini qorumasını təmin edir". Bu əməkdaşlıqlar tələbə və müəllim mübadiləsini, birgə elmi tədqiqatları və beynəlxalq standartlara uyğun tədris proqramlarını əhatə edir. Həmçinin qeyd olunub ki, BDU beynəlxalq tələbə və tədqiqatçılar üçün mühüm elmi mərkəzə çevrilib. Hazırda Universitetdə bir çox ölkədən tələbələr təhsil alır, bu da BDU-nun çoxmədəniyyətli mühitini daha da zənginləşdirir. BDU rektoru bildirib ki, Universitet BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) və qlobal reytinq göstəricilərinə uyğun fəaliyyətini məlumatlara əsaslanan analitik sistemlər vasitəsilə izləyir və təkmilləşdirir: "Universitetin fəaliyyətinin təkmilləşdirilməsi məlumatlara əsaslanır, şəffafdır və ən yaxşı qlobal təcrübələrlə uzlaşır".

# BDU və Türkiyənin Qara Dəniz Texniki Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Oktyabrın 2-də BDU və Türkiyə Respublikasının Qara Dəniz Texniki Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Qara Dəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planları və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1955-ci ildə qoyulmuş Qara Dəniz Texniki Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir.

# BDU Türkiyənin Burdur Mehmet Akif Ersoy Universiteti ilə əməkdaşlıq edəcək

***Oktyabrın 3-də BDU və Türkiyə Respublikasının Burdur Mehmet Akif Ersoy Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Burdur Mehmet Akif Ersoy Universitetinin rektoru Hüseyin Dalgar imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 2006-cı ildə qoyulmuş Burdur Mehmet Akif Ersoy Universiteti Türkiyənin nüfuzlu universitetlərindən biridir.

# BDU və Qazaxıstanın Astana Beynəlxalq Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Oktyabrın 21-də BDU və Qazaxıstan Respublikasının Astana Beynəlxalq Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Astana Beynəlxalq Universitetinin rektoru Serik İrsalıyev imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

# Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru – professor Aida İmanquliyeva



*10 oktyabr görkəmli şərqşünas alim, Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın doğum günüdür.*

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhərindəki 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Bakı Dövlət Universitetinin (BDU) Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə Universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və İnstitutun direktoru vəzifəsinədək yüksəlib.

Ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə sərf edən Aida xanım İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib. 1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç fundamental monoqrafiyanın - "Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasına da böyük diqqət yetirirdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Bakı Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida xanımın ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı olduğunu keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər. Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Yazıçılar Birliyinin üzvü olub.

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə və yeni bir yol açıb. Onun bu gün də aktuallığını qoruyub saxlayan əsərləri, monoqrafiyaları ərəb ədəbiyyatını araşdıran gənc alimlər üçün əsas istinad qaynağıdır.

Aida İmanquliyevanın işıqlı xatirəsi ürəklərdə daim yaşayacaq!

# BDU-da Xalq şairi Vahid Əzizlə görüş

***Oktyabrın 10-da Bakı Dövlət Universitetində "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə şair, tərcüməçi, Xalq şairi Vahid Əzizin tələbələrlə görüşü keçirilib. Görüşdə Azərbaycan Könüllü Təşkilatları İttifaqına üzv olan qurumların könüllüləri də iştirak ediblər.***

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Qarabağda tarixi Zəfərin beşinci ildönümünün qeyd edildiyi günlərin hər kəsdə qürur hissi yaratdığını bildirib. O qeyd edib ki, Azərbaycan xalqı həm qəhrəman, həm də yaradıcı xalqdır: "Azərbaycan ədəbiyyatı hər zaman öz şairləri, ədibləri ilə fəxr edib, çünki onlar hər zaman əsərlərində bəşəri dəyərləri, ülvi hissləri və Vətənə məhəbbəti



təbliğ ediblər. Müasir Azərbaycan ədəbiyyatının böyük simalarından olan Xalq şairi Vahid Əzizlə görüş də gənc nəslin bu ideyalara sadiq böyüməsi üçün təşkil edilib. Maraqlı məqamlardan biri də odur ki, bugünkü tədbirimizdə yalnız BDU tələbələri deyil, digər ali təhsil müəssisələrinin də tələbələri iştirak edirlər. İnanıram ki, bu görüş gənclərimiz üçün faydalı və maraqlı olacaq".

Tədbirin moderatoru, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı Xalq şairi Vahid Əzizin həyat və yaradıcılıq yolundan söz açıb. Qeyd edib ki, görkəmli şair 1945-ci il noyabrın 23-də Qərbi Azərbaycanın Dərələyəz mahalının Paşalar kəndində anadan olub, orta məktəbi Tərtər rayonunda bitirib. Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra bir sıra hökumət vəzifələrində fəaliyyət göstərib. Ötən əsrin 60-cı illərindən ədəbi fəaliyyətə başlayan Vahid Əzizin yaradıcılığında sevgi motivi daim öndə olub. Vahid Əzizin şeirlərinə bəstələnmiş mahnılar milli musiqi xəzinəmizin ən gözəl nümunələrindəndir. Şairin yaradıcılığına ən yüksək dəyər isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Xalq şairi fəxri adının verilməsi olub.

Sonra söz Vahid Əzizə verilib. Universitet mühitində tələbələrlə görüşün şair üçün yaddaqalan olduğunu deyən Vahid Əziz görüşün təşkilinə görə BDU rəhbərliyinə və tələbələrə təşəkkürünü bildirib. Görkəmli şair Zəfərimizin beşinci ilində keçirilən görüşdə əvvəlcə müəllifi olduğu "Mübarəkdir!" şeirini səsləndirib. Müqəddəs qələbəmizin Azərbaycan tarixinin qızıl səhifəsinə çevrildiyini deyib.

Daha sonra tanınmış şair yaradıcılığının ən sevilən şeirlərini səsləndirib, tələbələrin çoxsaylı suallarını cavablandırıb. Görüşdə BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin əməkdaşlarının ifasında Vahid Əzizin şeirlərinə bəstələnən musiqilər ifa olunub.

Sonda BDU rektoru Elçin Babayev görüşdə iştirakına görə Vahid Əzizə təşəkkür edib, belə görüşlərin tələbəlik həyatının ən unudulmaz anlarından olduğunu bildirib.

# BDU-nun həmtəşkilatçılığı ilə Özbəkistanda Beynəlxalq elmi konfrans keçirilib

***Oktyabrın 23-də Özbəkistanın Nukus şəhərində yerləşən Qaraqalpaq Təbiət Elmləri Elmi-Tədqiqat İnstitutunda BDU, Andijan Dövlət Universiteti (Özbəkistan) və Ege Universitetinin (Türkiyə) birgə təşkilatçılığı ilə "Avrasiyada biomüxtəlifliyin qorunması: müasir problemlər, həll yolları və perspektivlər" mövzusunda III Beynəlxalq elmi konfrans keçirilib.***

Avrasiyada, xüsusilə də türk dövlətləri arasında elmi əməkdaşlığı gücləndirmək, tədqiqat ənənələrini bərpa etmək və biomüxtəlifliyin qorunması istiqamətində yeni elmi yanaşmaların formalaşdırılmasına şərait yaratmaq məqsədilə keçirilən konfransda BDU-nun Biofizika və biokimya kafedrasının müdiri, professor Rövşən Xəlilov plenar məruzə ilə çıxış edib.

Tədbirdə Özbəkistan, Türkiyə, Qırğızıstan və Qazaxıstandan olan elmi müəssisələrin nümayəndələri ilə görüşlər keçirilib, əməkdaşlıq əlaqələrinin inkişafı müzakirə edilib. Konfrans çərçivəsində həmçinin Avrasiyada biomüxtəlifliyin qorunması, flora və faunanın davamlı istifadəsi, ekosistemlərin bərpası, nadir və nəsli kəsilməkdə olan növlərin mühafizəsi, eləcə də ekoloji monitorinq və qiymətləndirmənin müasir metodlarının tətbiqi mövzularında geniş müzakirələr aparılıb.

# BDU və Türkiyənin Kilis 7 Aralık Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Oktyabrın 23-də BDU və Türkiyə Respublikasının Kilis 7 Aralık Universiteti arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***



Memorandumu BDU rektoru Elçin Babayev və Kilis 7 Aralık Universitetinin rektoru Zekeriyya Akman imzalayıblar.

İmzalanma mərasimində çıxış edən rektor Elçin Babayev qonağa BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verib. BDU-nun türkdilli ölkələrlə, o cümlədən qardaş Türkiyənin ən tanınmış universitetləri ilə sıx əməkdaşlıq etdiyini bildirib. Rektor qeyd edib ki, hər iki universitet birgə elmi tədqiqatlar apara, ortaq layihələr, tədbirlər icra edə bilər.

Kilis 7 Aralık Universitetinin rektoru Zekeriyya Akman rəhbərlik etdiyi ali təhsil ocağının 12 fakültəsində 15 min tələbənin təhsil aldığını bildirib. O, xüsusilə iqtisadiyyat, sosial elmlər, kənd təsərrüfatı üzrə BDU ilə geniş əməkdaşlıq imkanlarının olduğunu bildirib.

Qeyd edək ki, memorandum çərçivəsində birgə layihələrin, ortaq beynəlxalq elmi seminar və konfransların keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkili nəzərdə tutulur. Bundan əlavə, memorandum universitetlərin tədris, tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində təcrübələrinin bölüşdürülməsi üçün yeni imkanlar yaradacaq.

# BDU-da AMEA-nın 80 illik yubileyi qeyd olunub

***Oktyabrın 7-də BDU-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



BDU rektoru Elçin Babayev 80 illik şərəfli yol keçən AMEA-nın əməkdaşlarını təbrik edib, ölkəmizin elmi potensialının güclənməsi və inkişafı, müstəqil Azərbaycan Respublikasının daha da qüdrətlənməsi naminə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor bildirib ki, bu yubiley bir elmi qurumun deyil, bütövlükdə Azərbaycan elmi, milli düşüncəsi və intellektual irsinin bayramıdır: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 80 illik yubileyinin qeyd edilməsi barədə 2025-ci il 18 mart tarixli Sərəncamı Akademiyanın ölkəmizdə elmin inkişafı, bu sahədə fəaliyyətin təşkili və yüksəkixtisaslı kadrların hazırlanmasındakı roluna verilən yüksək dəyəri bir daha sübut edir. Bu mühüm sənəddə Akademiyanın ölkəmizdə elmin inkişafı, elmi fəaliyyətin təşkili və yüksək ixtisaslı kadrların hazırlanmasındakı böyük rolu xüsusi vurğulanır. Ümummilli Lider Heydər Əliyev elmin və təhsilin inkişafını həmişə ölkənin gələcəyi ilə birgə dəyərləndirirdi. Ulu Öndərin yaratdığı bu möhkəm elmi və mənəvi təməl üzərində Azərbaycanda elm bu gün özünün yeni inkişaf mərhələsini yaşayır. Bu böyük ənənə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıllıqla davam etdirilir. Onun rəhbərliyi ilə ölkəmizdə elm və təhsil sahəsində fundamental islahatlar həyata keçirilir, elmin idarəetmə mexanizmi təkmilləşdirilir. Elmi nəticələrin innovasiyaya çevrilməsi, elm-universitet-sənaye əməkdaşlığının genişlənməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib".

Rektor bildirib ki, 1945-ci ildə AMEA yaradıldıqdan qısa müddət sonra ölkəmizin elmi həyatının mərkəzinə çevrildi, xalqımızın intellektual potensialının formalaşması, milli kimliyimizin elmi əsaslarla öyrənilməsi və qorunmasında mühüm rol oynadı. Akademiyanın yaranması Azərbaycanda elmin dövlət səviyyəsində təşkilatlanması, onun müstəqil inkişaf yoluna çıxması demək idi. Ancaq bu böyük elmi məktəbin kökləri daha qədimə - 1919-cu ilə gedir. Çünki o zaman yeni yaradılmış BDU-nun ilk professorları, ilk elmi laboratoriyaları, elmi məktəbləri sonradan AMEA-nın əsasını qoyan qüvvələrə çevrildi: "Bakı Dövlət Universiteti Azərbaycan elminin beşiyidirsə, Azərbaycan Milli Elmlər Akademiyası onun yetkinlik zirvəsidir. Bu iki elmi mərkəz tarix boyu bir-birini tamamlayıb, bir-birinə dayaq olub. AMEA-nın yaranması və inkişafında BDU-nun rolu əvəzsizdir. 1926-1932-ci illərdə BDU-nun professor və məzunları Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (DETİ) əsas elmi qüvvəsini təşkil edib, sonradan bu institutun bazasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi yaradılıb. Sovet dövründə Universitetin alimləri və məzunları Akademiyanın elmi-tədqiqat bölmələrinin əsas heyətini təşkil edərək, xüsusilə fundamental elmin inkişafında mühüm rol oynayıblar. Həbibulla Əmirxanov, Abdulla Qarayev, Aleksandr Makovelski kimi görkəmli alimlər, eləcə də Akademiyanın təsisçilərindən olan Heydər Hüseynov, Yusif Məmmədəliyev, Aleksandr Qrossheym və Mirəli Qaşqay BDU-nu şərəflə təmsil edirdi. Ayrı-ayrı dövrlərdə iki dəfə Elmlər Akademiyasına rəhbərlik etmiş, dünya şöhrətli alim Yusif Məmmədəliyev 1954–1958-ci illərdə BDU-nun rektoru kimi fəaliyyət göstərib. Bu gün də yüzlərlə BDU məzunu AMEA-nın müxtəlif institut və mərkəzlərində çalışır, elmin inkişafında, yeni istiqamətlərin formalaşmasında və beynəlxalq səviyyədə Azərbaycanda elmin nüfuzunun yüksəldilməsində mühüm rol oynayır. Onların uğurları BDU-nun elmi məktəblərinin, tədris ənənələrinin və mənəvi dəyərlərinin davamı kimi dəyərləndirilir. BDU ilə AMEA arasında bu mənəvi və elmi bağ ötən əsrdə olduğu kimi, bu gün də Azərbaycanda elmin inkişafının hərəkətverici qüvvəsidir. BDU və AMEA eyni elmi məfkurənin, milli intellektual inkişafın sütunlarıdır. Onların qarşılıqlı fəaliyyəti, elmi varislik və əməkdaşlıq ənənəsi bu gün də Azərbaycanda elmin gələcək uğurlarının əsasını təşkil edir".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli AMEA-nın 80 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamın milli fikrin, elmin, ziyalılığın inkişafına dövlət qayğısının bariz nümunəsi olduğunu bildirib. O, AMEA-nın tarixi inkişaf mərhələlərinə nəzərə salıb, Akademiyanın yüksəlişinin məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırıb: "AMEA-nın 1993-cü ildən sonrakı inkişafını "milli Akademiya quruculuğu" adlandırmaq olar. Ulu Öndər Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verilib. Bu tarixi fərman milli maraqlar və dövlətimizin mənafeyi çərçivəsində AMEA-nın inkişafını hədəfləyir. AMEA-nın 2003-2022-ci illər dövrünü innovasiya və modernləşmə, 2023-cü ildən sonrakı dövrünü isə yenilənmə və islahat mərhələsi hesab etmək olar".

AMEA prezidenti qeyd edib ki, elm və ali təhsilin qarşılıqlı vəhdəti ölkəni irəli aparan əsas hərəkətverici qüvvədir. O, Azərbaycan ali təhsilinin flaqmanı olan BDU-da Akademiyanın 80 illik yubileyinin qeyd olunmasına görə təşəkkürünü bildirib, bu səmərəli əməkdaşlığın bundan sonra da uğurla davam edəcəyini diqqətə çatdırıb.

Milli Məclis sədrinin müavini, BDU-nun professoru, akademik Rəfael Hüseynov, elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, BDU-nun Ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Arzu İsgəndərzadə çıxışlarında AMEA-nın respublikanın elmi-intellektual potensialının əsas daşıyıcısı, Azərbaycan elminin inkişafı, milli ruhun yüksəlişində dayaq nöqtəsi olduğunu bildiriblər. Çıxışlarda AMEA-nın ölkədə fundamental tətbiqi və humanitar elmlərin, milli mədəniyyətimizin, ədəbiyyatımızın, dilimizin inkişafında, milli-mənəvi dəyərlərimizin qorunmasında müstəsna xidmətləri vurğulanıb.

Sonra AMEA-nın tarixi və fəaliyyəti haqqında videoçarx, BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bədii kompozisiya nümayiş olunub.

# Azərbaycan Milli Elmlər Akademiyası - 80 illik şərəfli yol

***Bu il Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyi qeyd olunur. Elmimizin bu böyük bayramı həm tariximizə, həm də gələcəyimizə olan inamın təzahürüdür. 80 il-bir elm məbədinin formalaşması, inkişafı və ölkəmizin tərəqqisinə xidmət etməsi baxımından çox mühüm bir dövrdür.***

Bu yubileyin Bakı Dövlət Universitetində keçirilməsi təsadüfi deyil. Azərbaycan elminin və təhsilinin beşiyi sayılan BDU, ötən əsrin əvvəllərindən bu günə qədər yüzlərlə alim, ziyalı və dövlət xadimi yetişdirib. Akademiyanın 80 illiyi münasibətilə bu elm ocağında çıxış etmək hər bir alim üçün qürurvericidir.

Son illər AMEA-nın fəaliyyətində yeni mərhələ başlanıb. Akademiyanın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə aparılan islahatlar elmin inkişafına böyük təkan verib. Bu gün AMEA-da əsas məqsəd ölkənin elmi potensialını dövlətin müstəqilliyinin möhkəmlənməsinə, cəmiyyətin tərəqqisinə və insanların rifahına yönəltməkdir.

Az vaxtda görülən işlər göz qabağındadır. Yeni elmi istiqamətlər müəyyənləşdirilib, tədqiqatların səmərəliliyi artırılıb, Yüksək Texnologiyalar Parkı yaradılıb. Bütün bunlar elmin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin bariz nümunəsidir. Azərbaycan elmi çox qədim tarixə malikdir. Bu torpaqlarda Fəzl ibn Hatim Neyrizi, Əhməd ibn Süleyman Təbrizi, Xacə Nəsrəddin Tusi kimi dahilər yaşamış və dünya elminə mühüm töhfələr veriblər. Tusinin yaratdığı Marağa rəsədxanası orta əsrlərin ən böyük elmi mərkəzlərindən biri olub. Müasir dövrdə isə onun irsini Pirquluda fəaliyyət göstərən Şamaxı Astrofizika Rəsədxanası davam etdirir.

Ulu öndər Heydər Əliyev elmin inkişafına hər zaman xüsusi diqqət göstərib. Onun 1997-ci ildə alimlərlə keçirdiyi görüşdə irəli sürdüyü fikirlər bu gün də aktuallığını qoruyur. Həmin görüşdə elmi kadrların hazırlanması, elmi tədqiqatların istehsalata tətbiqi və elmin dövlət quruculuğundakı rolu kimi məsələlər xüsusi vurğulanırdı.

Bu siyasəti bu gün də Prezident İlham Əliyev uğurla davam etdirir. "Elm haqqında" və "Təhsil haqqında" qanunların qəbulu, "Elmin inkişafı üzrə Milli Strategiya", "Azərbaycan 2020: Gələcəyə baxış" və "2017-2030-cu illərdə Elmin inkişaf doktrinası" kimi mühüm sənədlər elmin gələcək istiqamətlərini müəyyənləşdirib.

Elmin inkişafı təhsildən ayrı təsəvvür edilə bilməz. Bakı Dövlət Universiteti ilə AMEA-nın əməkdaşlığı bu vəhdətin parlaq nümunəsidir. Akademiyanın alimləri universitetdə dərs deyir, tələbələrin buraxılış işlərinə rəhbərlik edir, elmi-tədqiqatlarda birgə iştirak edirlər.

BDU-da fəaliyyət göstərən SABAH qruplarında da tələbələr AMEA-nın elmi müəssisələrində təcrübə keçərək real elmi mühitlə tanış olurlar. Bu, həm gənclərin elmi marağını artırır, həm də gələcək mütəxəssislərin daha savadlı yetişməsinə imkan yaradır. Azərbaycanın iqtisadi inkişafında Yer elmlərinin rolu böyükdür. Ölkəmiz mineral-xammal ehtiyatları baxımından çox zəngindir. Bu sahədə aparılan tədqiqatlar, yeni yataqların aşkarlanması və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən işlər xüsusi əhəmiyyət daşıyır.

Bakı Dövlət Universitetinin alimləri "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti və "Azerbaijan International Mining Company" ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində universitetdə xüsusi auditoriya fəaliyyət göstərir, tələbələr istehsalat təcrübəsi keçir, elmi biliklərini praktik sahədə tətbiq edirlər.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycanın təbii ehtiyatları yalnız neft və qazla məhdudlaşmır. Qızıl, dəmir, mis və digər faydalı qazıntılar ölkənin iqtisadi müstəqilliyinin əsasını təşkil edir.

Bütün uğurlara baxmayaraq, elmin qarşısında həllini gözləyən məsələlər də az deyil. Elmi tədqiqatların nəticələrinin istehsalata tətbiqi, elmdə rəqabət mühitinin gücləndirilməsi, elmi idarəetmənin təkmilləşdirilməsi bu günün əsas çağırışlarıdır.

Elmin maliyyələşdirilməsi də diqqət mərkəzindədir. Dövlət büdcəsindən ayrılan vəsaitlə yanaşı, elmi fondlar, beynəlxalq qrantlar və özəl sektorun dəstəyi hesabına da elmi layihələr maliyyələşdirilməlidir.

Azərbaycan elmi böyük yol keçib. Bu yol min illərin irsini, onlarla dahi şəxsiyyətin zəhmətini və dövlətin elmə qayğısını özündə birləşdirir.

Bu gün AMEA və Bakı Dövlət Universiteti birlikdə çalışaraq elmi inkişafın, innovasiyanın və müasir təfəkkürün daşıyıcısına çevrilib. Elm və təhsil bir-birini tamamlayır, gənc nəslin yetişməsinə, ölkənin gələcəyinin möhkəmlənməsinə xidmət edir.

Azərbaycan elmi bu gün qlobal elmi məkanın fəal iştirakçısıdır və gələcəyə inamla addımlayır.

# BDU-da "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası - 2025" layihəsinin açılış mərasimi keçirilib

Layihə çərçivəsində Azərbaycanın 5 ali təhsil müəssisəsində müxtəlif İƏT ölkələrini təmsil edən Xarici İşlər nazirliklərinin, yekun mərhələdə İƏT Xarici İşlər Nazirləri toplantısının simulyasiya konfransları keçiriləcək. Bu simulyasiya konfransında münsiflər heyətinin qərarı ilə xarici dil qabiliyyəti və xüsusi yaradıcılıq bacarığı ilə seçilən tələbələr "Beynəlxalq İƏT Modeli" yarışmasında Azərbaycanı təmsil etmək hüququ qazanacaqlar.

***Oktyabrın 7-də artıq 15 ildir ki, Azərbaycanda hər il keçirilən "İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Modeli Beynəlxalq Münasibətlər Akademiyası - 2025" layihəsinin açılış mərasimi olub.***

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya Regional Mərkəzi (İƏGF Avrasiya Regional Mərkəzi), Gənclər və İdman Nazirliyi və Bakı Dövlət Universitetinin BDU birgə tərəfdaşlığı ilə həyata keçirilən layihədə iştirak etmək üçün 15-dən artıq aparıcı ali təhsil müəssisəsini təmsil edən 600-dən çox gənc müraciət edib. Müraciətçilər arasından mövzuya uyğun bilikləri və xarici dil bacarıqları ilə fərqlənən 100 nəfər gənc seçilib.

BDU-da keçirilən açılış mərasimində Universitetin rektoru Elçin Babayev, İƏGF Avrasiya Regional Mərkəzi İdarə Heyətinin sədri Elçin Əsgərov, Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Ramil Cabbarov çıxış ediblər. Natiqlər öz çıxışlarında "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası - 2025" layihəsinin əhəmiyyətindən bəhs edərək, onun islam ölkələrinin gəncliyinin inkişafındakı rolunu, Azərbaycan gənclərinin dünya arenasında təmsilçiliyinə verdiyi töhfələri xüsusi vurğulayıblar. Açılış mərasimindən sonra qonaq spiker qismində Mərakeş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Adil Embarş "Qlobal məsələlərdə beynəlxalq təşkilatların rolu: Mərakeşin xarici siyasət prioritetləri və Azərbaycanla əlaqələr" mövzusunda çıxış edib.



Qeyd edək ki, 6 həftə ərzində davam edəcək "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası - 2025" layihəsi çərçivəsində İƏT ölkələrini Azərbaycanda təmsil edən diplomatik missiya rəhbərləri, eləcə də azərbaycanlı rəsmilər və sahə üzrə ekspertlər beynəxalq münasibətlər, dövlət quruculuğu, islam sivilizasiyası, İƏT-in dünyada rolu, milli dövlətçiliyin əsasları və digər aktual mövzular üzrə məruzələrlə çıxış edəcəklər.

Bununla yanaşı, layihə çərçivəsində Azərbaycanın 5 ali təhsil müəssisəsində müxtəlif İƏT ölkələrini təmsil edən Xarici İşlər nazirliklərinin, yekun mərhələdə İƏT Xarici İşlər Nazirləri toplantısının simulyasiya konfransları keçiriləcək. Bu simulyasiya konfransında münsiflər heyətinin qərarı ilə xarici dil qabiliyyəti və xüsusi yaradıcılıq bacarığı ilə seçilən tələbələr "Beynəlxalq İƏT Modeli" yarışmasında Azərbaycanı təmsil etmək hüququ qazanacaqlar.

Xatırladaq ki, İƏT Modeli proqramının əsas məqsədləri İƏT məkanında gənclərin beynəlxalq əməkdaşlığının güclənməsinə dəstək vermək, gənclər təşkilatları rəhbərləri və üzvlərinin diplomatiya, idarəetmə, kommunikasiya sahələrində yeni bilik və təcrübə əldə etməsinə yardım etməkdir.

Ötən illər ərzində azərbaycanlı tələbələr dəfələrlə İƏT-ə üzv olan 40-dan artıq ölkə nümayəndəsinin iştirak etdiyi "Beynəlxalq İƏT Modeli" yarışmalarında Azərbaycanı layiqli şəkildə təmsil ediblər.

# Çin Xalq Respublikasının Pekin Kimya Texnologiyaları Universitetinin nümayəndə heyəti BDU-da

***Oktyabrın 30-da Çin Xalq Respublikasının Pekin Kimya Texnologiyaları Universitetinin dekan müavini Yu Yuenin rəhbərlik etdiyi əməkdaş və doktorantlardan ibarət nümayəndə heyəti BDU-da olub.***

Qonaqlar BDU-nun rektoru Elçin Babayevlə görüşüblər. Rektor Elçin Babayev Azərbaycan və Çin arasında yüksək səviyyəli siyasi, iqtisadi, elmi və mədəni əlaqələrin olduğunu qeyd edib. Bildirib ki, BDU Çinin ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir. Rektor bu əlaqələri daha da inkişaf etdirmək üçün Pekin Kimya Texnologiyaları Universiteti ilə müxtəlif istiqamətlərdə birgə ortaq layihələr həyata keçirməyin əhəmiyyətini vurğulayıb.



Görüşdə iki ali təhsil müəssisəsi arasında elmi və akademik əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Səfər çərçivəsində qonaqlar BDU-da fəaliyyət göstərən "Eko məkan", "Tələbə məkanı", Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi, Konfutsi İnstitutu ilə tanış olublar. Həmçinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyası, Materialşünaslıq laboratoriyası və digər tədqiqat laboratoriyalarında görülən işlər barədə məlumat alıb, Kimya fakültəsində aparılan elmi-tədqiqat işləri və nüvə maqnit rezonansı cihazı ilə tanış olublar. Tələbə İnkişaf Mərkəzində BDU-nun Kimya fakültəsinin professor-müəllim heyəti, doktorantları və Pekin Kimya Texnologiyaları Universitetinin əməkdaşları arasında görüş keçirilib.

Tədbirdə hər iki universitetin fəaliyyəti və tarixi haqqında videoçarxlar nümayiş etdirilib. Çinli doktorantlar öz elmi-tədqiqat işləri barədə məlumat verib, tərəflər arasında fikir mübadiləsi aparılıb.

# BDU-da "Ulu Öndər xatirələrdə" layihəsinin növbəti qonağı professor İzzət Rüstəmov olub

***Bakı Dövlət Universitetinin Heydər Əliyev muzeyinin təşkilatçılığı ilə "Ulu Öndər xatirələrdə" layihəsi davam edir. Layihənin növbəti qonağı Universitetin Sosial elmlər və psixologiya fakültəsinin məsləhətçi professoru İzzət Rüstəmov olub.***

Professor "Dahi şəxsiyyət: BDU-dan liderliyə gedən yol" mövzusunda mühazirə deyib, Ümummilli Lider Heydər Əliyev haqqında xatirələrini bölüşüb. O, 1994-1999-cu illərdə Baş nazirin müavini vəzifəsində çalışarkən Ulu Öndərlə birbaşa işləmək imkanı qazandığını diqqətə çatdırıb. Ümummilli Lider Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən danışan İzzət Rüstəmov Ulu Öndərin müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında, inkişafında və dünya ölkələri arasında tanınmasında əvəzsiz xidmətlərini vurğulayıb. O, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən elm və təhsil siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. İzzət Rüstəmov çıxışı zamanı Heydər Əliyevin liderlik xüsusiyyətlərindən, dövlət idarəçiliyindəki uzaqgörənliyindən və gənclər üçün nümunəvi şəxsiyyət olmasından bəhs edib.

Muzeyin mütəxəssisi Afət Seyidzadə çıxışında bildirib ki, artıq üç ildir muzeydə "Ulu Öndər xatirələrdə" layihəsi həyata keçirilir və tanınmış ziyalılar bu tədbirlərdə sevərək iştirak edirlər.

# Özbəkistanın Biznes və Elm Universitetinin nümayəndə heyəti BDU-da

***Oktyabrın 31-də BDU-da Özbəkistanın Biznes və Elm Universitetinin prorektoru Dilshod Xolmatovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.***

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov qonaqlara Universitetin tarixi, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, BDU son illər Özbəkistanın nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələri imzalayır, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirir. Birgə layihə və elmi tədqiqatlar regionun elmi potensialının gücləndirilməsi və təhsilin keyfiyyətinin artırılmasına xidmət edir. Hüseyn Məmmədov qeyd edib ki, BDU-da Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, 22 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Özbəkistanın Biznes və Elm Universiteti ilə xüsusilə təbiət və dəqiq elmlər sahələrində geniş elmi əməkdaşlıq imkanları var.

Qonaqlar təmsil etdikləri universitetin əsas fəaliyyət istiqamətləri barədə danışıblar. Azərbaycanın ən köklü universiteti olan BDU ilə əlaqələrin inkişaf edəcəyinə inamlarını ifadə ediblər.

Görüş zamanı birgə elmi konfransların təşkili, elmi-pedaqoji əlaqələrin qurulması, müəllim-tələbə mübadiləsi, ikili diplom proqramlarının tətbiqi kimi məsələlər müzakirə olunub.

# BDU-da ATU-nun 95 illik yubileyi qeyd olunub





***Oktyabrın 8-də BDU-da Azərbaycan Tibb Universitetinin yaradılmasının 95 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla qeyd olunub.

BDU rektoru Elçin Babayev milli səhiyyə sistemimizin, ali tibb təhsilinin inkişafında mühüm rol oynamış ATU-nun 95 illik yubileyi münasibətilə Universitetin kollektivini təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor diqqətə çatdırıb ki, 1919-cu ildə təsis edilmiş Bakı Dövlət Universitetinin Tibb fakültəsi əsasında 1930-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutu yaradılıb: “İlk dərs ilində BDU-da yalnız Tarix-filologiya və Tibb fakültələri fəaliyyət göstərirdi. BDU-ya ilk tələbələr 1919-cu ilin noyabrında qəbul edilib, Tibb fakültəsinə 368 tələbə və 122 sərbəst dinləyici qəbulu həyata keçirilib. Elə ilk illərdən elmi-pedaqoji keyfiyyətə üstünlük verilərək, həm nəzəri, həm də klinik tibb təhsilinin inkişafına zəmin yaradılıb, milli tibbi kadrların yetişdirilməsinə önəm verilib. Tibb Universitetinin əsası məhz belə möhkəm əsaslar üzərində qurulub. Bu faktlar təkcə tarixi bir əlaqə deyil - iki universitet arasında formalaşmış elmi və akademik ənənənin başlanğıcıdır. Sələflərimizin zəhməti və elmi məktəbi bu gün səhiyyə sahəsində ali təhsil ocağının inkişafı və nailiyyətlərinin əsasını təşkil edir”.

BDU rektoru vurğulayıb ki, hazırda bu ənənələr yeni məzmunla davam edir. Azərbaycan Tibb Universiteti regionda ali tibbi təhsilin aparıcı mərkəzlərindən birinə çevrilib, beynəlxalq elmi mühitlə fəal əməkdaşlıq edir və qlobal akademik proseslərdə fəal iştirakçı rolunu oynayır: “Universitetin bu nailiyyətləri ölkəmizdə elmə, təhsilə və səhiyyəyə göstərilən dövlət qayğısının nəticəsidir. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji kurs bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilir. Son illərdə dövlətimizin səhiyyə sistemində həyata keçirdiyi islahatlar bu strategiyanın praktik təzahürüdür. Müasir standartlara cavab verən tibb müəssisələrinin yaradılması, regionlarda ixtisaslaşdırılmış diaqnostika və müalicə mərkəzlərinin fəaliyyətə başlaması, infrastrukturun yenilənməsi və rəqəmsallaşma prosesinin sürətlənməsi səhiyyə xidmətlərinin keyfiyyətini və əlçatanlığını əhəmiyyətli dərəcədə artırıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun səhiyyə, sosial müdafiə və təhsil sahələrində həyata keçirdiyi layihələr ölkədə tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və əhalinin rifahının yaxşılaşdırılmasına mühüm töhfə verir. Bu strateji xəttin davamı olaraq BDU və ATU qarşısında da mühüm vəzifələr dayanır. Hər iki ali təhsil müəssisəsi bu dövlət siyasətinin elmi-tədris dayaqlarını möhkəmləndirən, tibbi və fundamental elmlər arasında körpü yaradan əsas elmi mərkəzlər kimi çıxış etməlidirlər. Biz inanırıq ki, bu əməkdaşlıq təkcə iki ali məktəbin deyil, bütövlükdə Azərbaycan elminin və səhiyyəsinin gələcək inkişafına xidmət edəcək”.

Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli rəhbərlik etdiyi ali təhsil ocağının 95 illik yubileyinin məhz BDU-da keçirilməsinin rəmzi mənasının olduğunu bildirib. O qeyd edib ki, ATU BDU ilə qırılmaz tellərlə bağlıdır, ölkədə ali tibb təhsilinin əsası 1919-cu ildə məhz BDU-da qoyulub: “Azərbaycan Tibb Universiteti 1930-cu ildə BDU-nun Tibb fakültəsinin bazası əsasında yaradılaraq müstəqil ali məktəbə çevrilib. Bu mənəvi bağ indi də davam edir, iki ali məktəb arasında səmərəli əməkdaşlıq mövcuddur. Biz müxtəlif sahələr üzrə bu əlaqələri daha da inkişaf etdirməyə hazırıq. Ümid edirəm ki, biz qarşıda birgə nailiyyətlərimizi qeyd edəcəyik”.

Rektor vurğulayıb ki, ATU-nun yaradılması ölkəmizdə səhiyyənin və tibb təhsilinin inkişafı tarixində önəmli bir dönüş nöqtəsidir. Rektor Ulu Öndər Heydər Əliyevin elmə, təhsilə, xüsusilə də tibb sahəsinin inkişafına böyük diqqət və qayğı ilə yanaşdığını qeyd edib. Bu qayğı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən davam etdirilir: “Vaxtilə ATU ölkədə ali tibb təhsili verən yeganə universitet idi. Sevindirici haldır ki, bu il biz ATU-nun 95, Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin 25 illik yubileyini, Qarabağ Universitetində isə Tibb fakültəsinin yaradılmasını qeyd edirik. Bu, Azərbaycanda tibb təhsili tarixinin inkişafını göstərir”.

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, ATU-nun elmi işlər üzrə prorektoru Məlahət Sultan, Əczaçılıq toksikologiyası və kimya kafedrasının professoru Fikrət Quliyev, Tibbi və bioloji fizika kafedrasının müdiri, dosent İsmayıl Qafarov çıxışlarında ATU-nun keçdiyi inkişaf yoluna nəzər salıb, BDU-ATU əməkdaşlığının yeni inkişaf istiqamətləri barədə fikirlərini bölüşüblər.

Sonda ATU-nun tarixi və fəaliyyəti haqqında videoçarx nümayiş olunub.

# BDU və ABŞ-nin Mədəniyyət və Təhsil üzrə Nizamnaməli İnsititutu arasında anlaşma memorandumu imzalanıb



***Oktyabrın 9-da BDU-da ABŞ-nin Mədəniyyət və Təhsil üzrə Nizamnaməli İnsititutunun (CCEI) prezidenti və Məsləhət Şurasının sədri Vasif Eyvazzadə ilə görüş keçirilib.***

Görüşdə qonağa BDU-nun təhsil, elmi infrasturkturu, beynəlxalq əlaqələri barədə məlumat verilib. BDU və CCEI arasında institusional potensialın artırılması, tələbə və professor-müəllim heyətinin dəstəklənməsi, peşəkar inkişaf sahələrində əməkdaşlıq imkanları müzakirə edilib. Tələbə və əməkdaşların beynəlxalq sertifikatlı proqramlara qoşulma perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Sonda BDU və ABŞ-nin Mədəniyyət və Təhsil üzrə Nizamnaməli İnsititutu arasında anlaşma memorandumu imzalanıb.

Memorandumda tələbələrin karyera inkişafı və həyat dizaynı bacarıqlarının dəstəklənməsi üçün CCEI-nin “Career and Life Design Lab” və əlaqədar proqramlarının tətbiqi, Universitetin professor-müəllim və inzibati heyətinin CCEI-nin təlim və peşəkar inkişaf imkanları ilə dəstəklənməsi, ABŞ universitetlərinin idarəetmə, kurikulum dizaynı, elm diplomatiyası və institusional təcrübələri üzrə bilik mübadiləsinin təşkili nəzərdə tutulur. BDU-nun strateji planlaşdırma, keyfiyyət təminatı və qlobal rəqabət qabiliyyətinin gücləndirilməsi üçün məsləhət və ekspert dəstəyi göstərmək də memorandumda əksini tapıb.

# BDU-da Məzunlar Cəmiyyətinin ilk seminarı: "Süni intellektdən ümumi intellektə doğru"

***Bakı Dövlət Universitetinin Məzunlar Cəmiyyətinin silsilə seminarlarına başlanılıb. Layihənin ilk qonağı BDU məzunu, AZAI TECH şirkətinin qurucusu və rəhbəri Üzeyir Süleymanov olub. O, tələbələrə "Süni intellektdən ümumi intellektə doğru" mövzusunda seminar keçib.***

BDU rektoru Elçin Babayev hər universitetin ən böyük sərvətinin onun tələbə və məzunları olduğunu bildirib. Rektor qeyd edib ki, BDU hər zaman öz məzunları ilə fəxr edib. BDU-nun ən böyük məzunu xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir: “Hazırda Universitetin minlərlə məzunu Azərbaycanda və dünyanın müxtəlif ölkələrində uğurla çalışır. Məhz həmin məzunlar tərəfindən BDU Məzunları Cəmiyyəti yaradılıb. BDU məzunları Universitetin inkişafına oz töhfələrini vermək niyyətindədirlər. Bu layihə də məhz buna xidmət edir. Məzunlarımız öz uğur hekayələrini, bilik və təcrübələrini tələbələrlə bölüşəcəklər”.

Rektor son illərdə bütün dünyada süni intellekt, maşın həlləri, kibertəhlükəsizlik kimi mövzuların aktual olduğunu bildirib. Diqqətə çatdırıb ki, BDU-da da bu istiqamətdə, xüsusilə süni intellektlə bağlı həm tədris prosesi, həm də tədqiqatlar aparılır. BDU-da Süni intellekt etikası kafedrası yaradılıb. Süni intellektdən istifadənin gündən-günə artması onun yaratdığı problemləri də dərindən araşdırmağı tələb edir.

Layihənin qonağı Üzeyir Süleymanov BDU-nun bütün məzunlarının həyatında və karyerasında dərin iz buraxdığını bildirib, layihənin ilk qonağı olmaqdan məmnunluğunu ifadə edib. O, süni intellekt texnologiyalarının yaradılması və onun müxtəlif problemlərin həllində istifadəsinin aktual olduğunu bildirib. Süni intellektin yaradılması və inkişaf mərhələlərinə nəzər salıb, Azərbaycanda bu istiqamətdə təklif olunan həlləri AZAI TECH şirkətinin timsalında izah edib. Süni intellektin bütün müsbət cəhətlərinə baxmayaq, insan zəkasının ondan üstün olduğunu vurğulayıb: “Süni intellektin etik problemlər doğurduğu da faktdır. Süni intellektdən istifadə vacibdir, amma onun nəticələrinə kortəbii baxılmamalıdır, bunlar təhlil olunmalıdır”.

# BDU Birləşmiş Ərəb Əmirliklərinin Ajman Universiteti ilə anlaşma memorandumu imzalayıb

***Oktyabrın 10-da Birləşmiş Ərəb Əmirliklərinin Ajman Universitetinin rektoru Abdelkrim Seghirin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Rektor Elçin Babayev qonağa ölkənin ən böyük və ilk universiteti olan BDU-nun tarixi, tədris və elmi infrastrukturu, beynəlxalq əməkdaşlıqları barədə məlumat verib. Qeyd edib ki, son illərdə Bakı Dövlət Universiteti ərəb dünyasının bir sıra ölkələri ilə əməkdaşlıq əlaqələrini gücləndirib. Bir sıra ərəb ölkələrinin ölkəmizdəki səfirləri ilə görüşlər keçirilib, yeni layihələr müzakirə olunub. BDU ölkədə ərəb dili tədrisinin aparıcı mərkəzidir. Tədqiqat potensialı yüksək olan BDU-da son illər yeni mərkəz və elmi-tədqiqat laboratoriyaları fəaliyyətə başlayıb. Rektor Ajman Universiteti ilə müxtəlif istiqamətlər üzrə birgə tədqiqatlar aparmaq üçün geniş imkanların olduğunu bildirib.



Ajman Universitetinin rektoru Abdelkrim Seghir BDU ilə əməkdaşlıq imkanlarını yüksək dəyərləndirib, bunun Azərbaycanla BƏƏ arasında elm və təhsil sahəsində əlaqələrin inkişafına töhfə verəcəyini qeyd edib.

Görüşdə BDU ilə Ajman Universiteti arasında ortaq tədqiqatların aparılması, birgə laboratoriyanın açılması, ikili diplom proqramının hazırlanması üçün İşçi Qrupun yaradılması, tələbə-müəllim mübadiləsinin həyata keçirilməsi ilə bağlı müzakirələr aparılıb.

Sonda BDU ilə Ajman Universiteti arasında anlaşma memorandumu imzalanıb.

# BDU-nun 28 tələbəsinin IELTS imtahanında iştirak xərcini Təhsilin İnkişafı Fondu qarşılayıb

***Bu ilin III rübündə "Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanlarının IELTS imtahanına təşviq edilməsi" layihəsi çərçivəsində imtahanda 6.5 və daha artıq bal toplamış 204 iştirakçının xərcləri Təhsilin İnkişafı Fondu tərəfindən qarşılanıb.***

Layihə Təhsilin İnkişafı Fondu və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin birgə təşəbbüsü ilə həyata keçirilir.

Layihədə uğur qazanan və 14 universiteti təmsil edən 204 iştirakçıdan 28-i BDU-nun tələbəsidir (26 bakalavr, 2 magistr).

"Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanlarının IELTS imtahanına təşviq edilməsi" layihəsi 2022-ci ildən etibarən icra olunur.

İndiyədək müqavilə şərtlərinə cavab verən 511 nəfərin bu imtahan üzrə ödənişləri Fond tərəfindən geri qaytarılıb. Onlardan 319 nəfəri BDU-nun tələbəsi və elmi-pedaqoji heyət üzvü olub.

Qeyd edək ki, "IELTS imtahanına təşviq" layihəsinin məqsədi məhz ali təhsil ocaqlarının müəllim və tələbələrinin ingilis dilini mənimsəməsi üçün əlverişli şəraitin yaradılmasıdır.

# BDU-nun THE-2026 reytinqində mövqeyi

***Oktyabrın 9-da Dünyanın nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) 2026-cı il üçün dünyanın ən yaxşı universitetlərinin reytinq siyahısını açıqlayıb.***

2191 ali təhsil müəssisəsinin yer ala bildiyi reytinq siyahısında Bakı Dövlət Universiteti (BDU) 1501+ diapazonunda qərarlaşıb və ölkə üzrə ikinci ən yüksək nəticəyə nail olub.

Qeyd etmək lazımdır ki, THE-nin 2026-cı il üçün dərc olunan reytinq nəticələrinə əsasən, BDU-nun "Tədris" ("Teaching") indikatoru üzrə göstəricisi 22.9-dan 30.1-ə yüksəlib (31.4%). "Tədqiqat mühiti" ("Research Environment") indikatoru üzrə göstərici isə 9.1-dən 10.1-ə çatıb (11%). Eyni zamanda, "Tədqiqat keyfiyyəti" ("Research Quality") indikatoru üzrə qiymətləndirmə nəticəsi 17.8-dən 21.2-yə (19.1%), "Sənaye əlaqələri" ("Industry Income") üzrə göstərici isə 19-dan 21-ə yüksəlib (10.5%). Bununla yanaşı, "Beynəlxalq perspektiv" ("International Outlook") indikatoru üzrə göstərici 38-dən 45.4-ə çataraq (19.5%) artım nümayiş etdirib.

Məlumat üçün bildiririk ki, BDU THE tərəfindən dərc olunan "THE Dayanıqlılıq Reytinqində" ("THE Impact Ranking") 401–600, "THE Fənlərarası Elm Reytinqi"ndə ("THE Interdisciplinary Science Ranking") 201–250, fizika elmləri üzrə fənn reytinqində 1001+ və mühəndislik üzrə fənn reytinqində 1001–1250 diapazonunda yer alır. Bu nəticələr BDU-nun akademik fəaliyyəti, tədqiqat potensialı və dayanıqlılıq təşəbbüslərinin beynəlxalq səviyyədə tanındığını göstərir.

# Prezident təqaüdünə layiq görülmüş BDU tələbələri ilə görüş



***Oktyabrın 13-də BDU-nun rektoru Elçin Babayev 2025/2026-cı tədris ilində Prezident təqaüdünə layiq görülmüş tələbələrlə görüşüb.***

Rektor tələbələri BDU ailəsinin üzvü olmaqları və qəbul imtahanlarında topladıqları yüksək nəticələrə görə Prezident təqaüdünə layiq görülmələri münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb: "Prezident təqaüdünə layiq görülən 102 nəfərdən biri olmaq böyük qürurdur. Bu, sizin həyatda qazanacağınız uğurların başlanğıcıdır. Siz zəhmət və əziyyətiniz bahasına bu yüksək adı qazanmısınız, onu davamlı etmək sizin öz əlinizdədir. Əminəm ki, sizin hər biriniz yaxşı təhsil alacaq, peşəkar mütəxəssis kimi yetişəcək, ölkəmizə fayda verəcəksiniz".

Rektor Elçin Babayev Universitetin məzunlarının ölkəmizi dünyada layiqincə təmsil etdiklərini, BDU-nun ən böyük məzununun Ümummilli Lider Heydər Əliyev olduğunu bildirib. O, tələbələrə tək tədrisdə deyil, BDU-nun sosial və ictimai həyatında da aktiv iştirak etməyi tövsiyə edib.

Qeyd edək ki, 2025/2026-cı tədris ilində Prezident təqaüdünə layiq görülən gənclərdən 16-sı BDU tələbəsidir.

# BDU-da Qazaxıstanın R.B.Süleymanov adına Şərqşünaslıq İnstitutunun əməkdaşları ilə görüş

***Oktyabrın 14-də Qazaxıstanın R.B.Süleymanov adına Şərqşünaslıq İnstitutunun direktoru Duken Massimxanulu, əməkdaşları Bolat Qudaybergenulu, Saginis Amirbekova Şərqşünaslıq fakültəsinin qonağı olublar.***

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan BDU-nun tarixi, Şərqşünaslıq fakültəsinin yaranması, fəaliyyəti haqqında məlumat verib. Görüşdə iki ali təhsil müəssisəsi arasında birgə əməkdaşlıq, ortaq elmi-tədqiqat layihələrinin həyata keçirilməsi, konfrans, elmi seminarların keçirilməsi, müəllim-tələbə mübadiləsi məsələləri müzakirə olunub.

# BDU-da "Birincilik" adlı məqsədli təqaüdün qalibləri ilə görüş



***Oktyabrın 14-də BDU-nun rektoru Elçin Babayev "Birincilik" adlı məqsədli təqaüdə layiq görülən BDU tələbələri ilə görüşüb.***

Rektor BDU Elmi Şurasının qərarı ilə 2025/2026-cı tədris ilindən bakalavriat səviyyəsi üzrə qəbul olunmuş və müxtəlif ixtisaslar üzrə 550-dən çox bal toplamış abituriyentlər arasından ən yüksək nəticə göstərmiş tələbələrə "Birincilik" adlı məqsədli təqaüdün verildiyini bildirib. BDU rektoru bu yüksək təqaüdə layiq görülən, "birincilərin birincisi" olan tələbələri təbrik edib, onlara təhsil həyatlarında uğurlar arzulayıb. O qeyd edib ki, bu təqaüdlə tələbələr elə I kursdan etibarən gələcək karyeralarının əsasını təşkil edəcək uğur hekayələrini formalaşdırmağa başlayırlar. Rektor tələbələrə müasir texnologiyaları daha yaxşı mənimsəməyi, öz üzərlərində işləməyi, əcnəbi dillərdən birini öyrənməyi, BDU-nun ictimai-sosial həyatında yaxından iştirak etməyi tövsiyə edib: "Ümid edirəm ki, siz bu birinciliyi təhsil həyatınızın sonuna qədər saxlaya biləcək və Universitetin inkişafına öz töhfələrinizi verəcəksiniz".

BDU rektorunun elm və təhsil üzrə müşaviri Aydın Kazımzadə, Sosial elmlər və psixologiya, Şərqşünaslıq, Filologiya fakültələrinin dekanları Rövşən Cavadov, Aydan Xəndan, Elçin Məmmədov çıxışlarında tələbələri təbrik edib, uğurlar arzulayıblar.

Qeyd edək ki, BDU-nun 28 tələbəsi "Birincilik" adlı məqsədli təqaüdə layiq görülüb.

# BDU-da "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı Milli Məclisin üzvü Mahir Süleymanlı olub

***Oktyabrın 2-də BDU-nun və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı Milli Məclisin üzvü Mahir Süleymanlı olub.***

BDU rektorunun elm və təhsil üzrə müşaviri, professor Aydın Kazımzadə 2023-cü ildən Universitetdə keçirilən "Heydər Əliyev mühazirələri" layihəsi haqqında məlumat verib. Qeyd edib ki, layihənin əsas məqsədi BDU-nun dünya şöhrətli məzunu, Ulu Öndər Heydər Əliyevin zəngin irsinin tələbələrə öyrədilməsidir.



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, müstəqil və qüdrətli Azərbaycanın dinamik, davamlı və hərtərəfli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin alternativi olmayan məqsədyönlü siyasi kursu sayəsində ölkəmiz xaosdan sabitliyə, tənəzzüldən tərəqqiyə qədəm qoyub, müstəqilliyimiz əbədi və dönməz xarakter alaraq möhkəmlənib.

Milli Məclisin üzvü Mahir Süleymanlı müasir Azərbaycan tarixinin parlaq siması, qüdrətli şəxsiyyəti olan Ulu Öndər Heydər Əliyevin siyasi obrazının xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsi olduğunu deyib. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın yeni tarixində məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məruzəçi davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycanın Ümummilli Lider Heydər Əliyevin həyat amalının təntənəsi olduğunu vurğulayıb.

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU-da "Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində millət vəkili Elnarə Akimova ilə görüş

***Oktyabrın 9-da BDU-nun və Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elnarə Akimova ilə görüş keçirilib.***

Giriş nitqi ilə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov Ulu Öndər Heydər Əliyevin adının Azərbaycan dövlətçiliyinin rəmzinə çevrildiyini vurğulayıb. O qeyd edib ki, nadir idarəçilik və liderlik keyfiyyətlərinə, fitri istedada, dərin intellektə, yüksək vətənpərvərlik hissinə malik olan Ulu Öndər müstəqil Azərbaycanın siyasi, iqtisadi, hüquqi və sosial-mədəni əsaslarını yaradan, ölkəmizi dünya miqyasında tanıdan, onun inkişafını təmin edən qüdrətli şəxsiyyətdir. Bu gün Prezident İlham



Əliyev Ulu Öndərin müəyyən etdiyi strateji xətti uğurla davam etdirir.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin zəngin fəaliyyəti əsl dövlətçilik məktəbi, gənclərimiz üçün nümunədir. Müstəqil Azərbaycan dövlətinin yaranması və inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətləri olub. Ümummilli Lider öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarıb, müstəqilliyimizi əbədi, dönməz edib. Bu gün Azərbaycan Respublikasının əldə etdiyi uğurlu nəaliyyətlərin şah əsəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan tarixi Zəfərlərdir. Bunun sayəsində ölkəmiz tam olaraq öz ərazi bütövlüyünü təmin edib, regionda yeni reallıqlar yaradıb.

Daha sonra məruzə ilə çıxış edən YAP İdarə Heyətinin üzvü, millət vəkili Elnarə Akimova bildirib ki, Ulu Öndərin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlayıb, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olub. Geniş bilik və dərin təfəkkür sahibi olan Ulu Öndər Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll edib. Ulu Öndər müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib və məharətlə həyata keçirib.

Çıxışlardan sonra tələbələrin sualları cavablandırılıb.

# BDU-da "Heydər Əliyev mühazirələri"nin növbəti qonağı YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova olub

***Oktyabrın 16-da BDU və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə həyata keçirilən "Heydər Əliyev mühazirələri" layihəsinin növbəti qonağı Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova olub.***



Giriş sözü ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolu, dövlətçilik idealları və xalqı qarşısında misilsiz xidmətləri tariximizin ən parlaq səhifələrini təşkil edir. Onun zəngin həyat və fəaliyyətinin hər bir məqamı müstəqil Azərbaycanın qurulması, gücləndirilməsi və beynəlxalq aləmdə tanınması üçün strateji yol xəritəsidir. Müstəqil Azərbaycan Ulu Öndərin əzmkarlıqla qurduğu və gələcək nəsillərə miras qoyduğu şah əsəridir: "Ulu Öndər Heydər Əliyevin milli maraqlara söykənən dövlətçilik fəlsəfəsi Prezident İlham Əliyevin müasir idarəçilik modelində uğurla öz əksini tapır. Xüsusilə Qarabağ Zəfəri bu siyasətin əzəmətini və tarixi əhəmiyyətini bir daha nümayiş etdirdi".

BDU rektorunun elm və təhsil üzrə müşaviri, professor Aydın Kazımzadə çıxışında Universitetdə həyata keçirilən "Heydər Əliyev mühazirələri" layihəsinin əhəmiyyətindən söz açıb. O bildirib ki, 2023-cü ildən etibarən reallaşdırılan bu layihə tələbələr arasında Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətini, ideyalarını və milli dəyərlərə əsaslanan irsini daha dərindən tanıtmaq məqsədi daşıyır.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev çıxışında qeyd edib ki, bu gün Azərbaycanın əldə etdiyi uğurların, sabitlik və inkişafın təməlində Ulu Öndər Heydər Əliyevin müdrik siyasi strategiyası dayanır. Onun rəhbərliyi ilə ölkəmiz dərin böhran mərhələsindən çıxaraq güclü, müstəqil və dinamik inkişaf edən bir dövlətə çevrilib.

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir: "Xalqımız həm də ona görə xoşbəxtdir ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi siyasi xətt, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyası onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bunların sayəsində hazırda ölkəmiz intibah və çiçəklənmə dövrünü yaşayır. Əminik ki, bu gün daim azərbaycanlı olması ilə fəxr edən Ümummilli Lider Heydər Əliyevin ruhu şaddır, xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilib, 30 ilə yaxın düşmən əsarətində olan Qarabağımız əbədi azadlığına qovuşub".

Sədaqət Qəhrəmanova həmçinin Ulu Öndərlə bağlı xatirələrini bölüşərək, onun insanlara göstərdiyi diqqət və qayğının bu gün də hər bir dövlət qulluqçusu üçün örnək olduğunu qeyd edib.

# BDU-da "Karyerada ilk addım" adlı təlim

***Oktyabrın 20-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə I kurs tələbələri üçün "Karyerada ilk addım" adlı təlim keçirilib.***

Təlimin məqsədi tələbələrin universitet həyatının ilk mərhələlərindən karyera istiqamətlərini düzgün müəyyənləşdirmələrinə, nəzəri biliklərlə yanaşı, əmək bazarında zəruri olan praktiki bacarıqların inkişafına yardım etməkdir.

İnteraktiv şəkildə təşkil edilən tədbirdə əmək bazarının müasir tendensiyaları, işəgötürənlərin gənc kadrlar qarşısında qoyduğu tələblər, şəxsi brendin formalaşdırılması, effektiv CV (rezüme) hazırlanması qaydaları və müsahibədə özünü təqdimetmə bacarıqları müzakirə olunub, tələbələrin sualları cavablandırılıb.

# BDU XI Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edib

***BDU Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən XI Bakı Beynəlxalq Kitab Sərgisində iştirak edib. Bakı Ekspo Mərkəzində keçirilən sərgi "Texno-insan: dünənin əfsanəsi, bu günün hadisəsi" mövzusuna həsr olunub və 1-7 oktyabr 2025-ci il tarixlərini əhatə edib.***

Sərgidə BDU-nun Elmi Kitabxanasında qorunan, Universitetin professor və müəllim heyətinin son iki ildə nəşr olunmuş kitabları, dərslik və dərs vəsaitləri nümayiş etdirilib. Həmçinin BDU-nun "Nəşr Evi"ndə çap olunan "Bakı Universitetinin Xəbərləri" jurnalının son illərə aid hər 4 seriyası, fakültələrin konfrans materialları, dərslik, dərs vəsaiti və monoqrafiyalar stenddə təqdim olunub.

Stenddə Universitetin tarixi, fəaliyyəti, elmi və pedaqoji nailiyyətləri barədə məlumatlandırıcı videoçarx da nümayiş olunub.

Ziyarətçilərə stenddə təqdim olunan nəşrlər barədə ətraflı məlumat verilib, üzərində BDU-nun loqosu olan çap məhsulları, bloknot, buklet, qeyd vərəqi və qələmlər hədiyyə olunub. BDU-nun sərgidə iştirakı Universitetin elmi və tədris potensialını geniş ictimaiyyətə çatdırıb, tələbə və məktəbli kitabsevərlərlə birbaşa ünsiyyət imkanı yaradıb.



Açılış günündə Bəxtiyar Vahabzadə və Üzeyir Hacıbəyli təqdimat zonalarında BDU-nun Elmi Kitabxanasının əməkdaşı Məcid Heydərlinin (Seyyid Əsri) müəllifi olduğu "Fidan çiçəkləri" kitabının da təqdimatı keçirilib.

# BDU və İsrailin Gordon Akademik Təhsil Kolleci arasında anlaşma memorandumu imzalanıb

***Oktyabrın 1-də BDU və İsrailin Gordon Akademik Təhsil Kolleci arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Gordon Akademik Təhsil Kollecinin prezidenti Ilana Levenberg imzalayıb.

Memorandumda hər iki təhsil müəssisəsində təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1953-cü ildə qoyulmuş Gordon Akademik Təhsil Kolleci İsrailin nüfuzlu təhsil müəssisələrindən biridir.

# Ali məktəb tələbələri arasında "Hər qarışı Vətəndir" adlı məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb

***Oktyabrın 15-də BDU və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə ali məktəb tələbələri arasında "Hər qarışı Vətəndir" adlı məqalə müsabiqəsinin qalibləri mükafatlandırılıb. Müsabiqə "BDU könüllüləri" təşkilatının dəstəyi ilə keçirilib.***

Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev Qərbi Azərbaycanın əzəli torpaqlarımız, qan yaddaşımız olduğunu bildirib. O qeyd edib ki, Qərbi Azərbaycan məsələsini milli-mənəvi yaddaşımızda daha da möhkəmləndirmək üçün ali təhsil müəssisələrinin, alim və tələbələrin də üzərinə böyük məsuliyyət düşür. Bunun üçün tarixi arxid sənədləri, şəkilləri əsasında tədqiqatlar, araşdırmalar aparılmalı, Azərbaycan dövlətinin bu məsələ ilə bağlı beynəlxalq hüquq istiqamətində atdığı adddımlara dəstək göstərilməlidir. Keçirilən müsabiqə bu baxımdan çox önəmlidir: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ən yüksək kürsülərdən ölkəmizin mövqeyini bəyan edir. Qərbi Azərbaycan İcması bu istiqamətdə uğurla fəaliyyət göstərir. BDU-da Erməni Araşdırmaları və Təlim Mərkəzi fəaliyyət göstərir. Son illər BDU-da Qərbi Azərbaycan Araşdırmaları Mərkəzi yaradılıb. Hazırda bir neçə fakültənin iştirakı ilə Qərbi Azərbaycanla bağlı tədqiqatlar aparılır".



Milli Məclisin (MM) üzvü Hikmət Babaoğlu, MM-in Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov çıxışlarında müsabiqənin əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, milli yaddaşın və tarixin öyrənilməsində ədəbiyyat çox təsirli vasitədir. "Hər qarışı Vətəndir" adlı məqalə müsabiqəsi tarixi yaddaşa qayıdış yolunda önəmli vasitədir.

Sonda müsabiqənin qalibləri mükafatlandırılıb. BDU tələbələri Qasım Xəlilov müsabiqədə I, Hümbət Bədəlov II, Sumqayıt Dövlət Universitetinin tələbəsi Nigar Xanəliyeva III yerə layiq görülüblər. Azərbaycan Dövlət İqtisad Universiteti, Odlar Yurdu Universiteti, Azərbaycan Dillər Universitetinin tələbələri Aygün Fərzəliyeva, Yasin Salehov və Rahilə Məmmədova isə həvəsləndirici yerləri qazanıblar.

# Bakıda Süni intellekt və verilənlər elmi üzrə II Avrasiya Forumu keçirilib

***Oktyabrın 16-da Bakı Konqres Mərkəzində Süni intellekt və verilənlər elmi üzrə II Avrasiya Forumu öz işinə başlayıb. BDU, "Codelandia" MMC və İsrailin Ben-Qurion Negev Universitetinin birgə təşkilatçılığı ilə keçirilən tədbir dünyanın müxtəlif ölkələrindən alimləri, mütəxəssisləri və innovatorları bir araya gətirərək süni intellekt və məlumat elmləri sahəsində son nailiyyətlərin müzakirəsinə geniş imkan yaradır.***

Üç gün davam edəcək forum süni intellekt nəzəriyyəsi, yeni üsulların işlənməsi və məlumat elmlərinin tibb, kibertəhlükəsizlik, idman və kənd təsərrüfatı kimi müxtəlif sahələrdə tətbiqinə dair fikir və təcrübə mübadiləsi üçün mühüm platformadır.

Tədbiri giriş sözü ilə BDU-nun rektoru Elçin Babayev açıb. Rektor Elçin Babayev çıxışında forumun beynəlxalq elmi əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin informasiya texnologiyaları və rəqəmsal inkişaf sahələrinə göstərdiyi davamlı diqqət və qayğının bu istiqamətdə mühüm rol oynadığını qeyd edib.

Rektor həmçinin BDU-da Süni intellektin etikası kafedrasının yaradıldığını bildirib. Bu yeni struktur bölmə süni intellekt tədqiqatlarında etik prinsiplərin, şəffaflığın və sosial məsuliyyətin təşviqinə xidmət edəcək.

Açılış mərasimində çıxış edən digər natiqlər - İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə heyətinin sədri Fərid Osmanov, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiyası Mərkəzinin (4SIM) icraçı direktoru Fariz Cəfərov, Ben-Qurion Negev Universitetinin regional və sənaye inkişafı üzrə vitse-prezidenti Dan Blumberq, "Codelandia" şirkətinin rəhbəri Günel Cənnətova və digərləri çıxış edərək tədbirin əhəmiyyətindən danışıblar.

Forumun elmi proqramında dünyanın tanınmış alimləri tərəfindən müxtəlif istiqamətlərdə məruzələr təqdim olunur. Məruzələrdə qlobal süni intellekt və məlumat bazarlarının inkişafı, süni intellektin səhiyyədə tətbiqində etik və praktiki çağırışlar, eləcə də informasiyanın strateji resursa çevrildiyi müasir dövrdə ali təhsilin rolu kimi mövzular əhatə olunur.

Forum çərçivəsində iştirakçılar panel müzakirələrdə, məruzələrdə və qarşılıqlı fikir mübadiləsində iştirak edəcək, regionda süni intellekt və məlumat elmlərinin inkişaf perspektivləri barədə yeni ideyalar formalaşdıracaqlar.

# Hüquq Klinikası öz fəaliyyətini genişləndirir

***Hüquq fakültəsində fəaliyyət göstərən Hüquq Klinikası öz fəaliyyətini genişləndirir.***

BDU-nun hüquqşünas alimlərinin rəhbərliyi ilə fakültənin aktiv tələbələrindən təşkil olunan Klinikanın asas məqsədi aztəminatlı ailələrə, eləcə də kibercinayətlərin və kiber istismarın qurbanı olmuş şəxslərə ödənişsiz hüquqi yardım göstərməkdir.

Müraciət edənlərə həm hüquqi məsləhətlər paketi təqdim olunur, həm də zərərçəkmişlərin hüquqlarının müdafiəsi istiqamətində praktik dəstək göstərilir. Müasir dövrün tələblərinə uyğun olaraq Hüquq Klinikası onlayn konsultasiya xidmətləri təşkil edir. Müraciətlər onlayn qəbul olunur.

Bununla yanaşı, Klinika gənclər, tələbələr və ictimaiyyət üçün maarifləndirici təlim, seminar va praktik məşğələlər keçirir. Bu tədbirlər çərçivəsində rəqəmsal mühitdə təhlükəsiz davranış qaydaları, fərdi məlumatların qorunması, hüquqi müdafiə mexanizmləri, kibertəhlükəsizlik va insan hüquqlarının qorunması mövzuları öyrədilir.

# Jurnalistika fakültəsində Vətən müharibəsi iştirakçısı Pərviz Aslanovla görüş



***Jurnalistika fakültəsində ehtiyatda olan baş leytenant, jurnalist, Vətən müharibəsi iştirakçısı Pərviz Aslanovla görüş keçirilib.***

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Jurnalistika fakültəsinin dekanı, professor Vüqar Əliyev bildirib ki, Pərviz Aslanov 44 günlük Vətən müharibəsinin aktiv iştirakçısı olub, "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Daha sonra çıxış edən Pərviz Aslanov jurnalistika sahəsindəki fəaliyyətindən, hərbi jurnalistikaya olan marağından və İctimai Televiziyada yayımlanan "Salam, əsgər" verilişinin aparıcısı olduğu dövrdəki təcrübəsindən söz açıb. O, gənclərdə yüksək vətənpərvərlik ruhunun qələbənin əsas səbəblərindən biri olduğunu vurğulayıb.

Pərviz Aslanov həmçinin 44 günlük Vətən müharibəsində iştirakı, xüsusilə Şuşa döyüşlərində əldə olunan uğurlar, eləcə də müharibə dövründə medianın rolu və informasiya cəbhəsində qazanılan nailiyyətlər haqqında tələbələri məlumatlandırıb.

Görüş tələbələrin çoxsaylı suallarının cavablandırılması ilə yekunlaşıb.

# Geologiya fakültəsində Vətən müharibəsi iştirakçıları ilə görüş



***Oktyabrın 2-də Geologiya fakültəsində Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə Vətən müharibəsi iştirakçıları ilə tələbələrin görüşü keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

"BDU könüllüləri" təşkilatının Geologiya fakültəsi üzrə sədri Ülvi Ağaliyev gənclərin hər zaman qazilərin və müharibə iştirakçılarının igidlik yolunu örnək götürməsinin vacibliyini vurğulayıb, belə görüşlərin tələbələrdə vətənpərvərlik hisslərini möhkəmləndirdiyini, onların milli dəyərlərə sadiq, Vətəninə bağlı vətəndaş kimi yetişməsinə mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Vətən müharibəsi iştirakçıları - Qədir Qədirov, Xanlar Heydərov, Hacıbala Xalıqov müharibənin gərgin və çətin anları ilə bağlı xatirələrini tələbələrlə bölüşüblər. Onlar Vətən uğrunda canından keçməyə hazır olmağın ən böyük şərəf olduğunu vurğulayıb, gənclərə elmə yiyələnməyi, peşəkar kadr kimi formalaşmağı və milli-mənəvi dəyərlərə sadiq qalaraq hər zaman dövlətin, xalqın yanında olmağı tövsiyə ediblər.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU-nun şəhid məzunu Erkin Hüseynovun xatirəsi anılıb

***Oktyabrın 10-da Sosial elmlər və psixologiya fakültəsində şəhid məzun Erkin Hüseynovun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətənimizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Anım mərasimində fakültənin tələbə və professor-müəllim heyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və "BDU könüllüləri" təşkilatının fakültə üzrə nümayəndələri və şəhidin qrup yoldaşları iştirak ediblər.

Dekan Rövşən Cavadov bildirib ki, Erkin Hüseynov BDU-nun Sosial elmlər və psixologiya fakültəsində "Fəlsəfə" ixtisası üzrə təhsil alıb. Uşaqlıqdan hərbçi olmaq, Vətənimizin keşiyində dayanmaq Erkin Hüseynovun ən böyük arzusu olub. Ali məktəbi bitirən kimi ordu sıralarına yazılıb, hərbçi olmaq arzusunu həyata keçirib və leytenant rütbəsinə qədər yüksəlib.

Erkin Hüseynov 2022-ci il sentyabrın 12-də Kəlbəcər rayonunda Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. O, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirib, yaralı dostunu xilas edərkən şəhid olub.

Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimova, Fəlsəfə kafedrasının müdiri Kəmalə Pənahova, Psixologiya kafedrasının müdiri Səxavət Əliyeva çıxışlarında Erkin Hüseynovun tələbəlik illərindən özünü mükəmməl şəxsiyyət kimi göstərdiyini, bütün müəllim heyəti və dostlarının dərin hörmətini qazandığını bildiriblər. Şəhidin qrup yoldaşları Zeynəb Manafova və Səbinə Hüseynova onunla bağlı xatirələrini bölüşüblər.

Tədbirdə şəhidin həyat yoluna həsr olunmuş videoçarx nümayiş etdirilib.

# BDU-nun şəhid məzunu Manaf Bəhmənlinin xatirəsinə həsr olunmuş Riyaziyyat olimpiadası

***Oktyabrın 13-də Bakı Dövlət Universitetinin "BDU könüllüləri" təşkilatının Mexanika-riyaziyyat fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə I kurs tələbələri arasında fakültənin şəhid məzunu Manaf Bəhmənlinin xatirəsinə həsr olunmuş Riyaziyyat olimpiadası keçirilib.***

Mexanika-riyaziyyat fakültəsinin dekanı Ziyatxan Əliyev, Riyazi analiz kafedrasının müdiri Rəşid Əliyev, sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Etibar Əhmədov fakültənin şəhid məzunu Manaf Bəhmənlinin xatirəsinə həsr olunan olimpiadanın rəmzi məna daşıdığını, onun xatirəsinin unudulmadığını, xalqımıza tarixi qələbəni yaşadan hər bir qəhrəmanın daim yad edildiyini diqqətə çatdırıblar.

"BDU könüllüləri" təşkilatının fakültə sədri Nuray Cəfərova olimpiadanın şərtləri və mərhələləri ilə bağlı tələbələri məlumatlandırıb. Olimpiadanın rəqabətliliklə yanaşı, həm də dostluq yarışı olduğunu qeyd edib.

Olimpiadanın nəticələrinə görə fakültə tələbələrindən İlkin Alıyev I, Ayxan Bayramalıyev II, Kənan Aydayev və Nərgiz İsmayıl III, Zeynəb Məlikhəsənova, Mehriban Məmmədova və Ayan Allahverdiyeva isə həvəsləndirici yerlərə layiq görülüblər.

# BDU-nun şəhid məzunu Elşən Salayevin məzarı ziyarət olunub

***Oktyabrın 13-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi, Tarix fakültəsinin məzunu Elşən Salayevin məzarı ziyarət olunub.***

Ziyarətdə BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Zöhrab Cavadzadə, Tarix fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Elnur Əbilov və Komitənin fəal üzvləri iştirak ediblər.

Qeyd edək ki, Elşən Salayev 2015–2019-cu illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil alıb. Vətən müharibəsi başlayanda minlərlə gənc kimi Elşən Salayev də torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərə qatılıb. O, Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Elşən Salayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

# BDU-da şəhid Xudayar Yusifzadənin xatirəsi anılıb: "Bir ömrün dastanı"

***Oktyabrın 22-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Vətən müharibəsində əldə etdiyimiz Zəfərin beşinci ildönümünə həsr olunmuş "Bir ömrün dastanı – Xudayar Yusifzadə" adlı dəyirmi masa keçirilib. Tədbir şəhid Xudayar Yusifzadənin anım gününə ithaf olunub.***

Geologiya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Ələkbər Mirzəyev bu cür tədbirlərin gənclərin milli-mənəvi tərbiyəsində, vətənpərvərlik ruhunun formalaşmasında mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Dəyirmi masada tələbələrə Xudayar Yusifzadənin qəhrəmanlığı, Vətən sevgisi, fədakarlığı və gəncliyə buraxdığı mənəvi mirasla bağlı suallar ünvanlanıb. Fakültə tələbələri şəhidin inam, iradə və mübarizə ruhunu müasir Azərbaycan gəncliyi üçün örnək kimi qiymətləndiriblər.

# BDU ilə Koreyanın Sejonq Universiteti arasında əməkdaşlıq genişləndirilir



***Oktyabrın 31-də BDU-da Koreya Respublikasının Sejonq Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.***

BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov Universitetin tarixi, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Hüseyn Məmmədov qonaqların diqqətinə çatdırıb ki, BDU son zamanlar dünyanın aparıcı universitetləri ilə çoxsaylı əməkdaşlıq müqavilələri imzalayıb, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirib. Eyni zamanda, BDU tərəfindən həyata keçirilən birgə layihə və elmi tədqiqatlar regionun elmi potensialının gücləndirilməsi və təhsilin keyfiyyətinin artırılmasına xidmət edir. O, süni intelekt, iqtisadiyyat, turizm, beynəlxalq əlaqələr kimi sahələr üzrə ortaq proqramlar həyata keçirmək, müxtəlif beynəlxalq layihələrdə birgə iştirak etmək imkanlarının olduğunu da qeyd deyib.

Koreyanın Sejong Universitetinin vitse-prezidenti Çung Hun Li isə iki universitet arasında əməkdaşlıq potensialının mövcudluğunu, xüsusən də, iqtisadiyyat, süni intelekt və biznesin idarəolunması, turizm kimi sahələrdə ikili diplom proqramlarının qurulması və təcrübə mübadiləsinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, Sejonq Universiteti 1940-cı ildə təsis edilib. Universitetdə 8 fakültə və 10 məktəb fəaliyyət göstərir. 20 000-ə yaxın tələbəsi olan universitet QS dünya universitetləri reytinqində 396-cı, THE dünya universitetləri reytinqində isə 201-250-ci yerdə qərarlaşıb.

# BDU məzunu, Yaponiyanın Okinava Elm və Texnologiya Universitetinin professoru Uğur Abdulla ilə görüş

***Oktyabrın 30-da Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunu, Yaponiyanın Okinava Elm və Texnologiya Universitetinin Analiz və xüsusi törəməli diferensial tənliklər bölümünün professoru Uğur Abdulla ilə görüş keçirilib.***

Görüşdə Tətbiqi riyaziyyat və kibernetika, Mexanika riyaziyyat, Biologiya, Fizika, Kimya, Geologiya, Coğrafiya və Ekologiya fakültələrinin professor-müəllim heyəti, tələbə və doktorantları iştirak ediblər.

Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı Ələkbər Əliyev qeyd edib ki, fakültədə “Kompüter elmləri”, “İnformatika müəllimliyi” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə yüksək ixtisaslı kadrlar hazırlanır. Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunları dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda uğurla fəaliyyət göstərir, yüksək vəzifələrdə çalışırlar. Belə məzunlardan biri analiz və xüsusi törəməli diferensial tənliklər sahəsində tanınmış riyaziyyatçı, Yaponiyanın Okinava Elm və Texnologiya Universitetinin Analiz və xüsusi törəməli diferensial tənliklər bölümünün professoru Uğur Abdulladır. Uğur Abdulla Bakıda yazıçı Gülhüseyn Hüseynoğlunun ailəsində doğulub boya-başa çatıb. Gənc yaşlarından riyaziyyat, fizika olimpiadalarında və idmanda qazandığı nailiyyətləri ilə seçilib. Sərbəst güləş üzrə Azərbaycan çempionu və milli komandanın üzvü olub. 21 yaşında namizədlik, 27 yaşında doktorluq elmi dərəcələrini alan Uğur Abdulla 28 yaşında BDU-nun professoru olub. Uzun illər ərzində İngiltərənin, Almaniyanın və ABŞ-nin nüfuzlu universitetlərində professor vəzifəsində çalışıb.



Daha sonra söz professor Uğur Abdullaya verilib. O, “Kolmoqorov problemi və elliptik və parabolik tip tənliklər üçün sonsuzluqda Viner meyarı” mövzusunda məruzə edib. Qeyd edilib ki, riyaziyyatın üsulları biologiya, kimya, fizika və s. kimi sahələrdə bir çox məsələlərin həllinə tətbiq olunur.

Tədbirin sonunda BDU məzunu tələbələrin suallarını cavablandırıb.

# BDU komandası ICPC-nin Azərbaycan üzrə final mərhələsinə vəsiqə qazanıb

***Oktyabrın 30-da BDU-nun komandası 50-ci Universitetlərarası Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin (ICPC) Azərbaycan üzrə final mərhələsinə vəsiqə qazanıb.***

ICPC Azərbaycan İcmasının, Azərbaycan Texniki Universiteti və ADA Universitetinin təşkilatçılığı, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin tərəfdaşlığı keçirilən və 22 ali təhsil müəssisəsindən 157 komandanın yarışdığı müsabiqənin təsnifat mərhələsində BDU komandası ən yüksək – II dərəcə ilə qiymətləndirilib.

Belə ki, komandalara 5 saat ərzində 14 alqoritmik məsələni C++, Java və ya Python proqramlaşdırma dillərində həll etmək və bu həlləri avtomatik qiymətləndirmə sistemində sınaqdan keçirmək tapşırığı verilib. Müsabiqənin nəticələrinə əsasən, 63 komanda ICPC-nin Azərbaycan üzrə final mərhələsinə çıxıb.

Qeyd edək ki, regional mərhələni müvəffəqiyyətlə başa vuracaq komandalar 15–17 dekabr 2025-ci il tarixlərində Gürcüstanın Tbilisi şəhərində keçiriləcək 50-ci ICPC-nin yarımfinal mərhələsində və Cənubi Qafqaz Açıq Çempionatında (komanda və fərdi nominasiyalar üzrə) iştirak etmək hüququ əldə edəcəklər.

# BDU tələbələri əmək bazarının tənzimləmə metodları barədə məlumatlandırılıb

***Oktyabrın 30-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə “Karyera yolu – 2” layihəsi çərçivəsində Karyera planlaşdırılması şöbəsinin baş mütəxəssisi İlkin Şərifovun “Əmək bazarının araşdırılması” mövzusunda təlimi keçirilib.***

Təlimdə tələbələrə əmək bazarının mahiyyəti, əsas elementləri, subyektləri, təhlil üsulları, əmək bazarında dövlətin rolu və tənzimləmə mexanizmləri, tələbələrin əmək bazarına inteqrasiyası barədə məlumat verilib. Qeyd edilib ki, statistik məlumatların toplanması və analizi, sorğuların aparılması, ixtisaslar üzrə tələbatın qiymətləndirilməsi metodlarının əmək bazarının araşdırılmasında əhəmiyyəti böyükdür.

Təlim zamanı əmək bazarında müşahidə olunan əsas trendlər, rəqəmsallaşma və texnoloji dəyişikliklərin yeni peşələrin yaranmasına təsiri, əmək bazarı haqqında məlumatların düzgün təhlilinin tələbələrin karyera planlaşdırılması və təcrübə proqramlarına qoşulmasına təsiri müzakirə edilib.

# Kimya fakültəsinin tələbələri Hərbi Memorial Məzarlığı ziyarət ediblər

***Oktyabrın 30-da Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə 8 Noyabr- Zəfər Gününə həsr olunmuş ziyarət təşkil edilib.***

Tədbir çərçivəsində fakültənin tələbələri Hərbi Memorial Məzarlıqda şəhidlərin məzarları önünə gül dəstələri düzüb və Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsini dərin ehtiramla yad ediblər.

Ziyarət zamanı şəhidlərin Vətən qarşısında göstərdikləri igidlik və fədakarlıqlardan söz açılıb, onların əziz xatirəsinin daim qəlblərdə yaşayacağı vurğulanıb.

# BDU-da DSpace platformasının tətbiq imkanlarına həsr olunmuş elmi seminar keçirilib

***Oktyabrın 31-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə “Tədqiqat və akademik məzmunun idarə olunmasında DSpace platformasının tətbiq imkanları: ADA Universiteti Kitabxanasının təcrübəsi əsasında” mövzusunda elmi seminar keçirilib.***

Tədbirdə BDU-nun Sənəd menecmenti kafedrasının magistrantı Əzizə Cəbiyeva məruzə ilə çıxış edib. Məruzə zamanı DSpace akademik platformasının əsas funksiyaları və üstünlükləri, akademik məzmunun açıq elmi mühitdə paylaşılması və müəllif hüquqlarının qorunması məsələləri diqqətə çatdırılıb.

Əzizə Cəbiyeva ADA Universiteti Kitabxanasının təcrübəsinə əsaslanaraq DSpace platformasının tətbiqi ilə bağlı layihələrdən və rəqəmsal elmi resursların qorunması mexanizmlərindən bəhs edib. O bildirib ki, platforma vasitəsilə müəllim və tələbələrin elmi işləri elektron mühitdə saxlanılır və açıq elmi mübadiləyə təqdim olunur.

Seminarda, həmçinin, DSpace platformasının ali təhsil müəssisələrində tətbiqi perspektivləri, informasiya təhlükəsizliyi, intellektual mülkiyyət hüquqlarının qorunması və beynəlxalq əməkdaşlıq imkanları kimi məsələlər də müzakirə olunub.

# BDU tələbələri Başlıbel qətliamı haqqında məlumatlandırılıb

***Oktyabrın 13-də BDU-da “Başlıbelin İnkişafına Dəstək” İctimai Birliyinin Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə icra etdiyi “113 gün düşmən arxasında mübarizə: Başlıbel qətliamının bilinməyən tərəfləri” layihəsi çərçivəsində tələbələrlə görüş keçirilib.***

İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Ələmdar Cabbarlı gənc nəslin Ermənistanın təcavüzkar siyasəti nəticəsində xalqımıza qarşı törədilən qətliamlarla bağlı məlumatlandırılmasının əhəmiyyətli olduğunu qeyd edib. O bildirib ki, “113 gün düşmən arxasında mübarizə: Başlıbel qətliamının bilinməyən tərəfləri” layihəsi bu mənada çox əhəmiyyətlidir.



Layihənin rəhbəri, “Başlıbelin İnkişafına Dəstək” İctimai Birliyinin sədri Vüqar Həşimovun sözlərinə görə, layihə çərçivəsində Başlıbel qətliamının şahidi olan və 113 gün mühasirə həyatı yaşayan şahidlərin 2 aydan artıq müddətdə partizan mübarizəsi apardıqları “Nəbi kahası” və “Barıtlı kahası” adlanan ərazilərdə hər biri 20 dəqiqəlik videosüjetlər çəkilib. Çəkilən videolarda ermənilərin törətdiyi insanlıq əleyhinə cinayətlərlə bağlı şahid ifadələri yer alır.

Layihənin eksperti, Regional İnsan Hüquqları və Media Mərkəzinin sədri Xalid Kazımov isə bildirib ki, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi qətliamlardan biri də 1993-cü ilin aprelində Azərbaycanın Kəlbəcər rayonunun Başlıbel kəndində həyata keçirilib. Kəlbəcər rayonunun işğalı zamanı doğma torpaqlarını tərk etməyən 62 nəfər Başlıbel sakini (əlavə olaraq Başlıbelə pənah gətirən 4 nəfər Laçın rayon sakini və mühasirəyə düşən 9 nəfər əsgər) kənd ərazisindəki kahalara sığınıb. 18 aprel 1993-cü ildə erməni hərbçiləri onların yerini müəyyən edib və ərazini mühasirəyə alaraq insanlara qarşı dəhşətli qətliam törədiblər. Aralarında 2 nəfər azyaşlı uşaq, 4 nəfər qadın, 6 nəfər kişi (4 nəfəri ahıl yaşda) düşməndən gizləndikləri kahalarda güllələnib qətlə yetirilib. Sıralarında azyaşlı uşaqlar olmaqla, 10 nəfərdən yuxarı dinc sakin yaralanıb. Eləcə də həmin gün 9 nəfər qadın, 2 nəfər azyaşlı uşaq, 3 nəfər ahıl girov götürülüb. Düşmən gülləsindən canını qurtara bilən 30 nəfər isə yenidən dağlara çəkilib. Həmin şəxslərin mühasirə həyatı 113 gün çəkib, onlar kəndin ərazisində ucqar yerlərdə yerləşən “Nəbi kahası” və “Barıdlı kahası”nda gizləniblər. 113 günlük ölüm-dirim mübarizəsindən sonra 4 sutka piyada yol qət edən 29 nəfər 1993-cü il iyulun 22-də mühasirədən çıxa və həyatlarını xilas edə biliblər.

Başlıbel qətliamının şahidləri İsmət Əzizov, Elşad Əzizov və Məzahir Abbasquluyev mühasirə zamanı yaşadıqları dəhşətləri danışıblar.

Sonda tələbələr Başlıbel qətliamı haqqında videosüjetləri izləyiblər.

# BDU-da Müstəqilliyin Bərpası Günü qeyd edilib

***Tarix fakültəsində 18 oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş “Əbədi və sarsılmaz müstəqilliyimiz” adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov müstəqilliyi qoruyub saxlamağın onu qazanmaqdan daha çətin olduğunu qeyd edib. Bildirib ki, Azərbaycan xalqı 1990-cı illərin əvvəllərində yenicə bərpa etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Amma xalqımız bu ağır günlərdə qətiyyət, möhkəm iradə nümayiş etdirərək öz taleyinə sahib çıxdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Əslində Azərbaycan əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi: “Azərbaycanın müstəqilliyinin əbədiliyi və dönməzliyi Ümummilli Liderin adı ilə bağlıdır”.

Qədim dünya və orta əsrlər kafedrasının müdiri, professor Yaqub Mahmudov bu il dövlət müstəqilliyimizin bərpasının 34-cü illiyini qeyd etdiyimizi deyib: “XX əsrin sonlarında yaranmış tarixi şərait Azərbaycana öz dövlət müstəqilliyini bərpa etmək imkanı verib. 1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul olunub. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunub. Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilib, bununla da 1991-ci il oktyabrın 18-də xalqımız öz müstəqilliyini yenidən bərpa edib. Bu, Azərbaycan xalqına bir əsrdə iki dəfə bəxş edilən ən böyük nemətdir”.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq, metodika kafedrasının müdiri, professor Anar İsgəndərov müstəqilliyimizin bərpasına verilən ən böyük siyasi qiymətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 15 oktyabr tarixli “Müstəqillik Günü haqqında” Azərbaycan Respublikasının Qanununun təsdiq edilməsi ilə bağlı Sərəncamı olduğunu vurğulayıb. Bunun yeni reallıqlar və qalib statusu ilə bütün dünyaya səs salan Azərbaycanın yeni dövrünün qızıl başlanğıcı hesab edildiyini deyib.

Daha sonra AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan şöbəsinin müdiri Cəbi Bəhramov, YAP Yasamal rayon “Z.Xəlilov küç. 33” (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri, professor Zahid Cəfərov və Azərbaycan tarixi kafedrasının müdiri, dosent Azad Rzayev çıxışlarında müstəqilliyin hər bir xalq üçün ən dəyərli sərvət olduğundan, bunu qorumağın gənclərin əsas vəzifəsinə çevrildiyindən söz açıblar.

Tədbir Müstəqilliyin Bərpası Gününə həsr olunmuş videoçarxın nümayişi və tələbələrin hazırladığı bədii hissə ilə davam edib.

# Müstəqilliyin Bərpası Gününə həsr edilmiş xüsusi dərs

***Oktyabrın 17-də İnformasiya və sənəd menecmenti fakültəsində 18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr edilmiş xüsusi dərs təşkil olunub.***

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Ardınca Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xüsusi dərs Tarix fakültəsinin dosenti Xumar Səfərovanın mühazirəsi ilə davam edib. Dosent Xumar Səfərova çıxışı zamanı xalqımızın azadlıq və suverenlik uğrunda mübarizəsini xronoloji ardıcıllıqla geniş şəkildə şərh edib. O, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra da xalqın müstəqillik arzusunun sönmədiyini bildirib.

Dosent qeyd edib ki, dövlət müstəqilliyimizin bərpasına gedən yol çətin və keşməkeşli olub. Ulu Öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq sovet rejiminin təzyiqlərinə baxmayaraq, bu yolun təməlini qoyub və bugünkü azad, müstəqil Azərbaycan Respublikasının formalaşması üçün möhkəm zəmin yaradıb.

Dosent həmçinin Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra dövlət müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi misilsiz fəaliyyətə toxunub: “Bu gün biz xalq olaraq ən qürurlu tarixi mərhələni yaşayırıq. Ulu Öndərin möhkəm təməllərini yaratdığı müstəqil Azərbaycan dövləti Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində bu gün dünyada ən yüksək nüfuza malikdir”.

Tədbir fakültə tələbələrinin hazırladığı ədəbi-bədii kompozisiya ilə davam edib.

# BDU rektoru Məşvərət Şurasının üzvləri ilə görüşüb

***Oktyabrın 15-də BDU-nun rektoru Elçin Babayev BDU-nun Məşvərət Şurasının üzvləri ilə görüşüb.***

Rektor Universitetin qocaman alimlərini son zamanlar BDU-da həyata keçirilən yeniliklərlə tanış edib, infrastrukturun yenilənməsi istiqamətində işlərin davam edəcəyini bildirib.

Elçin Babayev diqqətə çatdırıb ki, BDU dünya və regional reytinqlərdəki mövqeyini əhəmiyyətli dərəcədə gücləndirməyə davam edir. Bunlarla yanaşı, BDU-da “Ekoməkan”, “Tələbə məkanı”, Faydalı qazıntılar muzeyi, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Materialşünaslıq elmi-tədqiqat laboratoriyası, “Ekoenerji məntəqəsi”, Tələbə İnkişaf Mərkəzinin açılışları olub. Hazırda 10-dan artıq tədris laboratoriyasının ən müasir standartlara uyğun yenilənməsi istiqamətində işlər aparılır.

Daha sonra Məşvərət Şurası üzvlərinin BDU-da elm, tədris fəaliyyətinin daha da yaxşılaşdırması ilə əlaqədar təklifləri dinlənilib.

# BDU və Türkiyənin Akdeniz Universitetinin əməkdaşları arasında onlayn görüş

***Oktyabrın 16-da Coğrafiya fakültəsi ilə Türkiyənin Akdeniz Universitetinin Coğrafiya bölməsi arasında elmi və akademik əməkdaşlıq imkanlarının müzakirəsinə həsr olunmuş onlayn görüş keçirilib.***

Görüşdə Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov, dekan müavinləri Eltac Cəbiyev və Qoşqar Məmmədov, professor Aydın İbrahimov, müəllim Anar Nuriyev, Akdeniz Universitetinin Coğrafiya bölməsinin rəhbəri, professor Cemali Sarı, rəhbər köməkçisi Çağlar Çakır, professor Tuncer Demir və beynəlxalq əlaqələr koordinatoru Mehmet Tahsin Şahin iştirak ediblər.

Görüş zamanı professor Məqsəd Qocamanov BDU-nun və Coğrafiya fakültəsinin strukturu, fəaliyyəti və beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib. Akdeniz Universitetinin nümayəndələri də təmsil etdikləri ali təhsil müəssisəsinin fəaliyyətinə dair təqdimatla çıxış ediblər. Tərəflər birgə tədqiqat layihələri və elmi konfransların təşkili sahəsində əməkdaşlığa dair ilkin razılığ əldə ediblər.

# BDU "Dayanıqlı Sərgi: Planet üçün İncəsənət və İnnovasiya" adlı tədbirdə təmsil olunub



***Oktyabrın 2-də BDU "Bakı İqlim Fəaliyyəti Həftəsi" çərçivəsində "Dayanıqlı Sərgi: Planet üçün İncəsənət və İnnovasiya" adlı tədbirdə iki layihə ilə təmsil olunub.***

Onlardan biri ""Irrigo" - dayanıqlı kənd təsərrüfatı ekosistemi", digəri isə "Hydroponics" layihəsidir.

Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin mühəndisi Reyhan Mirsultanovanın müəllifi olduğu "Irrigo - dayanıqli kənd təsərrüfatı ekosistemi" ağıllı texnoloji həllərə əsaslanan yeni nəsil kənd təsərrüfatı modelidir. Bu modelin əsas məqsədi kənd təsərrüfatında suvarma suyu kimi istifadə olunan şirin su miqdarını minimuma endirmək, suvarma suyu olaraq istifadəyə yararsız olan tullantı sularının üzvi çirkləndiricilərdən, duzlardan, ağır metallardan təmizlənməsini, suvarma suyu kimi istifadəsini və sistemdə dövri təmizlənmə hərəkətini təmin edən bir ekosistem yaratmaqdır.

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyasının müdiri Qumru Hüseynova və elmi işçisi Elvira Təhməzlinin "Hyroponics" layihəsi isə aqrar sahədə fəaliyyət göstərən KOB-ların torpaqsız əkin sistemlərinə keçidini dəstəkləyən startap layihəsidir. Layihə kənd təsərrüfatında resurslardan səmərəli istifadə, davamlı istehsal metodlarının tətbiqi və innovativ texnologiyaların yayılmasına xidmət edir. Bu təşəbbüs iqlim dəyişikliyi ilə mübarizədə və yaşıl iqtisadiyyata keçiddə mühüm töhfə verməyi hədəfləyir.

BDU-nun "Irrigo - dayanıqli kənd təsərrufatı ekosistemi" layihəsi tədbirdə ən yaxşı layihə kimi seçilən 6 layihədən biri olub. Layihəni təqdim edən komanda üzvləri sərgidə fəal iştiraklarına, davamlı inkişafın və dəyişikliklərin təşviqinə öz istedad və ideyaları ilə töhfə verdiklərinə görə sertifikata layiq görülüblər.

# BDU-da tarix-diyarşünaslıq muzeylərinin fəaliyyətinə həsr olunmuş elmi seminar

***Oktyabrın 9-da İnformasiya və sənəd menecmenti fakültəsində akademik heyətin və "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə "Azərbaycanda tarix-diyarşünaslıq muzeyləri" mövzusunda elmi seminar keçirilib.***

Elmi seminarda Redaksiya-nəşriyyat işi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Leyla Abasova mövzu ilə bağlı çıxış edib.

Məruzədə Şəki-Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərinin iş təcrübəsi əsasında təqdim edilən məruzədə ölkəmizdə tarix-diyarşünaslıq muzeylərinin yaranması, formalaşması və inkişaf dövrləri xronoloji qaydada izlənilib. Tarixi keçmişimizin, milli irsimizin və adət-ənənələrimizin qorunub-saxlanılaraq gələcək nəsillərə çatdırılmasında tarix-diyarşünaslıq muzeylərinin rolu tədqiq edilib. Qeyd olunub ki, muzeylər yalnız eksponatların qorunduğu mədəni məkan deyil, tədqiqat və maarifləndirmə mərkəzi kimi də mühüm əhəmiyyətə malikdir.

Tədqiqatda Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala və Şəki rayonlarında fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərinin ekspozisiya məzmunu, fondları və inkişaf dinamikası müqayisəli təhlil olunub. Məruzədə həmçinin İsmayıl bəy Qutqaşınlının Xatirə-Ev Muzeyi və Bəxtiyar Vahabzadənin Ev-Muzeyi barədə də maraqlı faktlar təqdim olunub. Bölgənin tarix-diyarşünaslıq muzeylərinin maddi-texniki təchizatının yaxşılaşdırılması, müasir dövrün tələbləri səviyyəsində təkmilləşdirilməsi, nümayiş imkanlarının genişləndirilməsi ilə bağlı təkliflər irəli sürülüb.

Elmi seminar müzakirələrlə davam edib.

# BDU və İCMA nümayəndələri aqrar və təbiət elmləri sahəsində əməkdaşlıq perspektivlərini müzakirə ediblər

***Oktyabrın 10-da BDU ilə İş Adamları Cəmiyyətinin Milli Assosiasiyası (İCMA) arasında aqrar və təbiət elmləri sahəsində əməkdaşlıq perspektivlərinə həsr olunmuş görüş keçirilib.***

Görüşdə BDU tərəfindən Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyasının müdiri Qumru Hüseynova və elmi işçi Elvira Təhməzli iştirak ediblər.

Görüşün əsas məqsədi təbiət elmləri və aqrar sahələrdə elmi-tədqiqat potensialının biznes mühiti ilə inteqrasiyasını gücləndirmək, biotexnologiya və aqrar innovasiyalar istiqamətində birgə təşəbbüslərin həyata keçirilməsi imkanlarını müzakirə etmək olub.

Tərəflər universitet laboratoriyalarında aparılan elmi tədqiqatların tətbiqi yönümlü nəticələrinin biznes strukturları ilə paylaşılması, kənd təsərrüfatında dayanıqlı innovativ texnologiyaların (o cümlədən aquaponik və hidroponik əkin metodları və genom əsaslı sistemlərin) inkişaf etdirilməsi, tələbələrin bu sahələrdə praktiki bacarıqlarının artırılması məqsədilə əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Görüş zamanı İCMA və "Marsol Academy"nin birgə layihəsi olan "Təhsildən biznesə: tələbələr üçün karyera yolu" konsepsiyası çərçivəsində aqrar və biotexnoloji ixtisaslarda təhsil alan tələbələrin peşəkar inkişafına dəstək vermək, onların real istehsal və innovasiya mühitinə inteqrasiyasını təşviq etmək barədə fikir mübadiləsi aparılıb.

Eyni zamanda, Assosiasiyanın fəaliyyəti, həyata keçirilən layihələr və gələcək planlar barədə məlumat verilib. Qeyd olunub ki, İCMA gənclərin elmi biliklərini sahibkarlıq bacarıqları ilə birləşdirərək tətbiqyönlü layihələrdə iştirakına xüsusi diqqət yetirir.

Görüşün sonunda tərəflər aqrar innovasiyalar, biotexnologiya və təbiət elmləri sahəsində birgə proqramlar, seminarlar və təcrübə mübadiləsi təşəbbüslərinin həyata keçirilməsi istiqamətində əməkdaşlığı davam etdirmək niyyətlərini ifadə ediblər.

# BDU və İstanbul Universitetinin alimləri coğrafiya üzrə əməkdaşlıq imkanlarını müzakirə ediblər

***Oktyabrın 7-də Coğrafiya fakültəsi və Türkiyənin İstanbul Universitetinin Coğrafiya bölməsinin əməkdaşları arasında onlayn görüş keçirilib. Görüşdə iki fakültə arasında elmi əməkdaşlıq, birgə layihələr, konfransların keçirilməsi və professor-müəllim heyətinin akademik mübadiləsi imkanları müzakirə olunub.***

Görüşdə BDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov, dekan müavinləri Eltac Cəbiyev, Qoşqar Məmmədov, professor Aydın İbrahimov və müəllim Anar Nuriyev, İstanbul Universitetindən Coğrafiya bölməsinin rəhbəri Barbaros Gönençgil, professor Cihan Bayraktar, dosent Kaan Kapan və dosent Mustafa Kahraman iştirak ediblər.

Tərəflər coğrafiya elminin müxtəlif istiqamətləri üzrə elmi əməkdaşlığın genişləndirilməsi, birgə tədqiqat və təcrübə proqramlarının həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

# BDU-da pambıq genotiplərində fitohormonların roluna dair tədqiqatlar aparılır



***Oktyabrın 7-də Biologiya fakültəsində "Pambıq genotiplərinin göbələk xəstəliklərinə qarşı tolerantlığın yaranmasında fitohormonların rolu" mövzusunda elmi seminar keçirilib.***

Biologiya fakültəsinin dissertantı Nurlan Əmrahovun apardığı tədqiqat Verticillium dahliae patogen göbələyinin və ağır metalların pambıq bitkisinin məhsuldarlığına təsiri və onun azaldılmasında fitohormonların roluna həsr olunub.

Tədqiqat çərçivəsində salisil turşusu, kinetin, indol-3-sirkə turşusu və onların qrafen oksidi ilə nanoansambllarının pambıq bitkisinin morfoloji, fizioloji və biokimyəvi göstəricilərinə təsiri araşdırılıb. Nəticələr göstərib ki, bu birləşmələr bitkilərdə antioksidant sistemin aktivliyini artırır, oksidləşdirici stresə qarşı davamlılığı yüksəldir və patogen əleyhinə qorumanı gücləndirir.

Seminarda qeyd olunub ki, əldə edilən nəticələr pambıqçılıqda biotik və abiotik stres amillərinə qarşı davamlı sortların yaradılması, ekoloji cəhətdən təhlükəsiz biostimulyatorların hazırlanması və kənd təsərrüfatında məhsuldarlığın artırılması üçün yeni imkanlar açır.

Tədbir elmi müzakirələr və fikir mübadiləsi ilə yekunlaşıb.

# BDU-da “Peşəkar gələcəyə doğru körpü” adlı ixtisaslaşmış Karyera Sərgisi keçirilib

***Oktyabrın 21-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə ölkəmizin tarixi Zəfərinin beşinci ilinə həsr olunmuş “Peşəkar gələcəyə doğru körpü” adlı ixtisaslaşmış Karyera Sərgisi keçirilib.***




Tədbir çərçivəsində ölkənin bank sektorunu təmsil edən 12 aparıcı maliyyə qurumu müxtəlif vakansiyalar təqdim edib. Sərgidə 2000-dən artıq tələbə və məzun iştirak edib.

Sərginin açılış mərasimində çıxış edən BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, hər bir universitetin ən önəmli reytinq göstəricilərindən biri də onun məzunlarının əmək bazarında özlərinə layiqli yer tapmasıdır. BDU ölkənin aparıcı sənaye-istehsalat müəssisələri ilə sıx əməkdaşlıq edir. Bu, həm məzunların işlə təmin olunmasında, həm də əmək bazarının tələblərinin tədris prosesinə inteqrasiyasında önəmli rol oynayır: “BDU hər il 100-dən artıq şirkətin iştirakı ilə Karyera festivalları keçirir. Bu festivallarda müxtəlif vakant yerlər və təcrübə proqramları tələbələrə təqdim olunur. Bu tədris ilindən isə ayrı-ayrı ixtisaslar üzrə ixtisaslaşmış Karyera sərgilərinin keçirilməsi qərara alınıb. Bugünkü sərgidə ölkənin ən nüfuzlu 12 bankı iqtisadiyyat istiqamətli ixtisaslar üzrə təcrübə proqramları və vakant yerləri tələbə və məzunlara təqdim edirlər. Bundan sonra BDU-da hər ay ölkənin ən tanınmış işəgötürənlərinin iştirakı ilə ixtisaslaşmış Karyera sərgiləri keçiriləcək”.

Qeyd edək ki, sərgi çərçivəsində tələbə və məzunların bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə "workshop" və seminarların keçirilib, təlimlər təşkil edilib. Sərginin yekununda şirkət nümayəndələri və Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşlarının iştirakı ilə şəbəkələşmə görüşü təşkil olunub, əməkdaşlıq imkanlarının genişləndirilməsi və yeni tərəfdaşlıqların qurulması istiqamətində müzakirələr aparılıb.

Bu görüş çərçivəsində BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin fəaliyyət portfeli təqdim olunub, qarşılıqlı əməkdaşlıq imkanları və gələcək planlar müzakirə edilib.

# BDU-da genetik tədqiqatlar üzrə beynəlxalq əməkdaşlıq genişlənir

***BDU-nun Zoologiya və fiziologiya kafedrasının müdiri, dosent Əbülfəz Tağıyevin həmmüəllifi olduğu “Bir gendə modul variasiya mozaikası konvergent lələklərin rənglənməsinin əsasını təşkil edir” (“A mosaic of modular variation at a single gene underpins convergent plumage coloration”) adlı məqalə “Web of Science” və “Scopus” bazalarında Q1 kvartilli jurnallar siyahısına daxil olan (IF: 45.8) “Science” jurnalında dərc olunub.***

Məqalədə çaxraqcıl (Oenanthe) quşlarının lələk rəngindəki dəyişikliklərin genetik mexanizmləri tədqiq olunub. Araşdırma nəticəsində müəyyən edilib ki, bu dəyişikliklər tək bir genin — ASIP (agouti signaling protein) geninin təsiri ilə baş verir. Müəyyən olunub ki, bu genə inteqrasiya yolu ilə növlər arasında genetik məlumat ötürülməsi nəticəsində yeni genetik material daxil olub.

Məqalədə həmçinin bu genetik variasiyaların yalnız rəng fərqlərini deyil, eyni zamanda fərqli qidalanma davranışlarını da formalaşdıra biləcəyi irəli sürülür. Beləliklə, tədqiqat nəticələri bir genin müxtəlif növlərdə oxşar fenotipik əlamətlərə səbəb ola bilməsini və bunun konvergent təkamülün parlaq nümunəsi olduğunu göstərir.

Qeyd edək ki, tədqiqatda 20-yə yaxın ölkədən (Çin, Fransa, Almaniya, İsveçrə, İtaliya, İspaniya, Macarıstan, Bolqarıstan, Rumıniya, Sloveniya, İsveç, Türkiyə, Yunanıstan, Qazaxıstan, Finlandiya, Kipr və s.) olan 48 tanınmış tədqiqatçı iştirak edib.

# BDU-da “Narkomaniyaya multidissiplinar yanaşma” adlı elmi-maarifləndirmə tədbiri keçirilib

***Oktyabrın 21-də Biologiya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə “Narkomaniyaya multidissiplinar yanaşma” adlı elmi-maarifləndirmə tədbiri keçirilib.***

Biologiya fakültəsinin sosial işlər üzrə dekan müavini Yusif Abiyev gənclər arasında narkomaniyaya qarşı profilaktik tədbirlərin gücləndirilməsinin vacibliyini və bu istiqamətdə elmi, sosial və maarifləndirici yanaşmaların birgə tətbiqinin önəmini vurğulayıb.

Hüquq fakültəsinin Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, professor Kamil Səlimov narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı hüquqi mübarizə mexanizmlərindən, mövcud qanunvericilik bazasından və cəmiyyətin hüquqi maarifləndirilməsinin rolundan danışıb. O bildirib ki, gənclər arasında hüquqi biliklərin artırılması narkomaniyaya qarşı mübarizənin mühüm komponentidir.

Həkim-narkoloq Araz Əliquliyev narkotik maddələrin orqanizmə təsiri, asılılığın mərhələləri, müalicə metodları və reabilitasiya prosesinin çətinlikləri barədə ətraflı məlumat verib. O, real klinik təcrübədən nümunələr əsasında gəncləri sağlam həyat tərzinə üstünlük verməyə çağırıb.

BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının müəllimi Emilya İgidova isə narkotik asılılığının psixoloji səbəbləri, şəxsiyyətin formalaşmasına təsiri və ailə-mühit faktorlarının roluna toxunub. O, gənclərin psixoloji dayanıqlığının artırılması üçün məktəb və universitet mühitində psixoloji dəstək proqramlarının əhəmiyyətini vurğulayıb.

Tədbirin qonaqlarından biri, Qafqaz Eksperimental Dram Teatrının direktoru Polad Ağa İbrahimov çıxışında gənclərə mədəni mühitin insanın mənəvi sağlamlığının qorunmasında rolundan bəhs edib. O, teatr sənətinin, yaradıcılığın və ictimai məsuliyyət hissinin narkomaniyaya qarşı mübarizədə mühüm təsir vasitəsi olduğunu vurğulayıb.

Tədbir çərçivəsində narkomaniyanın fəsadlarını əks etdirən maarifləndirici videoçarx nümayiş olunub və tələbələrin iştirakı ilə “İblisin oyunu” adlı səhnəcik təqdim edilib.

Sonda tədbir iştirakçıları mövzu ətrafında müzakirələr aparıblar.

# BDU-nun 16 tələbəsi Prezident təqaüdünə layiq görülüb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025/2026-cı tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən, 2025/2026-cı tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə Prezident təqaüdü veriləcək.

Prezident təqaüdünə layiq görülən gənclərdən 16-sı Bakı Dövlət Universitetinin tələbəsidir.

Onların siyahısını təqdim edirik:

*Çiçək Hümmətli*
*Gülay İbrahimli*
*Röyal Şirinov*
*Gülay Həbibullazadə*
*Zəhra Ramizli*
*Ayxan Mürşüdlü*
*Ləman Əhmədzadə*
*Nəzrin Yusifova*
*Gülər Ənsərli*
*Nərmin Hacıyeva*
*Nuray Muradlı*
*Fərid Allahyarlı*
*Nigar Əkbərova*
*Səma Əzizli*
*Gündüz Mirzəzadə*
*Enes Hüseynli*

Yüksək etimada layiq görülən BDU tələbələrini təbrik edir, onlara uğurlar arzulayırıq!

# BDU könüllüləri Mülki Məhkəmə Simulyasiyası keçiriblər

***Oktyabrın 20-də “BDU könüllüləri” təşkilatının Hüquq fakültəsi üzrə üzvlərinin və Mülki proses və kommersiya hüququ kafedrasının birgə təşkilatçılığı ilə Bakı şəhəri Binəqədi Rayon Məhkəməsində Mülki Məhkəmə Simulyasiyasının birinci mərhələsi keçirilib.***

Simulyasiya çərçivəsində iştirakçılar birinci instansiya məhkəmə iclasının gedişatı, sənəd-forma prosessual mövqelərinin təqdim edilməsi, dəlillərin tədqiqi və qərarvermə mexanizmi barədə praktiki biliklər əldə ediblər.

Simulyasiyada 40-dan çox tələbə izləyici qismində iştirak edib.

# BDU-nun kafedra müdirinin yeni dərs vəsaiti nəşr olunub



***İnformasiya və sənəd menecmenti fakültəsinin Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Sevda Xələfovanın yeni dərs vəsaiti nəşr olunub.*** BDU Elmi Şurasının qərarı ilə nəşr edilməsi tövsiyə olunan “Kitabxana təsnifat və mövzu göstəriciləri” adlı dərs vəsaitinin elmi redaktoru dosent Knyaz Aslan, ixtisas redaktoru dosent Zahidə Rzayeva, rəyçiləri dosent Rəşad Qardaşov və tarix üzrə fəlsəfə doktoru Adilə Abdullayevadır.

Dərs vəsaitində kitabxana təsnifatı problemləri, kataloqlaşdırmanın nəzəri əsasları, sənəd-kommunikasiya sistemində sənədin analitik-sintetik işlənməsi, sənədlərin indeksləşdirilməsi, informasiya mübadiləsində istifadə olunan protokollar və standartlar mövzular üzrə ardıcıl şərh edilib.

Dərs vəsaiti “Kitabxanaçılıq və informasiya fəaliyyəti” ixtisası üzrə təhsil alan tələbələr, gənc tədqiqatçılar və sahə mütəxəssisləri üçün nəzərdə tutulub.

# BDU-nun şəhid məzunları Ceyhun Şalıyev və Manaf Bəhmənlinin məzarları ziyarət olunub

*Oktyabrın 3-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə Universitetin bir qrup əməkdaşı və tələbəsi Vətən müharibəsi şəhidləri - Hüquq fakültəsinin məzunu Ceyhun Şalıyev və Mexanika-riyaziyyat fakültəsinin məzunu Manaf Bəhmənlinin məzarlarını ziyarət edib.*

Ziyarətdə BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Zöhrab Cavadzadə, Hüquq fakültəsini dekanı Zaur Əliyev və THİK-in fəal üzvləri iştirak ediblər.



Qeyd edək ki, Ceyhun Şalıyev 2011-2015-ci illərdə BDU-nun Hüquq, Manaf Bəhmənli isə 2015-2020-ci illərdə Mexanika-riyaziyyat fakültəsində təhsil alıb. Vətən müharibəsində könüllü olaraq iştirak edən Ceyhun Şalıyev 2020-ci il oktyabrın 1-də Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən, Manaf Bəhmənli isə sentyabrın 21-də Murov zirvəsində qəhrəmancasına şəhid olub.

# BDU THİK-in üzvləri Hərbi Memorial Məzarlığı ziyarət ediblər

*Oktyabrın 6-da BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Filologiya fakültəsi üzrə üzvləri Hərbi Memorial Məzarlığı ziyarət edib.*

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi ehtiramla yad edilib. Tələbələr şəhidlərimizin ruhlarına dualar oxuyub, məzarları üzərinə gül dəstələri düzüblər.



Qeyd edək ki, Vətən müharibəsinin beşinci ildönümü çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Hərbi Memorial Məzarlıqda genişmiqyaslı bərpa işləri həyata keçirilib. 12 Milli Qəhrəman, 11 Vətən Müharibəsi Qəhrəmanı olmaqla, ümumilikdə 670 şəhidin uyuduğu bu məkanda 44 günlük Vətən müharibəsini simvolizə edən monumental abidə inşa edilib. Həmçinin 44 günlük Vətən müharibəsində hər bir günü, məlumatları, hadisələri özündə əks etdirən lövhələr ucaldılıb.

# BDU-da dəyirmi masa: "Azad Qarabağın geoloji intibahı: Füzuli rayonunun nümunəsində"

*Oktyabrın 15-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Vətən müharibəsində qazandığımız Zəfərin beşinci ildönümünə həsr olunmuş "Azad Qarabağın geoloji intibahı: Füzuli rayonunun nümunəsində" mövzusunda dəyirmi masa keçirilib.*

Tədbirin məqsədi işğaldan azad edilmiş Füzuli rayonunun geoloji quruluşu, təbii sərvətləri və regionun gələcək elmi-tədqiqat potensialı barədə tələbələri maarifləndirmək olub.

Dəyirmi masada iştirakçılara Füzuli rayonunun geoloji quruluşu, mineral-xammal ehtiyatları, hidrogeoloji xüsusiyyətləri və ərazinin bərpa prosesi üçün strateji əhəmiyyəti barədə ətraflı məlumat verilib. Çıxışlarda qeyd olunub ki, azad edilmiş ərazilərin geoloji baxımdan öyrənilməsi gələcəkdə ölkənin iqtisadi inkişafına, xüsusilə də tikinti, kənd təsərrüfatı və sənaye sahələrinə mühüm töhfə verəcək.

Eyni zamanda vurğulanıb ki, Füzuli rayonu geoloji baxımdan unikal təbii resurslara malikdir və bu ərazilərdə aparılan yeni tədqiqatlar Azərbaycanın mineralogiya və mühəndis geologiyası sahəsində mühüm elmi nəticələr əldə etməsinə imkan yarada bilər.

Tədbir interaktiv müzakirələrlə davam edib.

# BDU-da Vətən müharibəsi iştirakçısı olan jurnalistlə görüş keçirilib

*Oktyabrın 16-da BDU-nun "Zəfər tarixi" lektoriyasında Vətən müharibəsi iştirakçısı, Jurnalistika fakültəsinin məzunu Bəxtiyar Məcidli ilə görüş keçirilib.*

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev Vətən müharibəsi iştirakçıları ilə görüşün gənclər üçün əhəmiyyətindən söz açıb. Fakültənin belə məzunları ilə daim fəxr etdiyini və onların qəhrəmanlıqla dolu həyat hekayələrinin nümunəyə çevrildiyini bildirib.

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev qeyd edib ki, artıq beş ildir Azərbaycanın tarixi günləri sırasında Zəfər Günü öz şərəfli yerini tutub. O, bu günün yalnız qələbə günü deyil, suverenliyin tam bərpası yolunda mühüm mərhələ olduğunu deyib.

Sonra Bəxtiyar Məcidli müharibə xatirələrini bölüşüb, döyüş yoldaşlarının göstərdiyi böyük cəsarət və qəhrəmanlıq nümunələrindən danışıb.

Sonda tələbələrin sualları cavablandırılıb.

# BDU-da Cəbrayıl Şəhəri Günü qeyd olunub

*Oktyabrın 3-də Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə 4 oktyabr – Cəbrayıl Şəhəri Gününə həsr olunmuş tədbir keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov bildirib ki, 44 günlük Vətən müharibəsində xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək birlik və fədakarlıq göstərib, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı, canı bahasına azad edilib. Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə çevrilib.

Dekan müavini Cəbrayıl rayonunun həm tarixi, həm də strateji baxımdan Azərbaycan üçün böyük önəm daşıdığını qeyd edib, bu bölgənin azad olunmasının müharibənin sonrakı gedişində mühüm dönüş nöqtəsi olduğunu xatırladıb. O, şəhidlərimizin əziz xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağı, qazilərimizin isə daim gənc nəslin qəhrəmanlıq və vətənpərvərlik nümunəsi olacağını diqqətə çatdırıb.

Tədbirin bədii hissəsində tələbələrin ifasında vətənpərvərlik ruhunda şeir və mahnılar ifa olunub. Cəbrayıl rayonunun işğaldan azad olunmasına həsr edilmiş videoçarx nümayiş etdirilib.

# BDU-da şəhid məzun Ataməli Musaoğlunun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib

*Oktyabrın 20-də Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının təşkilatçılığı ilə "Zəfər tarixi lektoriyası"nda şəhid məzun Ataməli Musaoğlunun xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.*

Tədbirdə fakültə dekanı Rövşən Cavadov, sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimova, Psixologiya kafedrasının müdiri Səxavət Əliyeva, Fəlsəfə kafedrasının müdiri Kəmalə Pənahova, şəhidin ailə üzvləri – anası Leyla Musayeva, həyat yoldaşı Firuzə Musayeva və qızı Gül Musayeva, eləcə də fakültənin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Fakültə dekanı Rövşən Cavadov qeyd edib ki, Vətən müharibəsində BDU-nun 22 məzunu şəhidlik zirvəsinə ucalıb. Onlardan dördü Sosial elmlər və psixologiya fakültəsinin məzunudur. Fakültədə şəhid məzunların xatirəsinə həsr olunmuş mütəmadi tədbirlər keçirilir, onların ailə üzvləri ilə görüşlər təşkil olunur: "Ataməli nümunəvi tələbə idi, daim biliklərini artırmağa çalışırdı, qrup yoldaşlarına qarşı səmimiyyəti və yüksək insani keyfiyyətləri ilə seçilirdi. Şəhidlərimizin həyatı gənclərə nümunədir".

Psixologiya kafedrasının müdiri Səxavət Əliyeva bildirib ki, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsinin daim uca tutulması hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Digər çıxışçılar da şəhid Ataməli Musaoğlunun və bütün şəhidlərin xatirəsinin xalqımızın yaddaşında daim yaşayacağını, onların gələcək nəsillər tərəfindən sevgi və hörmətlə anılacağını bildiriblər.

Tədbirin sonunda şəhidin anası Leyla Musayeva şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, BDU-nun rektoru Elçin Babayevə və fakültə rəhbərliyinə minnətdarlığını ifadə edib: "Müharibədən beş il keçməsinə baxmayaraq, dövlətimiz tərəfindən şəhid ailələrinə daim diqqət və qayğı göstərilir. Bu, bizim üçün həm qürur, həm də təsəlli mənbəyidir".

Leyla Musayeva "Driftwood" incəsənət növünün Azərbaycandakı yaradıcılarından biri kimi "Zəfər tarixi lektoriyası"na oğlu Ataməli Musaoğlunun köynəyindən parça ilə hazırladığı "Yelkənli gəmi" adlı sənət əsərini hədiyyə edib.

# BDU-da BMT-nin 80 illik yubileyinə həsr olunmuş “Gələcəyin Gənclər Dialoqu” adlı tədbir keçirilib

*Bakı Dövlət Universitetində Birləşmiş Millətlər Təşkilatının (BMT) 80 illik yubileyinə həsr olunmuş “Gələcəyin Gənclər Dialoqu” adlı tədbir keçirilib.*



Tədbirin açılış mərasimində çıxış edən BDU rektoru Elçin Babayev qeyd edib ki, BMT yarandığı gündən qlobal sülhün, təhlükəsizliyin, insan hüquqlarının və davamlı inkişafın simvolu olaraq dünya birliyinə xidmət edir: “Müstəqilliyimizin ilk illərindən etibarən Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş xarici siyasət kursunun əsas istiqamətlərindən biri ədalət prinsipləri əsasında BMT ilə çoxşaxəli əməkdaşlığın inkişafı olub. Bu siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ölkəmizin humanitar, elmi, iqlim və dayanıqlı inkişaf sahələrində beynəlxalq nüfuzunu artırır. Azərbaycan-BMT əməkdaşlığı sülh və təhlükəsizlik, dayanıqlı inkişaf və insan hüquqları istiqamətlərində inkişaf etdirilir. Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) uyğun müxtəlif layihələr həyata keçirir, sosial-iqtisadi inkişaf, humanitar yardım və elmi təşəbbüslərdə fəal iştirak edir. Bakı Dövlət Universiteti Azərbaycanın bu strateji siyasətini tədris, tədqiqat və ictimai fəaliyyətlərdə dəstəkləyir. Universitetin təşkil etdiyi tədbirlər tələbələri və gənc alimləri beynəlxalq müzakirələrə cəlb edir və onları qlobal problemlərin həllinə hazırlaşdırır. "Model BMT" və "Gənclərin Dayanıqlı İnkişaf Forumları" çərçivəsində tələbələr BMT strukturlarının işini öyrənir, humanitar və ekoloji məsələlər üzrə simulyasiya müzakirələrində iştirak edir və real qərar qəbul etmə proseslərini təcrübədən keçirirlər. Universitetin təşkil etdiyi "Baku Climate Science Conference" tədbiri COP29 çərçivəsində keçirilib, BDU alimləri və tələbələri iqlim dəyişikliyi, ekoloji dayanıqlıq və davamlı inkişaf sahəsində BMT-nin məqsədlərinə uyğun layihələr təqdim ediblər. Bu tədbir həm ölkəmizin BMT ilə əməkdaşlığını gücləndirib, həm də gənc alimlər üçün beynəlxalq müzakirələrdə təcrübə qazandırıb”.

Rektor vurğulayıb ki, son illərdə BDU BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun fəaliyyətini sistemli şəkildə gücləndirib. Bunun bariz göstəricisi kimi, Universitet 2025-ci ildə “Times Higher Education” (THE) reytinqində 401-600 aralığına yüksələrək, əvvəlki 1001-1500 mövqeyindən əhəmiyyətli irəliləyiş əldə edib. Bu nailiyyət BDU-nun davamlı inkişaf, sosial məsuliyyət və qlobal tərəfdaşlıq prinsiplərinə sadiqliyini nümayiş etdirir: “BDU artıq 17 DİM-dən 15-ni əhatə edən layihələrlə qlobal miqyasda tanınıb. Universitet dörd istiqamət üzrə (“Yoxsulluğa son”, “Keyfiyyətli təhsil”, “Gender bərabərliyi” və “Bərabərsizliyin azaldılması”) dünyanın ən yaxşı 100 universiteti sırasına daxil olub. Eyni zamanda, “QS World University Rankings: Sustainability 2025” nəticələrinə əsasən, 2024-cü il noyabrın 18-də COP29 çərçivəsində Bakıda rəsmi şəkildə təqdim olunan hesabatda BDU Azərbaycan üzrə lider mövqe qazanıb. Universitet əvvəlki illə müqayisədə 345-dən çox pillə irəliləyərək, 941-950 qlobal intervalında qərarlaşıb və TOP-1000-ə daxil olan yeganə Azərbaycan ali təhsil müəssisəsi olub. Bu göstəricilər BDU-nun iqlim fəaliyyəti, innovasiya, elmi tədqiqat və sosial əməkdaşlıq sahələrində beynəlxalq nüfuzunun artdığını nümayiş etdirir. Bu irəliləyişlər təsadüfi deyil, son illərdə Universitetdə yaşıl kampus təşəbbüsləri – “Ekoməkan”, “Tələbə məkanı”, “Ekoenerji” alternativ enerji məntəqəsi qurulub, hazırda iqlim diplomatiyası üzrə tədqiqatlar, sosial inklüzivlik proqramları həyata keçirilir. BDU bu sahədə BMT-nin Azərbaycan nümayəndəliyi ilə sıx əməkdaşlıq edir”.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva Azərbaycanın milli, elmi tərəqqisinə böyük töhfələr verən BDU-da BMT-nin 80 illik yubiley tədbirinin keçirilməsinə görə təşəkkür edib. O bildirib ki, fəaliyyət göstərdiyi dövr ərzində BMT dünyada sülhün qorunması, millətlər arasında əməkdaşlığı təşviq, qlobal problemləri həll etmək üçün fəaliyyət göstərib: “BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədi dünya ölkələrinin gələcəyi üçün hazırlanan ortaq gündəliyimizdir. Bunlar yaşıl enerji, yoxsulluğa son qoyulması, təhsilə, səhiyyəyə çıxış, iqlim dəyişmələri ilə mübarizə, inklüziv inkişaf kimi çox vacib məsələləri əhatə edir. Bunların həlli üçün gənclərin dialoqu çox vacibdir. DİM-lərin həyata keçirilməsi təkcə hökumətlərin deyil, xalqların, universitetlərin, icmaların üzərinə də böyük məsuliyyət qoyur. BDU Azərbaycanda alimlərin, siyasətçilərin, hüquqşünasların, icma liderlərinin yetişməsində mühüm rol oynayır. Gənclər gələcəyin liderləri olmaqla yanaşı, bu günün əsas tərəfdaşlarıdır, onlarla dialoq bu baxımdan çox vacibdir”.

İqtisadiyyat nazirinin müşaviri Hüseyn Hüseynov isə qeyd edib ki, bütün dünya ölkələrində iqtisadi-sosial-ətraf mühitlə bağlı problemlər qalmaqdadır. Hazırda dünyada 1,3 milyard insan elektrikə və təmiz suya çıxış imkanlarından məhrumdur. 800 milyon insan az qidalanmadan əziyyət çəkir. 400 milyona yaxın insan səhiyyə xidmətlərinə əlçatanlıq problemi yaşayır: “Dayanıqlı İnkişaf Məqsədləri Minilliyin İnkişaf Məqsədlərindən daha qlobal səciyyə daşıması və bütün dünya ölkələrini əhatə etməsi ilə fərqlənir. Azərbaycanda DİM-lərin icrası ilə bağlı dövlət səviyyəsində fəaliyyətə 2016-cı ildən başlanılıb. Bu gün müxtəlif dövlət və özəl qurumların, universitetlərin DİM-ləri öz siyasətlərinə inteqrasiya etməsi çox sevindiricidir”.

Tədbir "Davamlı gələcək naminə yaşıl keçid, təhsil və sağlamlıq" mövzusunda panel müzakirə ilə davam edib. BMT-nin Azərbaycanda Rezident Əlaqələndiricisinin Ofisinin əməkdaşlıq üzrə mütəxəssisi Rəşad Huseynovun moderatorluq etdiyi paneldə Yüksək Səviyyəli İqlim Çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı, "Ekosfera" Sosial Ekoloji Mərkəzinin rəhbəri, BDU-nun dosenti Firuzə Sultanzadə, BDU əməkdaşı, Gənc İqlim Elçisi Günel Həcəliyeva çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, iqlim dəyişikliyi və onun fəsadları Azərbaycan da daxil olmaqla bütün dünya ölkələrinə təsir edir. İqlim dəyişikliyi ilə mübarizə yalnız hökümətləri deyil, cəmiyyətin bütün təbəqələrini əhatə etməlidir. Gənclər iqlim həllərinin icraçısı kimi deyil, müəllifi kimi çıxış etməlidirlər. Panel sessiyada “vahid sağlamlıq” anlayışının əhəmiyyəti vurğulanıb. Bunun 7 Dayanıqlı İnkişaf Məqsədini özündə birləşdirdiyi, gənclərin bu prosesə verə biləcəyi töhfələr diqqətə çatdırılıb.

Sonda tələbələrlə sual-cavab sessiyası təşkil olunub.

# Elm və ali təhsil üzrə ictimai dinləmə keçirilib

***Oktyabrın 23-də Bakı Dövlət Universitetində Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf strategiyası”nın layihəsinin hazırlanması çərçivəsində elm və ali təhsil sahəsinə dair təkliflərin müzakirəsi məqsədilə ictimai dinləmə keçirilib.***



Tədbirdə ali təhsil və elmi müəssisələrin, dövlət qurumlarının təmsilçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

İctimai dinləmədə elm və ali təhsil sisteminin mövcud vəziyyəti, inkişaf istiqamətləri və qarşıda duran prioritet vəzifələr müzakirə olunub. Çıxışlarda doktoranturaya qəbul göstəricilərinin artırılması, gənclərin elmi tədqiqata marağının stimullaşdırılması, elmi fəaliyyətin maliyyə və institusional əsaslarının gücləndirilməsi ilə bağlı təkliflər səsləndirilib.

Eyni zamanda ali təhsilin əmək bazarına uyğunlaşdırılması, tədqiqat yönümlü universitetlərin inkişafı, laborator və innovasiya mühitinin formalaşdırılması, eləcə də magistrant və doktorantların praktiki fəaliyyətə cəlb edilməsi məsələləri diqqətə çatdırılıb.

Müzakirələr zamanı ali təhsil müəssisələrinin reytinq və akkreditasiya göstəricilərinə əsaslanan diferensial maliyyələşmə modelinin tətbiqi, tələbələrin beynəlxalq sertifikatlar əldə etməsinə dəstək mexanizmlərinin gücləndirilməsi və təhsilin rəqəmsallaşması ilə bağlı fikir və təkliflər də irəli sürülüb.

# BDU-da kitabxana-informasiya xidmətlərinin pedaqoji və sosial-psixoloji aspektləri araşdırılıb

***Oktyabrın 22-də İnformasiya və sənəd menecmenti fakültəsində “Kitabxana-informasiya xidmətlərinin pedaqoji və sosial-psixoloji aspektləri” mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının doktorantı, ADA Universiteti Kitabxanasının əməkdaşı Vəfa Məmmədova məruzə edib.***

Məruzədə müasir dövrdə kitabxana-informasiya xidmətlərinə verilən tələblər, bu sahədə meydana çıxan paradiqmalar şərh olunub, kitabxana mütəxəssisinin həm də pedaqoq kimi rolu önə çəkilib, oxucularla ünsiyyətin sosial-psixoloji cəhətləri araşdırılıb. Bildirilib ki, müasir dövrün kitabxana mütəxəssisi yüksək ixtisas dərəcəsinə malik olmaq, tədqiqat vərdişlərinə yiyələnmək, informasiya-kommunikasiya texnologiyalarının tətbiqini həyata keçirməklə yanaşı, kitabxana xidmətlərinin pedaqoji və sosial-psixoloji mahiyyəti barədə də bilik və bacarıqlara malik olmalıdır. Qeyd olunub ki, kitabxana-informasiya xidmətlərinin həyata keçirilməsi zamanı bütün bu istiqamətlərin vacibliyi sahə üzrə qəbul edilmiş bir sıra mühüm sənədlərdə əksini tapıb: “Kitabxanaçılar mövcud resurslar vasitəsilə bütün istifadəçilərə ən yüksək səviyyədə xidmət göstərməli, bərabərhüquqlu xidmət siyasətini həyata keçirməli, bütün sorğulara dəqiq, qərəzsiz və nəzakətli cavabı təmin etməlidirlər”. Vəfa Məmmədova vurğulayıb ki, xidmət zamanı pedaqoji və sosial-psixoloji aspektlərin nəzərə alınması kitabxanalarla informasiya subyektləri arasında qarşılıqlı əlaqələrin və münasibətlərin yeni sistemini formalaşdırır, kitabxanaların informasiya cəmiyyətində sosial institut kimi daha çevik və dinamik rolunu şərtləndirir.

Elmi seminar müzakirələrlə davam edib, məruzəçiyə suallar ünvanlanıb.

# BDU-da professor Səfyar Musayevin 90 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib

*Oktyabrın 24-də BDU, Yeni Azərbaycan Partiyası (YAP) və Qərbi Azərbaycan İcmasının (QAİ) birgə təşkilatçılığı ilə BDU-nun professoru, görkəmli alim və ictimai-siyasi xadim Səfyar Musayevin 90 illik yubileyinə həsr olunmuş "Səfyar Musayevin ictimai-siyasi və elmi-pedaqoji fəaliyyəti" mövzusunda Respublika elmi konfransı keçirilib.*



Konfransda açılış nitqi çıxış edən BDU-nun rektoru Elçin Babayev professor Səfyar Musayevin Azərbaycan tarix elminin inkişafında mühüm rol oynayan görkəmli alimlərdən biri olduğunu bildirib. Qeyd edib ki, o, uzun illər ərzində elmi-tədqiqat fəaliyyəti ilə yanaşı, pedaqoji sahədə də fədakarlıq göstərib, Universitetdə tarix elminin sistemli şəkildə tədris olunmasına və inkişafına böyük zəhmət sərf edib: "Orta məktəbi qızıl medalla bitirdikdən sonra 1953-cü ildə BDU-nun Tarix fakültəsinə qəbul olan Səfyar Musayev Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra təyinatla Basarkeçər rayonunda orta məktəb müəllimi işləyib. 1959-cu ilin sonlarında Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin tövsiyəsi ilə Vilnüs şəhərindəki Dövlət Təhlükəsizliyi Məktəbinə göndərilib və orada 2 illik kursu müvəffəqiyyətlə bitirib. Vətənə geri döndükdən sonra 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin aspirantura pilləsinə qəbul olunub. 1965-ci ildə namizədlik, 1979-cu ildə isə doktorluq dissertasiyasını müdafiə edib. 1979-cu ildə tarix elmləri doktoru elmi dərəcəsi, 1981-ci ildə isə professor elmi adı alıb. 1966-cı ildən BDU-nun Sovet İttifaqı Kommunist Partiyası tarixi kafedrasında müəllim, dosent, kafedranın professoru və 1986-cı ildən isə Siyasi tarix kafedrasının müdiri vəzifəsində çalışıb. Onun rəhbərliyi ilə 25 nəfər namizədlik, 5 nəfər isə doktorluq dissertasiyası müdafiə edib. Səfyar Musayevin elmi tədqiqatları təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da tanınır".

Səfyar Musayevin respublikanın siyasi həyatında baş verən proseslərdən heç vaxt kənarda qalmadığını deyən rektor Elçin Babayev professorun hər zaman yüksək vətəndaş mövqeyi nümayiş etdirərək Yeni Azərbaycan Partiyasının yaradılmasında və təşəkkül tapmasında fəal iştirak etdiyini vurğulayıb: "1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə deputat seçilən Səfyar Musayev ölkəmizdə insan hüquqlarının qorunmasına, hüquqi dövlətin yaradılmasına və müvafiq qanunvericilik aktlarının hazırlanması işlərində xidmətlər göstərib. Bütün ömrünü Ümummilli Lider Heydər Əliyev ideyalarına sədaqətli xidmətlə keçirən istedadlı alim, vətənpərvər insan Səfyar Musayevin əziz xatirəsi daim yaşayacaq".

BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov "Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinin vurğunu, ictimai-siyasi xadim, istedadlı alim", YAP Veteranlar Şurasının sədri, İdarə Heyətinin üzvü Arif Rəhimzadə ""91-lər"in qurucularından biri", QAİ-nin sədri Əziz Ələkbərli "Qərbi Azərbaycanın görkəmli ziyalısı, el təəssübkeşi", Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Səfyar Musayev xatirələrdə", Milli Məclisin üzvləri Tamam Cəfərova "Əziz elmi rəhbərim", Arzuxan Əlizadə "Əqidəli alim", BDU-nun Azərbaycan tarixi kafedrasının müdiri Azad Rzayev "Səfyar Musayevin vətəndaş mövqeyi" mövzuları üzrə məruzələrlə çıxış ediblər. Məruzələrdə Səfyar Musayevin ölkənin ictimai-siyasi, elmi-pedaqoji həyatında xidmətləri vurğulanıb. Qeyd olunub ki, Səfyar Musayev Ümummilli Lider Heydər Əliyevin ən yaxın tərəfdaşlarından, Yeni Azərbaycan Partiyasının qurucularından, məşhur "91"lərdən biri idi. Səfyar Musayevi bir alim, pedaqoq, ictimai-siyasi xadim kimi xalqa sevdirən onun elmi-tədris fəaliyyəti ilə yanaşı, vətənpərvərliyi, milli ləyaqəti olub.

Professor Səfyar Musayevin oğlu Vüqar Musayev tədbirin təşkilinə görə təşəkkür edib, görkəmli alim və ictimai-siyasi xadimin ömür yolunun gənclər üçün nümunə olduğunu bildirib.

# BDU-da süni intellektin psixoterapiyada tətbiq imkanları müzakirə olunub

*Oktyabrın 30-da Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasının təşkilatçılığı ilə "Süni intellektin psixologiya aspektindən təhlili və psixoterapevtik müdaxilələrdə innovativ tətbiqlər" adlı elmi-metodik seminar keçirilib.*

Eklektik psixoterapiyanın supervayzeri, Psixologiya kafedrasının müəllimi David Poladovun keçirdiyi seminarda süni intellektin psixologiya elminin inkişaf dinamikasına təsiri, psixoterapiyada tətbiq imkanları elmi aspektdə müzakirə olunub. İştirakçılar süni intellektin koqnitiv psixologiyanın əsas anlayışları - qavrayış, diqqət, qərarvermə və idrak strukturları ilə müqayisəli təhlilini apardılar. Eyni zamanda Endel Tulving və Herbert Simonun nəzəri prinsiplərinə əsaslanaraq insan və maşın intellekti arasında idrak paralelliyi məsələsinə diqqət yönəldilib.

Müzakirələrdə süni intellekt texnologiyalarının psixoterapiyada istifadəsi, empatiya və refleksiya proseslərinin avtomatlaşdırılması, etik məsuliyyət və məlumat təhlükəsizliyi kimi aktual problemlər ətrafında fikir mübadiləsi aparılıb. Bununla yanaşı, klassik psixoloji nəzəriyyələrin müasir texnoloji mühitdə yeni interpretasiyaları təqdim olunub, terapevtik modellərdə insan-maşın qarşılıqlı əlaqəsinin rolu elmi baxımdan izah edilib.

# BDU tələbələri "Herba-Flora" MMC-də praktiki məşğələdə iştirak ediblər



*Oktyabrın 30-da Biologiya fakültəsinin Molekulyar biologiya və biotexnologiyalar kafedrasının "Qida mühəndisliyi" ixtisası üzrə IV kurs tələbələri "Qida sənayesində texnoloji əməliyyatlar" fənni çərçivəsində "Herba-Flora" MMC-də praktiki məşğələdə iştirak ediblər.*

Məşğələ kafedranın dosenti Çingiz Əliyevin rəhbərliyi ilə keçirilib. O, "Herba-Flora" MMC-nin mütəxəssisləri ilə birlikdə tələbələrə müəssisədə yeyinti və ictimai iaşə xidmətlərində tətbiq edilən texnoloji xətlərin layihələndirilməsi, yenidənqurulması və kimyəvi analiz laboratoriyasındakı müasir avadanlıqlar barədə geniş məlumat veri.

Tələbələr fənnin proqramına uyğun olaraq texnoloji xətlərin yaradılmasının nəzəri və praktiki əsaslarını, həmçinin yeyinti və dərman sənayesində istifadə olunan avadanlıq, maşın və aparatların quruluşu, iş prinsipi və texniki xüsusiyyətlərini yerində müşahidə ediblər.

Tələbələr bitki xammallarının saxlandığı anbar, xammalın keyfiyyətinin qorunması üçün istifadə olunan texniki vasitə və qurğular, hazır məhsulların qablaşdırılması və daşınması prosesləri ilə də tanış olublar. "Herba-Flora" MMC-də küncüt toxumlarından yağın istehsalına dair texnoloji xəttin struktur sxeminin nümayişi olub.

Sonda müəssisə əməkdaşları tələbələrin suallarını cavablandırıblar.

# BDU-da funksional nanohissəciklərin biotibbdə tətbiqinə dair tədqiqatlar aparılır



*BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyası, Nanomaterialların kimyəvi fizikası kafedrası və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə elmi seminar keçirilib.*

Tədbirdə Nanomaterialların kimyəvi fizikası kafedrasının doktorantı Aygün Mehdiyeva "Funksional nanohissəciklərə dərman yüklənməsi: müxtəlif yanaşmalar və perspektivlər" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi funksional nanohissəciklər və onların biotibbi tətbiq sahələri ilə bağlı aparılmış ədəbiyyat araşdırmaları haqqında məlumat verib. O, FeO nanohissəciklərinin ünvanlı dərman daşınma sistemlərinin (ÜDDS) tələblərinə cavab verən formada dizayn olunması, həmçinin müasir nanotexnologiyanın əsas istiqamətlərindən biri kimi FeO əsaslı nano-sistemlərin dizaynında qarşıya çıxan problemlər və optimallaşdırma yolları barədə danışıb.

Seminarda Qarabağ Universitetinin Mühəndislik fakültəsinin müəllimləri – fizika üzrə fəlsəfə doktoru Orxan Güləhmədov, Nərgiz Mehdiyeva və fakültənin "Kompüter mühəndisliyi" ixtisası üzrə təhsil alan II kurs tələbələri də iştirak ediblər.

Elmi seminar müzakirələrlə davam edib.

# Şərqşünaslıq fakültəsində türkiyəli millət vəkili, yazıçı, aktyor Bahadır Yenişehirlioğlu ilə görüş



***Oktyabrın 7-də Şərqşünaslıq fakültəsində Bakı Yunus Əmrə İnstitutunun təşkilatçılığı ilə Türkiyə Böyük Millət Məclisinin üzvü, yazıçı, aktyor Bahadır Yenişehirlioğlu ilə görüş keçirilib.***

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan qonağı professor-müəllim və tələbə heyətinə təqdim edib, BDU ilə Yunus Əmrə İnstitutu arasında əməkdaşlıq əlaqələrindən danışıb.

Bakı Yunus Əmrə İnsitutunun direktoru Gökhan Seyhan görüşün qloballaşan dünyada insanın mənəvi dəyərlərini qoruması, öz kimliyini və ruhunu itirməməsi baxımından önəm daşıdığını qeyd edib. Bakı Yunus Əmrə İnstitutunun əməkdaşı Aygün Ələkbərzadə Bahadır Yenişehirlioğlunun həyatı, ictimai-siyasi fəaliyyəti və yaradıcılığı haqqında təqdimat edib.

Daha sonra Bahadır Yenişehirlioğlu öz həyat yolu və uğur hekayəsini tələbələrlə bölüşüb. O, ədəbiyyatın insan ruhuna təsiri, sənətin cəmiyyətin aynası olması, ədalətin insan həyatında tutduğu yer barədə fikirlərini bölüşüb.

Görüşün sonunda qonaq tələbələrin suallarını cavablandırıb, onlara imzalı kitablarını hədiyyə edib.

# BDU-da Əməkdar jurnalist Elçin Alıoğlu ilə görüş

***Oktyabrın 8-də Jurnalistika fakültəsində "Trend" İnformasiya Agentliyinin baş direktorunun müavini, Əməkdar jurnalist, siyasi şərhçi Elçin Alıoğlu ilə görüş keçirilib.***



Fakültənin dekanı, professor Vüqar Əliyev Elçin Alıoğlunun jurnalistika sahəsindəki zəngin təcrübəsi və peşəkarlığı barədə tələbələri məlumatlandırıb.

Daha sonra çıxış edən Elçin Alıoğlu jurnalistikada illər ərzində topladığı təcrübələrdən danışıb. O, medianın mövcud vəziyyətinə nəzər salaraq, peşə etikası, obyektivlik prinsipi və jurnalistin ictimai məsuliyyəti kimi önəmli mövzulara toxunub.

Əməkdar jurnalist informasiya müharibələrinin və dezinformasiyanın artdığı müasir dövrdə jurnalistlərin daşıdığı məsuliyyətin daha da aktuallaşdığını vurğulayıb.

Qonaq tələbələrə araşdırma bacarıqlarını inkişaf etdirməyi, öz üzərlərində fasiləsiz işləməyi və müasir medianın çağırışlarına cavab verməyi tövsiyə edib.

# BDU məzunu, Nobel Sülh mükafatçısı Bəxtiyar Siracov tələbələrlə görüşüb

***Oktyabrın 20-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunu, Nobel Sülh mükafatçısı Bəxtiyar Siracovla görüş keçirilib.***

Tədbirdə BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı Ələkbər Əliyev, fakültənin müəllim və tələbələri iştirak ediblər.



Fakültə dekanı Ələkbər Əliyev qeyd edib ki, Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunları dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda uğurla fəaliyyət göstərir, yüksək vəzifələrdə çalışırlar. Belə məzunlardan biri də Nobel Sülh Mükafatına layiq görülən Bəxtiyar Siracovdur. Ələkbər Əliyev Norveç Sülh Komitəsinin qərarı ilə 2005-ci ildə Nobel Sülh mükafatına layiq görülən və uzun illər Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) məsul əməkdaşı olan məzunumuzun həyat yolu haqqında tələbələrə məlumat verib, belə görüşlərin tələbələrin inkişafında önəmli rol oynadığını vurğulayıb.

Bəxtiyar Siracov bildirib ki, 1974-1979-cu illərdə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsində təhsil alıb. O, məzunu olduğu universitetdə tələbələrlə görüşdən məmnunluğunu ifadə edib. Qonaq tələbəlik illərindən tutmuş AEBA-dakı fəaliyyətinədək keçdiyi yol barədə ətraflı məlumat verib, elmin inkişafına gənclərin töhfəsinin vacibliyini vurğulayıb. O, bilik və təcrübələrindən bəhrələndiyi Azərbaycan alimlərini minnətdarlıqla yad edib, onların yetirmələrinin bu gün dünyanın nüfuzlu universitetlərində, elm mərkəzlərində çalışdığını fəxrlə bildirib.

Qeyd olunub ki, 2005-ci ildə Norveç Sülh Komitəsinin qərarı ilə AEBA və onun Baş Direktoru Məhəmməd əl-Baradei nüvə enerjisinin hərbi məqsədlər üçün istifadəsinin qarşısının alınmasında və nüvə enerjisindən dinc məqsədlər üçün təhlükəsiz şəkildə istifadə edilməsinin təmin edilməsində göstəridikləri xidmətlərə görə Nobel Sülh Mükafatına layiq görülüblər. Bəxtiyar Siracov da məhz o tarixdən AEBA-da çalışan digər əməkdaşlarla bərabər Nobel Sülh Mükafatını alanlar sırasındadır.

Sonra Bəxtiyar Siracov tələbələrin suallarını cavablandırıb.

# Tanınmış yazıçı və psixoloq Rövşən Abdullaoğlu ilə görüş



***Oktyabrın 9-da BDU Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) Filologiya fakültəsinin təşkilatçılığı ilə tanınmış yazıçı və psixoloq Rövşən Abdullaoğlu ilə görüş keçirilib.***

Rövşən Abdullaoğlu tələbələrə həyatı, yaradıcılığı, ilk qələm təcrübələri haqqında məlumat verib. Müəllifi olduğu "Bu şəhərdə kimsə yoxdur", "Abaddon", "Reyslər üzərində uzanmış adam" əsərləri haqqında söhbət açıb, yazıçılıq fəaliyyətinin incə məqamlarına toxunub. Daha sonra qonaq mütaliənin həyatındakı rolu və şəxsi inkişaf mövzularında tələbələrlə səmimi söhbət aparıb.

Sonda yazıçı tədbir iştirakçılarının suallarını cavablandırıb, tələbələrə imzalı kitablarını hədiyyə edib.

# Jurnalistika fakültəsində Əməkdar jurnalist Emin Musəvi ilə görüş

***Oktyabrın 17-də Jurnalistika fakültəsində Əməkdar jurnalist, "ASAN Radio"nun direktoru Emin Musəvi ilə görüş keçirilib.***

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev tələbələr üçün keçirilən belə görüşlərin jurnalistikanın nəzəri biliklərinin praktik mənada gücləndirilməsi üçün faydalı olduğunu və yeni təcrübə imkanları yaratdığını bildirib. Ölkə mediasında tanınmış və peşəkar jurnalistlərdən olan Emin Musəvi haqqında tələbələrə məlumat verib.

Emin Musəvi radiojurnalistikanın dinamikası, operativliyi və auditoriyaya təsir gücündən bəhs edib, bu sahədə çalışan jurnalistlərin yüksək diqqət və sosial məsuliyyət daşıdığını vurğulayıb, tələbələrə öz tövsiyələrini verib. Bu peşədə uğur qazanmağın əsas şərtlərindən biri kimi daim yenilikləri izləməyin, nitq qabiliyyətini inkişaf etdirməyin və praktiki təcrübəyə önəm verməyin vacib olduğunu bildirib.

Qonaq tələbələri "ASAN Radio" və "ASAN TV" də təcrübə keçməyə dəvət edib, onların suallarını cavablandırıb.

# ABŞ-nin Şimali Dakota Dövlət Universitetinin professoru BDU-da mühazirələrə başlayıb

***Oktyabrın 16-da Amerika Birləşmiş Ştatlarının (ABŞ) Şimali Dakota Dövlət Universitetinin Riyaziyyat departamentinin professoru Azər Əhmədov Mexanika-riyaziyyat və Fizika fakültələrinin tələbələri üçün "Üçölçülü həndəsə və topologiya" kursu üzrə mühazirələrə başlayıb.***

Professor Azər Əhmədovun mühazirələri bir ay müddətində, həftədə üç dəfə olmaqla keçiriləcək. Kursun məqsədi müasir həndəsə və topologiyanın fundamental anlayışlarını, çoxölçülü fəzaların quruluşu və simmetriyalarını tələbələrə sistemli şəkildə öyrətməkdir. Professor Azər Əhmədov 1996-cı ildə BDU-nun Mexanika-riyaziyyat fakültəsini bitirib. O, dünya şöhrətli riyaziyyatçı, Filds və Abel mükafatları laureatı Qriqoriy Aleksandroviç Marqulisin yetirməsidir.

İlk mühazirə tələbələr tərəfindən böyük maraqla qarşılanıb və geniş elmi müzakirələrə səbəb olub.

# BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin I kurs tələbələri ilə görüşləri davam edir

***BDU-nun Karyera və məzunlarla iş Mərkəzi I kurs tələbələri üçün məlumatlandırıcı görüşlər keçirir. Görüşlər tələbələri Mərkəzin fəaliyyət istiqamətləri və təqdim etdiyi geniş imkanlarla yaxından tanış etmək, onları peşəkar inkişafa dəstək ola biləcək resurslar barəsində məlumatlandırmaq məqsədi daşıyır.***



Şərqşünaslıq fakültəsində keçirilən görüşdə BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları İlkin Şərifov və Mələkxanım Qurbanova ixtisaslı kadrların bilik və bacarıqlarının təkmilləşdirilməsi, onların əmək bazarının çağırışlarına uyğun formalaşdırılmasının Mərkəzin əsas missiyası olduğunu bildiriblər. Qeyd ediblər ki, tələbələr Mərkəzin xidmətlərindən istifadə edərək, düzgün karyera planlaşdırılması, peşə və şəxsi bacarıqların inkişaf etdirilməsi, karyera hədəflərinin düzgün müəyyənləşdirilməsi, müasir tələblərə cavab verən CV (rezüme) hazırlanması, iş axtarışında effektiv strategiya və taktikaların öyrənilməsi, müsahibə texnikalarının mənimsənilməsi və başqa istiqamətlərdə səriştələr əldə edə bilərlər.

Görüşdə Mərkəz tərəfindən həyata keçirilən təlim, seminar və layihələr haqqında da məlumat verilib. Vurğulanıb ki, tələbələr həmin tədbirlərə qoşulmaqla həm karyera sahəsindəki yeniliklərlə tanış ola, həm də beynəlxalq təcrübəni öyrənərək öz inkişaf yollarını müəyyən etmək imkanı əldə edə bilərlər.

Sonda tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# AYNA BDU-da dayanıqlı şəhər mobilliyinə dair infosessiya keçirib

***Oktyabrın 13-də BDU-da Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) təşkilatçılığı ilə "Dayanıqlı şəhər mobilliyi: Bakı şəhərində bu istiqamətdə görülmüş və planlaşdırılan işlər" mövzusunda infosessiya keçirilib.***



BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov bu istiqamətdə keçirilən maarifləndirici tədbirlərin əhəmiyyətindən danışıb, Universitetin sosial layihələrindən bəhs edib. Həmçinin dayanıqlı şəhər konsepsiyasına uyğun olaraq keçirilən layihələrin və fəaliyyətlərin artıq zərurətə çevrildiyini bildirib.

AYNA-nın Daxili kommunikasiya və tədbirlərin təşkili şöbəsinin müdiri Elmira Abbasova infosessiyada mikromobillik infrastrukturunun inkişaf etdirilməsi ilə bağlı görülmüş işlər barədə tələbələrə məlumat verib. Qeyd edib ki, mikromobilliyin tətbiqi əhalinin mobilliyini artırmaq, şəhər mərkəzlərində nəqliyyat yükünü azaltmaq və ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədi daşıyır. Dünyanın bir çox şəhərlərində olduğu kimi, paytaxt Bakıda da nəqliyyat sıxlığının aradan qaldırılması, velosiped, elektrik mühərrikli kiçik nəqliyyat vasitələri istifadəçiləri və digər yol istifadəçilərinin təhlükəsizliyini təmin etmək məqsədilə işlər görülür. İndiyədək Bakı şəhərində 31 küçə və prospektdə mikromobillik zolağı təşkil edilib. Bu zolaqların 100 km-ə çatdırılması nəzərdə tutulur.

Daha sonra Bakı şəhərində mikromobilliyin təkmilləşdirilməsinə dair həyata keçirilməli olan tədbirlər barədə tələbələrlə fikir mübadiləsi aparılıb, onların sualları cavablandırılıb.

Tədbirin sonunda BDU ərazisində təlimçilərin iştirakı ilə velosiped turu təşkil olunub.

# BDU tələbələri faydalı qazıntı yataqlarında müasir geofiziki tədqiqat üsullarına dair məlumatlandırılıb

***Oktyabrın 20-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə "Faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatında innovativ geofiziki tədqiqat üsullarının rolu və geoloji kəşfiyyat mərhələləri" mövzusunda maarifləndirici təlim keçirilib.***

Təlimin məqsədi tələbələrin geoloji elmlər üzrə nəzəri biliklərinin praktiki tətbiqini gücləndirmək, innovativ tədqiqat metodları və faydalı qazıntı yataqlarının axtarışında müasir geofiziki üsulların əhəmiyyəti barədə biliklərini artırmaq olub.

Təlimdə "AzerGold" QSC-nin Geoloji kəşfiyyat şöbəsinin Geoloji-geofiziki məlumatların təhlili sektorunun aparıcı mütəxəssisi Elfaq Məmmədov və İnsan resurslarının idarəolunması şöbəsinin İnsan resursları üzrə biznes tərəfdaşlığı sektorunun mütəxəssisi Əminə Məmmədova geofiziki tədqiqatların faydalı qazıntıların aşkarlanmasında rolu, geoloji kəşfiyyat prosesində tətbiq edilən innovativ texnologiyalar, müasir avadanlıq və proqram təminatları barədə məlumat veriblər. Onlar həmçinin geofiziki məlumatların təhlilinin vacibliyini, nəticələrin interpretasiyası zamanı nəzərə alınmalı geoloji xüsusiyyətləri və bu sahədə ixtisaslaşmış kadrların hazırlanmasının strateji əhəmiyyətini vurğulayıblar.

# BDU-da təlim: "Geoloji xəritəndə öz karyera yolunu tap"

***Oktyabrın 8-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və Karyera və Məzunlarla İş Mərkəzinin birgə təşkilatçılığı ilə tələbələr üçün "Geoloji xəritəndə öz karyera yolunu tap" adlı təlim keçirilib.***

Təlimçi, Mərkəzin baş mütəxəssisi İlkin Şərifov iştirakçılara karyera planlamasının mərhələləri, fərdi bacarıqların qiymətləndirilməsi, düzgün istiqamət seçiminin əhəmiyyəti və geologiya sahəsində mövcud iş imkanları barədə geniş məlumat verib. Şəxsi inkişafın və davamlı öyrənmənin peşəkar uğurda mühüm rol oynadığını bildirib.

Təlim interaktiv formatda təşkil olunub. Qrup işləri zamanı tələbələr komanda bacarıqlarını və analitik düşünmə qabiliyyətlərini nümayiş etdiriblər. Hər qrup öz ideyalarını təqdim edib, müxtəlif yanaşmalar paylaşaraq mütəxəssisdən faydalı tövsiyələr alıblar.

# BDU-nun magistrantı fotomüsabiqənin qalibi olub

***Jurnalistika fakültəsinin magistrantı Maral Şahverdili "Yaşıl gələcək bizim gözümüzlə" adlı fotomüsabiqənin qalibi olub.***

Müsabiqənin mükafatlandırılma mərasimi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Əmək və Sosial Münasibətlər Akademiyasında "İqlim dəyişikliklərinin həlli yolları: beynəlxalq əməkdaşlıq və elmi kommunikasiya" mövzusunda tədbirdə keçirilib.

Mərasimdə hökumət rəsmiləri, Milli Məclisin deputatları, tanınmış alimlər, ekoloqlar və ali təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

Fotomüsabiqənin qaliblərindən olan Maral Şahverdili iqlim dəyişikliyi və ekoloji məsuliyyət mövzusunda çəkdiyi fotoya görə mükafata layiq görülüb.

# BDU tələbələri Bakı Zooloji Parkına ekskursiya ediblər

***Oktyabrın 9-da Ekologiya və torpaqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyəti (TEC) və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşkilatçılığı ilə fakültə tələbələrinin Bakı Zooloji Parkına ekskursiyası təşkil olunub.***

Ekskursiyanın məqsədi tələbələrdə ekoloji bilik və məsuliyyətin artırılması, biomüxtəlifliyin qorunması barədə praktiki məlumatların verilməsi olub. Tədbir zamanı tələbələrə Azərbaycanın "Qırmızı kitab"ına daxil olan nadir və nəsli kəsilmək üzrə olan heyvan növlərinin mühafizəsi, həmçinin reintroduksiya proqramı haqqında ətraflı məlumat verilib. Onlar, eyni zamanda, digər ölkələrin unikal fauna nümunələri ilə də yaxından tanış olublar.

Qeyd edək ki, Bakı Zooloji Parkı 1928-ci ildən fəaliyyət göstərir. 2017-ci ildə IDEA İctimai Birliyinin təşəbbüsü ilə parkda əsaslı yenidənqurma işlərinə start verilib və 2021-ci ildə yenilənmiş zooparkın açılışı baş tutub. Yenidənqurmadan sonra parkın sahəsi 2,25 hektardan 4,25 hektara qədər genişləndirilib. Hal-hazırda burada 125 növ heyvan saxlanılır ki, onlardan 22 növ "Qırmızı kitab"da yer alır. Zooparkın akvaterrarium bölməsində isə 62 növ su canlısı mövcuddur.



# Jurnalistika fakültəsinin müəllim və doktorantları Beynəlxalq elmi konfransda çıxış ediblər

***1-2 oktyabr tarixlərində Naxçıvan Dövlət Universitetində "İnnovasiya və davamlı inkişaf: yeni ideyalar və həllər" adlı I Beynəlxalq elmi konfrans keçirilib.***




Konfransda Jurnalistika fakültəsinin dekan müavini, dosent Sevinc Əliyeva "Yeni media etikası: Netiket və ənənəvi jurnalistika etikası", Multimedia və elektron kommunikasiya kafedrasının müəllimi Arzu İsayeva "Yeni media mühitində data jurnalistikasının inkişaf trendləri", Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının doktorantı Günel Qəribova "PR böhranlarının idarə edilməsi və sosial media" və Milli mətbuat tarixi kafedrasının doktorantı Mahir Qəribov "Əhməd Ağaoğlunun jurnalistika fəaliyyətində türkçülük və ideoloji mövzular" üzrə elmi məruzələrlə çıxış ediblər.

Konfrans müddətində Jurnalistika fakültəsinin müəllimləri Naxçıvan Dövlət Universitetinin Jurnalistika fakültəsinin I kurs tələbələri ilə də görüşüb, fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, innovasiya və texnoloji inkişaf sahəsində nəzəri və praktiki yeniliklərin müzakirəsi, yeni tədqiqat istiqamətlərinin yaradılması və elmi əməkdaşlıq imkanlarının genişləndirilməsi məqsədilə təşkil edilən konfransın materialları beynəlxalq meyarlara uyğun indekslənərək DOI (Rəqəmsal obyektin identifikatoru) kodu ilə elektron və çap variantlarında nəşr olunacaq.

# BDU-da qida təhlükəsizliyinə dair təlim keçirilib

***Oktyabrın 6-da Biologiya fakültəsində "Qida təhlükəsizliyi və mühəndislik: tələbələr üçün yeni yollar və geniş imkanlar" adlı təlim keçirilib. Tədbir gənclərin elm, texnologiya və sənaye sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə təşkil olunub.***

Fakültənin dekanı Afət Məmmədova bildirib ki, bu cür görüşlər tələbələrin nəzəri biliklərini praktik bacarıqlarla birləşdirməsinə, müasir istehsalatla tanış olmasına geniş imkan yaradır. O vurğulayıb ki, qida təhlükəsizliyi və keyfiyyət standartlarına riayət etmək qlobal prioritetlərdən biridir və tələbələrin bu istiqamətdə müasir yanaşmaları öyrənməsi mühüm əhəmiyyət daşıyır.

Təlimçi, "Azerbaijan Fish Farm" MMC-nin Keyfiyyət və SƏTƏM şöbəsinin müdiri Cavid Qurbanzadə qida sənayesində tətbiq olunan beynəlxalq keyfiyyət idarəetmə sistemləri — ISO 9001, ISO 22000 və HACCP standartları barədə danışıb. O, müəssisələrdə keyfiyyətə nəzarət, risk analizi, istehsalatda təhlükəsizlik qaydaları və ekoloji məsuliyyət prinsipləri haqqında məlumat verib.

Təlim interaktiv müzakirə şəklində davam edib, tələbələrin qida mühəndisliyi sahəsində karyera imkanları, sertifikatlaşdırma və texnoloji yeniliklərlə bağlı sualları cavablandırılıb.

# BDU-da Ümumdünya Layiqli Əmək Gününə həsr olunmuş dəyirmi masa

***Oktyabrın 7-də BDU-nun Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə 7 oktyabr - Ümumdünya Layiqli Əmək Gününə həsr olunmuş dəyirmi masa keçirilib.***

BDU-nun Əmək və ekologiya hüququ kafedrasının müdiri, professor Alış Qasımov layiqli əməyin mahiyyəti, Azərbaycan dövləti və həmkarlar ittifaqları tərəfindən bu aspektdə görülən işlər, Ümumdünya Layiqli Əmək Gününün təsis olunmasının əhəmiyyəti haqqında məlumat verib, işçilərin əmək hüquqlarının qorunması istiqamətində qarşıda duran vəzifələri qeyd edib.

BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev əmək hüququ ilə bağlı mövcud problemlərdən, işçilərin əmək hüquqlarının təmin edilməsi məqsədilə ölkədə həyata keçirilən tədbirlərdən söz açıb. Azərbaycanda mövcud olan əmək hüquq sistemini xarici dövlətlərin əmək hüquq sistemləri ilə müqayisəli izah edib. Əmək və ekologiya hüququ kafedrasının baş müəllimi Fəridə Aslanova əmək hüququ münasibətlərində ayrı-seçkiliyə yol verilməməsi, layiqli əməyin təmin olunması şərtlərindən bəhs edib, Ümumdünya Layiqli Əmək Gününün tarixi əhəmiyyətindən danışıb.

Tədbir iştirakçılarının mövzu ilə bağlı suallarının cavablandırılması və müzakirələrlə davam edib.

# BDU tələbələri üçün təlim: "Müasir geotexnologiyalar və faydalı qazıntıların işlənməsi"

***Oktyabrın 6-da Geologiya fakültəsində Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və "BDU könüllüləri" təşkilatının birgə təşəbbüsü ilə tələbələr üçün "Müasir geotexnologiyalar və faydalı qazıntıların işlənməsi" mövzusunda təlim keçirilib.***

Təlimdə Faydalı qazıntılar kafedrasının baş müəllimi, fəlsəfə elmləri doktoru Rasim İsmayılov müasir geotexnologiyaların tətbiq istiqamətləri, faydalı qazıntı yataqlarının işlənməsi mərhələləri, ekoloji təhlükəsizlik amilləri, həmçinin innovativ yanaşmalar barədə təqdimat edib. Təlim zamanı müasir istehsalatda elmi biliklərin tətbiqi nümunələrinə də toxunulub.

Tələbələrin nəzəri biliklərini praktiki təcrübə ilə zənginləşdirmək, onların elmi potensialını artırmaq və gələcək peşə fəaliyyətində tətbiq edə biləcəkləri yeni yanaşmaları nümayiş etdirmək məqsədilə keçirilən təlim sual-cavab sessiyası ilə davam edib.

Daha sonra iştirakçılar BDU-nun "Faydalı qazıntılar" muzeyini ziyarət ediblər. Muzeydə müxtəlif faydalı qazıntı nümunələri, nadir mineral kolleksiyaları və geoloji eksponatlarla tanışlıq tələbələrdə böyük maraq doğurub.



# BDU-da GNSS üzrə birgə onlayn təlim uğurla başa çatıb

***BDU ilə Tokio Universitetinin Məkan Məlumatı Elmləri Mərkəzi (Center for Spatial Information Science – CSIS) tərəfindən birgə təşkil olunan "GNSS Training" adlı beynəlxalq vebinar 7–11 oktyabr 2025-ci il tarixlərində uğurla keçirilib. Təlimin təşkilinə həmçinin Beynəlxalq Qlobal Naviqasiya Peyk Sistemləri Komitəsi (ICG) dəstək verib.***

Üç gün davam edən onlayn təlim Qlobal Naviqasiya Peyk Sistemləri (Global Navigation Satellite Systems - GNSS) texnologiyalarının elmi və praktiki əsaslarına həsr olunub. Təlimdə BDU-nun müəllim və tələbələri, eləcə də müxtəlif ixtisas sahələrindən mütəxəssislər iştirak ediblər.

Təlim sessiyalarına Tokio Universitetinin CSIS üzrə aparıcı tədqiqatçısı Dineş Manandhar rəhbərlik edib. Dineş Manandhar GNSS texnologiyaları, mövqe dəqiqliyinin artırılması metodları, real vaxt naviqasiya sistemləri və peyk məlumatlarının emalı sahəsində beynəlxalq səviyyədə tanınmış mütəxəssisdir. O, uzun illərdir ki, GNSS tətbiqləri, o cümlədən RTKLIB proqram təminatı və yüksək dəqiqlikli mövqe hesablama üsulları üzərində elmi tədqiqatlar aparır. Dineş Manandhar həmçinin Asiya və Avropa ölkələrində müxtəlif universitet və elmi qurumlarla birgə layihələr həyata keçirərək GNSS texnologiyalarının tədrisi və praktik tətbiqlərinin genişləndirilməsinə töhfə verir.

Vebinarın proqramına aşağıdakı əsas mövzular daxil olub:

- GNSS sistemlərinin quruluşu, peyk siqnalları və koordinat sistemləri;
- Mövqenin dəqiqliyi, GNSS səhvləri və yüksək dəqiqlikli ölçmə üsulları (DGPS, RTK, PPP, MADOCA-PPP);
- RTKLIB proqram təminatı vasitəsilə GNSS məlumatlarının işlənməsi və analiz metodları;
- Real vaxt rejimində məlumat emalı və dəqiqlik müqayisələri.

Təlimdə iştirak edən mütəxəssislər və tələbələr həm nəzəri biliklər, həm də praktiki bacarıqlar qazanıblar. Tokio və Bakıdan qoşulan təlimçilərin rəhbərliyi altında GNSS məlumatlarının emalı üzrə real vaxt təcrübəsi aparılıb.

Təlimin sonunda keçirilən müzakirələr zamanı iştirakçılar GNSS texnologiyalarının nəqliyyatın idarə olunması, erkən xəbərdarlıq sistemləri və ekoloji monitorinq sahələrində tətbiqi barədə fikir mübadiləsi aparıblar.

Təlimin uğurlu nəticəsi BDU-nun beynəlxalq əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi və müasir coğrafi informasiya sistemlərinin tədrisində yeni texnologiyaların tətbiqi baxımından mühüm addım olub.

# BDU-da elmi seminar: "Tarixi-mədəni irsimiz və müasir cəmiyyət"



***Oktyabrın 30-da "BDU könüllüləri" təşkilatının Tarix fakültəsi üzrə üzvləri və 3 saylı Bakı "ASAN xidmət" mərkəzinin könüllülərinin birgə təşkilatçılığı ilə "Tarixi-mədəni irsimiz və müasir cəmiyyət" adlı elmi seminar keçirilib.***

BDU-nun Arxeologiya və etnoqrafiya kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Hicran Mahmudova bildirib ki, mədəni irs hər bir cəmiyyətin və ya millətin keçmişinə aid ünsürləri özündə birləşdirən, milli azlığın maddi və qeyri-maddi mədəni irs nümunələrini əks etdirən mədəni sərvətlərin məcmusudur. Eyni zamanda cəmiyyətin hazırkı özünəməxsusluğunu ehtiva edən və bunu gələcək nəsillərə ötürə biləcək vasitədir. Hər xalq öz zəngin adət-ənənələrini, mədəniyyətini, folklorunu, elmi-texniki nailiyyətlərini, milli-mədəni irsini təqdim etməklə dünyanı daha da zənginləşdirir və bu zənginlik üzərində qlobal inkişaf təmin olunur. Tarixi-mədəni irsi ilə dünyada tanınan və dəyərləri ilə nümunəyə çevrilən Azərbaycan bu gün global səviyyəyə məhz bunlarla çıxır.

Daha sonra Hicran Mahmudova Qərbi Azərbaycanda yerləşən, eləcə də UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilmiş abidələr haqqında danışıb, tələbələrim mövzu ilə bağlı suallarını cavablandırıb.

# Hüquq fakültəsinin məzunu olan Vətən müharibəsi iştirakçıları ilə görüş

***Oktyabrın 31-də Hüquq fakültəsində Vətən müharibəsində tarixi Zəfərin beş illiyinə həsr olunmuş "Zəfər carçıları" adlı tədbir keçirilib.***

Əvvəlcə Dövlət himni səsləndirilib, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev fakültənin məzunlarının 44 günlük Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqlardan, onların Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən müxtəlif orden və medallarla təltif olunmaqlarından söz açıb. Bildirib ki, şanlı Zəfərin beş illiyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən elan edilən "Konstitusiya və Suverenlik İli" çərçivəsində qeyd olunur: "30 ildən artıq işğal altında qalmış torpaqlarımızın azad edilməsi dövlət başçısının qətiyyətli siyasəti, xalqımızın birliyi, Ordumuzun igidliyi nəticəsində mümkün olub. Bu Zəfərin təməli hüquqi, demokratik, müstəqil və güclü Azərbaycan dövləti yaratmaqla Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Bu gün Vətən müharibəsi qəhrəmanlarının adları daim hörmət və ehtiramla anılır".

Fakültə dekanı Qarabağda aparılan quruculuq və bərpa işlərində, o cümlədən dini və mədəni abidələrin bərpasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun rolunu xüsusi vurğulayıb.

Tədbirdə Hüquq fakültəsinin məzunları olan Vətən müharibəsi iştirakçıları — Yusifkamal Paşabəyli, Rauf Əzimov, Gümrah Məmmədov, Şamo İsmayılbəyli, Tərlan Həmidov, Fuad Qəşəmzadə, Ceyhun İsmayıllı, Şəfi Rüstəmbəyli, eləcə də müharibədə şəhid olmuş Hüquq fakültəsinin məzunu Ceyhun Şalıyevin qardaşı Kamal Şalıyev iştirak ediblər. Müharibə iştirakçıları çıxışlarında döyüş yolu və cəbhə xatirələri haqqında danışıb, əsgər və zabitlərin fədakarlığından, xalqımızın birliyindən, bu dəyərlərin gələcək nəsillərə ötürülməsinin vacibliyindən bəhs ediblər. Onlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandıqları qələbəni və bu yolda aparılan mübarizəni böyük fəxarət hissi ilə vurğulayıblar.

Cinayət hüququ və kriminologiya kafedrasının dosenti Cabir Quliyev çıxışında Vətən müharibəsində iştirak etmiş Hüquq fakültəsinin tələbə və məzunlarının qəhrəmanlığının tələbələr üçün örnək olduğunu diqqətə çatdırıb.

Tədbirdə Hüquq fakültəsinin məzunu olan Vətən müharibəsi iştirakçıları göstərdikləri igidliyə görə təşəkkürnamələrlə təltif olunublar.

# "Vətən müharibəsi qazi övladlarının gözü ilə"

***Oktyabrın 31-də BDU-nun "Zəfər tarixi" lektoriyasında Jurnalistika fakültəsinin təşkilatçılığı ilə "Vətən müharibəsi qazi övladlarının gözü ilə" adlı tədbir keçirilib.***

Tədbirin əvvəlində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev bildirib ki, ali məktəblərin əsas missiyası vətənpərvər, milli dəyərlərə sadiq, cəmiyyətin problemlərinə həssas gənclər yetişdirməkdir. Belə görüşlər gənc jurnalistlərin gələcək peşə fəaliyyətlərində də öz müsbət nəticəsini göstərəcək.

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev fakültədə qazilərlə görüşlərin mütəmadi olaraq keçirildiyini deyib. Qeyd edib ki, tarixi Zəfərimizin beşinci ildönümündə təşkil edilən bu tədbirlər böyük əhəmiyyətə malikdir.

Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli çıxışında qeyd edib ki, qazilərin keçdiyi həyat yolu, döyüş təcrübəsi gələcək jurnalist nəslinə milli-mənəvi dəyərlərin aşılanmasında mühüm rol oynayır.



Qazi jurnalistlər - Baku TV-nin əməkdaşı Tarverdi Tarverdiyev və Azərbaycan Futzal Federasiyasının mətbuat xidmətinin rəhbəri, Jurnalistika fakültəsinin məzunu Mahal Məmmədov döyüş yolundan danışıb, jurnalistlik fəaliyyətləri ilə bağlı fikirlərini bölüşüblər.

Qazi jurnalistlərin övladları – Jurnalistika fakültəsinin I kurs tələbələri Məryəm Tarverdiyeva və Aytən Məmmədova çıxışlarında bildiriblər ki, Vətən müharibəsindəki tarixi qələbə bütöv Azərbaycan gəncliyi üçün ən qiymətli ərmağan, onu qorumaq isə hər kəsin vətəndaşlıq borcudur.

# QƏZƏLLƏR

Cəhan bağında bir incə fidandı, sevdiciyim,
Nə gül ki, başdan ayaq gülsitandı, sevdiciyim.

Ey ali məktəbin ə'laçısı xanım mə'zun,
Fəraq dərsi ağır imtəhandı, sevdiciyim.

Demə vüsal ola bilməz, de bilmək olmaz ki,
Xuda bilir, nə yəqin, nə gümandı, sevdiciyim.

Bu könlümü ələ al qoysa incə dırnaqlar,
Gül üstə bülbülü sancan tikandı, sevdiciyim.

Nişandı, barmağına gəl taxım, bu qaşlı üzük
Səadət ulduzuma asimandı, sevdiciyim.

Məhəbbətindi qocaldan vücudimi, yoxsa
Ürək uşaqdı, nəinki cəvandı, sevdiciyim.

Əman yerimsən, əmansızca getmə gəl, getmə,
Əmandı, sevdiciyim, dur, əmandı, sevdiciyim.

Şükr ki, yaxşı-yaman vardır arəsi mənlə,
Bir arə yaxşı bir arə yamandı, sevdiciyim.

Bu ay ki, ilk görüşün bir yaşı təmam oldu,
Səlamın Əsriyə xoş ərməğandı, sevdiciyim.

***

Üzün ziyası bəsimdir, çirağı neynəyirəm?
Könüldə var ola eşqin, ocağı neynəyirəm?

Görəndə dincəlirəm şəhrin ortasında səni,
Mən istirahət üçün dağı, bağı neynəyirəm?

Səni, ey incə fidan, qarə ruzgar yıxar,
Düşünmə bu qurugövdə dayağı neynəyirəm.

Dəyibsə qəlbinə acı zərafəti, şəkərim,
Görüm yanıb yaxıla, dil-dodağı neynəyirəm?

Roman deyil bu həyat, ey müəllimə, məni sev,
Gərəkmidir acımaq ölmə çağı, neynəyirəm?

Qapı dalında nədən gizlədin özün məndən?
Yaxınlaşıb açıram söz, uzağı neynəyirəm?

Ogünki mehr nə idi, bugünki qəhr nədir?
Yaz istisin edəcək qış sazağı neynəyirəm?

İlahi, Əsri ilə yarını barışdır özün,
Özüm də bilmirəm hicran qabağı neynəyirəm.

***

Ümid bəxş et, İlahi, vüsal üçün bu səhər,
Fəraqə son səhər olsun məlal üçün bu səhər.

Özün tikanə vurar, duysa binəva bülbül
Həzin nəvamı gülən gül cəmal üçün bu səhər.

Şirin-şirin dodağınçün yazanda vəsf qələm
Arı görüb bayılar, çıxsa bal üçün bu səhər.

İki göz istər edə seyr şehli nərgis tək
Gözündə eynəki cah ü cəlal üçün bu səhər.

Səlamı gün kimi doğdu, səbadı söylərdim
O can verən necəsən tək sual üçün bu səhər.

O gün gələ görüşə də'vət eyləyim o gülü,
Desin haçan, deyim onda misal üçün bu səhər.

Fidanı söyləsin, ey Əsri, mən səni sevirəm,
Uğurlu çağdır, İlahi, məcal üçün bu səhər.

***Heydərli Məcid (Seyyid Əsri),***
***BDU-nun Elmi kitabxanasının baş biblioqrafı***

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin şagirdləri üçün infotur

***Oktyabrın 16-da BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin VII sinif şagirdləri üçün infotur keçirilib.***

Əvvəlcə şagirdlər BDU-nun Heydər Əliyev muzeyi və Heydər Əliyev lektoriyası ilə tanış olublar. Bildirilib ki, ən son texnologiyalar əsasında və müasir üslubda hazırlanan hər iki məkanda Ümummilli Liderin həyatını və siyasi fəaliyyətini əks etdirən eksponatlar və məlumatlar həm real, həm də digital şəkildə ziyarətçilərə nümayiş etdirilir.

Daha sonra şagirdlər BDU-nun "Genetika və təkamül", "Faydalı qazıntılar" muzeyi və




Universitetin unikal layihəsi olan "EKO Məkan"ı ziyarət ediblər.

İnfotur zamanı şagirdlərə son illər Universitetdə aparılan yenidənqurma və bərpa işləri, həmçinin BDU-dakı ixtisaslar barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, müasir dövrün tələbləri və karyera imkanları nəzərə alınaraq, tələbələr üçün hər cür şərait yaradılıb. Universitetin müasir tədris metodları, informasiya texnologiyaları sahəsində tətbiq etdiyi yeniliklər, BDU-nun "TEKNOFEST" və "Robotex" komandalarının beynəlxalq uğurları və beynəlxalq reytinqlərdə əldə olunan nailiyyətlər Universitetdə görülən işlərə əyani sübutdur.

Sonda şagirdlər BDU-nun şəhid-məzunlarının xatirəsinə həsr olunmuş guşəyə ziyarət ediblər.

# İnformasiya və sənəd menecmenti fakültəsinin həmtəşkilatçılığı ilə Beynəlxalq simpozium keçirilir

***Oktyabrın 16-da İnformasiya və sənəd menecmenti fakültəsinin, Türkiyənin Bartın, Çankırı Karatekin, Kastamonu və İstanbul 29 Mayıs universitetlərinin İnformasiya və sənəd menecmenti bölümlərinin birgə təşkilatçılığı ilə IV Beynəlxalq Ənənədən Gələcəyə İnformasiya və Sənəd Menecmenti simpoziumu öz işinə başlayıb.***

Türkiyənin Kastamonu Universitetinin ev sahibliyi ilə keçirilən simpoziumun açılış mərasimində Kastamonu Universitetinin İnformasiya və sənəd menecmenti bölümünün rəhbəri Həmid Dərviş iştirakçıları salamlayıb. Bildirib ki, Türkiyədə kitabxanaçılıq və informasiya fəaliyyəti, muzey, arxiv işi ixtisasları üzrə kadr hazırlayan universitetlər tərəfindən təsis edilən simpozium ilk dəfə 2022-ci ildə Bartın Universitetində, 2023-cü ildə Çankırı Karatekin Universitetində keçirilib: "III Beynəlxalq Ənənədən Gələcəyə İnformasiya və Sənəd Menecmenti simpoziumu isə 2024-cü ilin noyabr ayında qardaş ölkəmiz Azərbaycanda BDU-nun ev sahibliyi ilə ən yüksək səviyyədə keçirildi. Mən bir daha ötən il simpoziuma qonaqpərvərliklə ev sahibliyi etmiş Bakı Dövlət Universitetinin rəhbərliyinə minnətdarlığımızı bildirirəm".

Həmid Dərviş vurğulayıb ki, simpoziumun davamlı keçirilməsində məqsəd müvafiq ixtisaslar üzrə kadr hazırlayan universitetlərlə birlikdə sahə üzrə prioritet istiqamətləri müəyyənləşdirmək, akademik fəaliyyəti və elmi tədqiqatları əlaqələndirməyə xidmət etməkdir.

İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı Türkiyə universitetləri ilə ortaq layihələrin həyata keçirilməsinin əhəmiyyətindən bəhs edib. Son illərdə BDU-nun Türkiyənin 40-dan artıq tanınmış universiteti ilə ən müxtəlif istiqamətləri əhatə edən memorandumlar imzaladığını vurğulayıb: "Əminik ki, bu gün öz işinə başlayan və iki gün davam edəcək IV Beynəlxalq Ənənədən Gələcəyə İnformasiya və Sənəd Menecmenti simpoziumu da qarşılıqlı əlaqələrimizə öz töhfələrini verəcək".

Türkiyənin Hacettepe Universitetinin professoru Yaşar Tonta, Türk Kitabxanaçılar Dərnəyinin rəhbəri Ali Fuat Kartal, BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov çıxışlarında sənəd menecmenti, süni intellekt, informasiya logistikası, müəlliflik hüquqları və əlaqəli hüquqlar, kitabxana-informasiya fəaliyyəti, muzey, arxiv işi və s. kimi mühüm istiqamətlərdə aparılan tədqiqatlar və eyni zamanda gələcək hədəflər barədə fikirlərini bildiriblər.

Qeyd edək ki, 2 gün davam edən Beynəlxalq simpoziumun 15 bölməsində ümumilikdə 70 məruzə, o cümlədən BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin əməkdaş və doktorantlarının 20-dən çox məruzəsi dinlənilib.

# BDU-da tələbə və məzunların məşğulluq imkanları genişləndirilir

***Oktyabrın 20-də BDU Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları ilə Şərqi Zəngəzur Regional Məşğulluq Filialının nümayəndələri arasında görüş keçirilib. Görüşdə məqsəd tələbə və məzunların məşğulluq imkanlarının artırılması, onların əmək bazarına çıxışının asanlaşdırılması və Universitetlə dövlət qurumları arasında əməkdaşlığın möhkəmləndirilməsi olub.***

Görüşdə BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova, baş mütəxəssisi İlkin Şərifov, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin direktor müavini Zöhrab Ağamalıyev, Şərqi Zəngəzur Regional Məşğulluq Filialının Təhlil və tərəfdaşlarla iş şöbəsinin baş mütəxəssisi Cəmil Dadaşov, böyük mütəxəssisi Məhərrəm Tağıyev və aparıcı mütəxəssisi Şakir Vəliyev iştirak ediblər.

Günel Qurbanova Mərkəzin fəaliyyəti, layihə və inkişaf proqramları, tələbə və məzunlara göstərilən karyera xidmətləri, işəgötürənlərin təqdim etdikləri vakansiyalar, təcrübə və təqaüd proqramları barədə məlumat verib. Mərkəzin baş mütəxəssisi İlkin Şərifov, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin direktor müavini Zöhrab Ağamalıyev çıxışlarında Universitetin əmək bazarına inteqrasiya yönümlü strategiyasının tələbələrin regionlarda fəaliyyət göstərən şirkətlərlə birbaşa əlaqə qurmasına yeni imkanlar açdığını vurğulayıblar.

Qeyd olunub ki, Şərqi Zəngəzurda fəaliyyət göstərən şirkətlərin maddi-texniki bazasının və analitik ehtiyaclarının təhlili əməkdaşlıq imkanlarının reallaşmasına mühüm töhfə verə bilər.

Görüş zamanı tələbə və məzunların karyera inkişafına dəstək məqsədilə birgə ixtisaslaşmış Karyera Sərgisinin keçirilməsi də müzakirə olunub. Hazırda Şərqi Zəngəzurda tikinti və istehsalat sektorlarını təmsil edən 114 şirkət fəaliyyət göstərir, onların bir qisminin sərgiyə dəvət edilməsi tələbə və məzunların real iş mühiti ilə tanışlığı baxımından əhəmiyyətli olacaq.

# 12 xarici tələbə Hökumətlərarası Təqaüd Proqramları çərçivəsində BDU-da təhsil alacaq

***2025/2026-cı tədris ili üzrə 62 xarici vətəndaş "Hökumətlərarası Təqaüd Proqramları" (HTP) çərçivəsində Azərbaycan ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.***

Onlardan 12-si (9 nəfəri Çin Xalq Respublikası, 1-i Qazaxıstan, 1-i Tacikistan, 1-i Qırğızıstan vətəndaşı) BDU-da təhsil alacaq. Xarici tələbələr BDU-nun "Beynəlxalq münasibətlər", "Dünya iqtisadiyyatı", "Filologiya", "Sosial psixologiya" və "Təhsildə sosial-psixoloji xidmət" ixtisasları üzrə təhsil almaq imkanı əldə ediblər.

# BDU-da "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası – 2025" layihəsinin növbəti mərhələsinə start verilib

***İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya Regional Mərkəzi (İƏGF Avrasiya Regional Mərkəzi), Gənclər və İdman Nazirliyi və BDU-nun birgə tərəfdaşlığı ilə həyata keçirilən "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası - 2025" layihəsinin növbəti mərhələsinə start verilib.***

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov "İslam sivilizasiyası dünyaya nə verdi?" mövzusunda çıxış edərək İslam dininin tarixi inkişaf yolundan, islam alimlərinin dünya elmlərinin formalaşmasına verdiyi mühüm töhfələrdən danışıb. O, həmçinin hüquqi dövlət sisteminin mahiyyəti, İslam dünyasında dövlətçilik ənənələrinin yaranması və bu prosesin sürətli inkişafına təsir edən əsas amillərlə bağlı fikirlərini tələbələrlə bölüşüb.

Qırğız Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanov "Beynəlxalq təşkilatların beynəlxalq münasibətlərdə rolu, Qırğızıstan Respublikasının xarici siyasət prioritetləri və Azərbaycanla münasibətləri" mövzusunda çıxış edib. O, beynəlxalq təşkilatların yaranma tarixi və inkişaf mərhələlərindən bəhs edərək, xüsusilə Birləşmiş Millətlər Təşkilatı (BMT), UNESCO və İƏT kimi qurumların qlobal sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təmin edilməsində oynadığı mühüm roldan söz açıb. Səfir həmçinin bu təşkilatların beynəlxalq əməkdaşlığın möhkəmlənməsi, regional balansın qorunması və dövlətlərarası münasibətlərin tənzimlənməsindəki əvəzsiz töhfələrinə də toxunub.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, İƏT Modeli proqramının əsas məqsədi İƏT məkanında gənclərin beynəlxalq əməkdaşlığının gücləndirilməsinə dəstək vermək, gənclər təşkilatları rəhbərlərinin və üzvlərinin diplomatiya, idarəetmə, kommunikasiya sahəsində yeni bilik və təcrübə əldə etməsinə yardım etməkdir.

Ötən illər ərzində azərbaycanlı tələbələr dəfələrlə İƏT-ə 40-dan artıq üzv ölkə nümayəndəsinin iştirak etdiyi "Beynəlxalq İƏT Modeli" yarışmalarında Azərbaycanı layiqli şəkildə təmsil ediblər.

# BDU-da “Adaptasiya” mövzusunda təlim keçirilib

***Oktyabrın 6-da BDU-nun Psixoloji yardım sektorunun (PYS) psixoloqu Natəvan Həsənzadə Universitetin "Tələbə evi"ndə birinci kurs tələbələri üçün “Adaptasiya” mövzusunda təlim keçib.***

Təlimin məqsədi tələbələrin yeni tədris mühitinə uyğunlaşmasını asanlaşdırmaq, psixoloji və fərdi inkişafını dəstəkləmək olub. Qeyd olunub ki, Universitet həyatına tez adaptasiya tələbələrin təlim-tədris prosesində uğur qazanmasında mühüm rol oynayır.

Təlim zamanı iştirakçılara adaptasiya anlayışı, onun insan həyatının müxtəlif sahələrinə təsiri, mərhələləri və müddəti barədə ətraflı məlumat verilib. Tələbələr psixoloji testlər vasitəsilə öz adaptasiya səviyyələrini müəyyənləşdirə biliblər.

Sonda Natəvan Həsənzadə tələbələrə tapşırıqlar təqdim edib, onların suallarını cavablandırıb.



# BDU könüllüləri üçün “Art terapiya” təlimi



***Oktyabrın 6-da “BDU könüllüləri” təşkilatının Sosial elmlər və psixologiya fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə “Mən və kölgəm” layihəsi çərçivəsində klinik psixoloq Gülsənəm Vahidin “Art terapiya” adlı təlimi keçirilib.***

Tələbələrin özünüifadə bacarıqlarını gücləndirmək və emosional rahatlıq əldə etmələri üçün keçirilən təlimin praktik mərhələsində iştirakçılar ağ maskaların üzərində duyğu və təsəvvürlərini rənglərlə ifadə ediblər. Bu proses iştirakçılara öz emosiyalarını daha dərindən anlamaq və rənglər vasitəsilə paylaşmaq imkanı yaradıb.

Təlimin sonunda iştirakçılar çəkdikləri rəsmləri birgə müzakirə edərək, duyğu və düşüncələrini bölüşüblər.

# BDU tələbələri "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsində startaplarını təqdim ediblər

***Oktyabrın 7-də Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi həyata keçirilib. Layihənin məqsədi kənd təsərrüfatı sahəsində innovasiyaların və rəqəmsal texnologiyaların tətbiqi ilə süni intellektin istifadəsini təşviq etməkdir.***

Layihə çərçivəsində nazirliyin, ali təhsil müəssisələrinin nümayəndələri, akselerasiya və inkubasiya mərkəzlərinin iştirakı ilə startapçılarla görüş keçirilib. Görüşdə Biologiya fakültəsinin IV kurs tələbələri Qurbanəli Feyzullayev, Ləman İmanzadə, Ekologiya və torpaqşünaslıq fakültəsinin məzunu Nigar İsgəndərova “AgroScan” adlı layihələrini tədbir iştirakçılarına təqdim edib, onların suallarını cavablandırıblar.

“AgroScan” layihəsi kənd təsərrüfatında bitkilərin sağlamlığı və torpağın vəziyyətinin izlənməsi üçün süni intellekt əsaslı hiperspektral analiz texnologiyasından istifadə edən innovativ sistemdir. Layihə hiperspektral görüntüləri emal edərək su stresi, xəstəlik və məhsuldarlıq göstəricilərini erkən mərhələdə təhlil edir, nəticələr isə mobil tətbiq vasitəsilə fermerə təqdim olunur. Bu həll fermerlərə resurslardan səmərəli istifadə etməyə, məhsuldarlığı artırmağa və ekoloji baxımdan davamlı kənd təsərrüfatına töhfə verməyə şərait yaradır.

# BDU tələbələri IDEA Heyvanlara Qayğı Mərkəzində

***Oktyabrın 7-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbə və əməkdaşları “BDU könüllüləri”nin təşkilatçılığı ilə IDEA Heyvanlara Qayğı Mərkəzinə ekskursiya ediblər.***

Ekskursiya çərçivəsində tələbələrə Mərkəzin yaradılma tarixi, əsas fəaliyyət istiqamətləri və məqsədləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, IDEA Heyvanlara Qayğı Mərkəzinin əsası 2014-cü ilin oktyabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva tərəfindən qoyulub. 2016-cı ilin sonunda inşası tamamlanan Mərkəzin rəsmi açılışı həmin ilin noyabrın 10-da Leyla Əliyevanın iştirakı ilə baş tutub. 1 mart 2017-ci il tarixindən etibarən Mərkəz rəsmi fəaliyyətə başlayıb.

Tələbələrə Mərkəzdə fəaliyyət göstərən müasir avadanlıqlarla təchiz olunmuş klinika, it və pişiklər üçün sığınacaqlar, karantin blokları, himayə bölməsi, heyvanlar üçün mehmanxana və salon, oyun meydançası, yataqxana, konfrans zalı, kafe və dükan haqqında geniş informasiya verilib.

# BDU tələbələri üçün fransız dili təlimləri

***BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) “Xarici dil klubu”nun təşkilatçılığı ilə fransız dili təlimlərinə start verilib.***

Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin tələbəsi Jean-Lucien Fouf-Kagna Grebayenin keçirdiyi təlimin məqsədi tələbələr arasında fransız dilinə marağı artırmaq, dil biliklərini inkişaf etdirməkdir.

Təlim iştirakçıları əvvəlcə özlərini təqdim etməyi, əlifba və rəqəmləri, eləcə də həftənin günlərini "kölgələmə" texnikası ilə öyrəniblər. Tələbələr interaktiv oyunlar və praktiki tapşırıqlar vasitəsilə dili öyrənməyə xüsusi maraq göstəriblər.

Bir ildən artıqdır fəaliyyət göstərən BDU THİK-in “Xarici dil klubu” tələbələrin ingilis, rus, fransız və alman dillərini öyrənmələrinə xidmət edir.

# BDU və “ARB 24”ün birgə layihəsi olan növbəti “NewsLab” təlim proqramı yekunlaşıb

***Oktyabrın 20-də Bakı Dövlət Universiteti və “ARB 24” telekanalı arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində dördüncü "NewsLab" təlim proqramı yekunlaşıb. Təlimə cəlb olunan 11 tələbədən 5-i telekanalda işlə təmin edilib.***

Mərasimdə çıxış edən “ARB 24” telekanalının direktoru Radik İsmayılov proqramın uğurla həyata keçdiyini, gələn ilin fevralında elan ediləcək beşinci proqramda yeniliklərin gözlənildiyini qeyd edib.

Layihəni uğurla bitirən tələbələrə sertifikatlar təqdim edilib və onlara çalışacaqları verilişlər barədə məlumat verilib.



Qeyd edək ki, təlim proqramı 3 ay davam edib. Müsahibə mərhələsindən uğurla keçən tələbələr daha sonra praktik məşğələlərə cəlb olunublar.

2022-ci ildən keçirilən "NewsLab" təlim proqramı çərçivəsində BDU-nun 24 məzunu işlə təmin olunub. Birgə layihə xəbər hazırlanması, nitq mədəniyyəti, görüntü, videomontaj sahələrini əhatə edir.

# BDU-da tədbir: “Kimyanın sehri”

***Bakı Dövlət Universitetinin (BDU) Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Elmi Cəmiyyətinin (TEC) birgə təşkilatçılığı ilə “Kimyanın sehri” adlı elmi-praktik tədbir keçirilib.***

Tədbir çərçivəsində fakültə tələbələrinin iştirakı ilə bir sıra maraqlı kimyəvi təcrübələr — “Fil dişi reaksiyası”, “Vulkan reaksiyası”, “Bixromat-xromat rəng dəyişmə reaksiyası”, “Süni qan reaksiyası” və “Soyuq alov reaksiyası” nümayiş etdirilib.

Təcrübələrin məqsədi tələbələrdə kimyəvi reaksiyaların mexanizmlərinə dair bilik və anlayışları möhkəmləndirmək, elmi proseslərin praktik tərəflərini əyani şəkildə nümayiş etdirmək olub. Tədbir zamanı nümayiş etdirilən reaksiyalar elmi baxımda izah olunub, praktiki tətbiqi barədə ətraflı məlumat verilib.

# BDU-da Süni İntellekt Etikası üzrə Türk Dünyasının I Beynəlxalq Konfransı və Payız məktəbinin açılış mərasimi

***Oktyabrın 28-də BDU, Beynəlxalq Türk Akademiyası və Türkiyə Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə Süni İntellekt Etikası üzrə Türk Dünyasının I Beynəlxalq Konfransı və Payız məktəbinin açılış mərasimi keçirilib.***




Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, XXI əsr bəşəriyyət üçün yeni bir dönüş nöqtəsidir. Texnologiyalar inkişaf etdikcə, süni intellekt sistemləri insan düşüncəsinin sərhədlərini aşır. Lakin bu texnologiyanın real gücü onun etika ilə tamamlandığı, insan yönümlü və məsuliyyətli şəkildə tətbiq edildiyi zaman ortaya çıxır. Bu baxımdan süni intellektin etik ölçülərini müzakirə etmək təkcə elmi məsələ deyil, həm də mənəvi və milli məsuliyyətdir. Prezident İlham Əliyev tərəfindən imzalanmış “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası” ölkəmizin gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirir. Bu strateji sənəddə süni intellektin “etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəsi”, “insan yönümlü yanaşma, şəffaflıq, ədalət və etibarlılıq” kimi prinsiplər dövlət siyasətinin ayrılmaz hissəsi kimi təsbit olunub: “Azərbaycan bu sahədə regionda nümunə yaratmaq əzmindədir. Bakı Dövlət Universiteti isə bir əsrdən çox tarixə malik, elmi və mənəvi düşüncənin beşiyi olaraq süni intellektin etik və elmi tərəflərinin araşdırılmasına xüsusi diqqət yetirir. Son illərdə Universitetdə bu istiqamətdə mühüm addımlar atılıb. Beynəlxalq Türk Akademiyası ilə birlikdə “Süni intellektin etikası” kafedrası təsis edilib və onun tərkibi formalaşdırılmaqdadır. Bu kafedra süni intellektin istifadəsi zamanı etik, hüquqi, sosial və digər məsuliyyət tərəflərini də öyrədir. Beynəlxalq əməkdaşlıq çərçivəsində Türkiyə, Qazaxıstan, Özbəkistan və digər ölkələrin universitetləri ilə birgə etik və hüquqi tədqiqat layihələrinin reallaşdırılması nəzərdə tutulur. Bu gün BDU-nun qarşısında bu sahədə duran əsas vəzifə yalnız süni intellekt sistemləri yaratmaq deyil, insana xidmət edən, ədalət və etika prinsipləri ilə tənzimlənən elmi mədəniyyət formalaşdırmaqdır”.

Rektor diqqətə çatdırıb ki, Türk dünyasının inkişafı və həmrəyliyi yalnız iqtisadi əlaqələrin gücləndirilməsi ilə deyil, elm, təhsil, mədəniyyət və ortaq dəyərlər üzərində qurulmuş möhkəm bir mənəvi körpü ilə mümkündür: “Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti və dərin strateji baxışları türk xalqlarının həmrəyliyi, qarşılıqlı hörmət və əməkdaşlıq ruhu üçün əbədi bir ideyanın təməlini qoyub. Bu ideya Türk dünyasının inteqrasiya prosesləri, birgə layihələri və gələcəyə yönəlmiş strateji baxışında öz əksini tapır. Məhz bu ideyaların davamı olaraq, Türk dünyası dövlətlərinin başçılarının uzaqgörən təşəbbüsləri ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində yeni bir mərhələyə – elm, texnologiya, süni intellekt və innovasiya sahəsində ortaq ekosistemin formalaşması mərhələsinə qədəm qoyulub. Bu ekosistem yalnız texnoloji tərəqqini deyil, həm də etik məsuliyyəti, insan mərkəzli yanaşmanı və ortaq dəyərlər üzərində qurulmuş elmi əməkdaşlığı özündə birləşdirir. BDU tərəfindən elm və təhsildə yeni çağırışlara cavab olaraq “Türk dünyasında süni intellekt etikası Mərkəzi”nin yaradılması kimi təşəbbüs irəli sürmək istərdik. Bu təşəbbüs Türk dövlətlərinin müvafiq universitetlərinin elmi potensialının birləşdirilməsinə, süni intellekt sahəsində ortaq elmi-praktik platformanın qurulmasına və gələcəyin etik prinsiplərə əsaslanan texnoloji inkişaf modelinin yaradılmasına yönəldilməlidir.

Oktyabrın 31-dək davam edəcək Süni İntellekt Etikası üzrə Türk Dünyasının I Beynəlxalq Konfransı və Payız məktəbində dünyanın 10 ölkəsindən aparıcı universitet və elmi mərkəzlərin nümayəndələri, alimlər, ekspertlər və tələbələr iştirak edirlər. Bu beynəlxalq platforma təkcə süni intellektin texnoloji tərəflərini deyil, onun etik, sosial və hüquqi aspektlərini müzakirə etmək, həmçinin ortaq elmi baxış və standartların formalaşdırılmasına töhfə vermək məqsədi daşıyır. Tədbir çərçivəsində süni intellektin etik prinsipləri, tədris proqramlarına inteqrasiyası, məsuliyyətli texnologiya anlayışı, eləcə də insan yönümlü innovasiya modelləri kimi aktual mövzular ətrafında geniş fikir mübadiləsi aparılacaq”. Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev süni intellektin sürətli inkişafının özü ilə həyatımıza misli görülməmiş yeni imkanlar gətirdiyini deyib: “Hazırda süni intellekt təhsil, səhiyyə və dövlət idarəçiliyindən tutmuş, təhlükəsizlik və idarəetməyə qədər insan həyatının bütün sahələrinə təsir göstərir. Bu isə yeni çağırışları və həllini tələb edən sualları gündəmə gətirir. Türk Dövlətləri Təşkilatının bütün strateji sənədlərində bu məsələnin fövqəladə əhəmiyyətinə toxunulub, müxtəlif sahələrdə süni intellektdən istifadənin inkişaf etdirilməsinin vacibliyi qeyd olunub. Bugünkü konfrans yalnız akademik tədbir deyil, həm də birgə intellektual və institusional səylər vasitəsilə bu strateji məqsədlərin həyata keçirilməsi istiqamətində atılan ən böyük praktik addımdır. Biliyi və əxlaqı məsuliyyətlə əlaqələndirən, dərin fəlsəfi ənənələrə sahib Türk dünyası süni intellekt etikasına dair qlobal müzakirələrə mühüm töhfə verə bilər. Süni intellekti ortaq mənəvi dəyərlərlə birləşdirməklə Türk dünyasına xidmət etmiş oluruq”.

Türkiyə Elmlər Akademiyasının Prezidenti, professor Muzaffer Şeker isə vurğulayıb ki, süni intellekt texnologiyalarının bir çox sahələrdə tətbiqi onun etik, hüquqi və mədəni istiqamətlərdə də araşdırılmasının zəruriliyini tələb edir: “Süni intellekt artıq rəqəmsal laboratoriyaların mövzusu deyil, beynəlxalq siyasətin və iqtisadiyyatın mərkəzindədir. Süni intellekt texnologiyalarının inkişafı artıq qlobal rəqabət halına gəlib, Türk dünyasının bu rəqabətdə öz layiqli yerini tutması üçün alimlərimizin üzərinə mühüm öhdəlik düşür. Konfransda müzakirə ediləcək məsələlər və qəbul ediləcək qərarların qeyd edilən istiqamətdə əsaslı bir çağırışa çevriləcəyinə inanıram”.

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Bakı Dövlət Universitetində günümüzün ən aktual və vacib məsələsinə çevrilən süni intellektin etikasına dair təşəbbüslərin Türk dünyası üçün xüsusi əhəmiyyət kəsb etdiyini bildirib: “Türk dünyası öz gələcəyini birlikdə düşünür. Süni intellekin daha ədalətli yönəldilməsi üçün istər Türk dünyası, istərsə də bütün dünya ölkələri çalışmalıdır. Bu konfransda aparılan müzakirə və dialoqlar tək Türk dünyasının deyil, dost və müttəfiq ölkələrin də gələcəyinə öz təsirini göstərəcək”.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri Fərid Osmanov, Pakistanın Quaid-i-Azam Universitetinin Al-Farabi adına Süni İntellekt və Kiber Təhlükəsizlik Mərkəzinin direktoru, professor Muazzam Ali xan Xattak süni intellekt etikasına dair birgə təşəbbüslərin əhəmiyyətinə toxunub və konfransın önəmli nəticələr verəcəyinə əminliklərini ifadə ediblər.

Konfrans çərçivəsində Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker və Pakistanın Quaid-i-Azam Universitetinin Al-Farabi adına Süni İntellekt və Kiber Təhlükəsizlik Mərkəzinin direktoru Muazzam Ali xan Xattaka Bakı Dövlət Universiteti adından Süni İntellekt Etikası üzrə Türk Dünyasının I Beynəlxalq Konfransı və Payız Məktəbinin təşkilinə göstərdiyi dəstəyə, elmi əməkdaşlığın və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə verdiyi töhfəyə görə təşəkkürnamələr təqdim olunub.

Sonda BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bədii kompozisiya nümayiş olunub.

# BDU tələbələri Heydər Əliyev muzeyində

***Oktyabrın 27-də İnformasiya və sənəd menecmenti fakültəsinin "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisası üzrə təhsil alan tələbələri Universitetin Heydər Əliyev Muzeyini ziyarət ediblər. Muzeyin mütəxəssisi Afət Seyidzadə 1997-ci ildən Ulu Öndər Heydər Əliyevin şəxsi razılığı ilə Universitetdə fəaliyyətə başlayan Muzey haqqında tələbələrə ətraflı məlumat verib. Bildirib ki, Heydər Əliyev Muzeyi Ümummilli Liderin zəngin irsinin təbliği və öyrənilməsində mühüm əhəmiyyətə malikdir.***

Muzeydə BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin həyatının müxtəlif dövrlərini əks etdirən sənədlər nümayiş olunur.

Ulu Öndər Heydər Əliyevin mənalı ömrünün, xalqımızın və dövlətimizin rifahına həsr olunmuş həyatının ayrı-ayrı məqamlarından bəhs edən sənədlər və fotoşəkillər tələbələrdə böyük təəssürat yaradıb.




**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.10.2025

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08